ISSN 2789-4606

# QƏRBİ KASPİ UNİVERSİTETİ

# ELMİ XƏBƏRLƏR

Humanitar elmlər seriyası

SAY 4 – 2020

# WESTERN CASPIAN UNIVERSITY

# SCIENTIFIC BULLETIN

The Series of Humanitarian Sciences

№ 4 - 2020

BAKI – 2020

## REDAKSİYA HEYƏTİ

**Baş redaktor :** Hüseynqulu Bağırov, Qərbi Kaspi Universitetinin Qəyyumlar Şurasının sədri, t.ü.f.d., professor

**Məsul katib :** Gülnarə Seyidova fil.ü.f.d.

**Üzvlər:**

Nərgiz Axundova- AMEA-nın müxbir üzvü, t.e.d., professor

Elçin Əliyev, sən.e.d., professor

Emilia Alaverdiyeva, s.e.d., professor (Gürcustan Texniki Universiteti)

Ədalət Kərimov, r.e.d., professor

Fuad Məmmədov, t.e.d., professor

Pərviz Qurbanov, i.ü.f.d., professor

Şahin Xəlilli, fil.ü.f.d., professor

Məsud Əfəndiyev, professor (Almaniya, Helmholtz" Elmi-Tədqiqat Mərkəzi)

Mikael Sukkov, b.e.d., professor (Almaniya, Təbiəti Qoruma Fondunun təsisçisi)

Ahmet İpek, b.e.d., professor (Uludağ Universiteti,Turkiyə)

Hartmut Müller, b.e.d. (Lower Oder Valley (Milli Park) və Şirvan Milli Parklarının eks-direktoru)

Abdol Samad Navi, UİTM (Universiti teknoloji MARA), Bizness və menecment fakultəsinin iqtisadçı professoru.

Mohammed İshfaq, İqtisadi analitik, Pakistan

Afaq Həsənova, r.ü.f.d., dosent

## *Redaksiyadan*

***Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı 2017-ci ildən oxucularla görüşə davamlı yeniliklərlə gəlməkdədir. Bu da jurnalın qarşısına qoyduğu inkişaf hədəfi ilə bağlıdır.***

***Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.***

***Diqqətinizə çatdırmaq istəyirik ki, cari ildən "Elmi xəbərlər" jurnalına göndərilən məqalələr redaksiyanın peşəkar ekspert heyətinə resenziyaya göndəriləcək, yalnız elmi-tədqiqat tutumlu əsərlərin dərc olunması mümkün olacaq.***

***Qərbi Kaspi Universitetinin "Elmi xəbərlər" jurnalının redaksiya heyətinin məqsədi yerli və xarici tədqiqatçılar, alimlər tərəfindən aparılan fundamental və tətbiqi araşdırmaları, pedaqoji, metodoloji və metodiki məsələləri əhatə edən, elm və təhsilin inkişafına xidmət göstərən elmi tutumlu yazıları geniş oxucu auditoriyasına çatdırmaqdır.***

***Həmçinin, "Elmi xəbərlər" jurnalı digər universitet və institutların dissertant və elmi işçilərinin elmi əsərlərini dərc etməyə açıqdır.***

***Ümid edirik ki, "Elmi xəbərlər" jurnalı ictimai və humanitar sahələrdə həyata keçirilən elmi tədqiqatların yayılmasında, məqalələrin geniş oxucu kütləsinə çatmasında bir növ vasitəçi rolunu oynayacaq. "Elmi xəbərlər" jurnalının redaksiya heyəti mütəxəssisləri, elm adamlarını, o cümlədən, gənc tədqiqatçıları əməkdaşlığa və jurnalda elmi məqalələrlə çıxış etməyə dəvət edir.***

*From the editorial office!*

*In 2017 the journal "Scientific News" of “Western Caspian” University, is looking forward to welcoming its readers with great innovations.*

*The journal "Scientific News" was included in the publication list, which was approved by the Higher Attestation Commission under the President of the Azerbaijan Republic.*

*The journal’s main objective is to inform a wide range of readers about research conducted by local and foreign scientists in the fields of fundamental and applied science - pedagogy, psychology, methodology and another reserch, included in the development of science and education.*

*We hope that "Scientific News" journal will play the role of an intermediary for a wide readership through the dissemination of scientific research in the social and humanitarian fields.*

*Editorial experts for the journal "Scientific News", scientists, especially young researchers are invited to cooperate with the journal. We want to note that our journal is open to cooperation with scientists and researchers from other universities.*

*We would like to draw your attention to the fact that in the current year all the articles of the "Scientific News" journal will be sent for consideration to professional experts, and only works of scientific and research potential will be published.*

# M Ü N D Ə R İ C A T

## PSİXOLOGİYA

**1. Natəvan Yadulla qızı KƏRƏMOVA**
*İmtahan stresinin nəzəri əsasları (ədəbiyyat icmalı)*.................................... 7
**2. Dilbər Sadiq qızı BƏHMƏNLİ**
*Ekstremal şərait anlayışı* ...................................................................... 18
**3. Gülnarə Xəlil qızı MƏMMƏDOVA**
*Psixosomatik xəstəliklər zamanı şəxsiyyətin özünügerçəkləşdirməsinin psixoloji xüsusiyyətləri.* ......................................................................... 25
**4. Sait Çavşin oğlu ÖRBƏYI**
*İradə anlayışı psixoloji yanaşmalar çərçivəsində*.................................... 30
**5. Şəfa Şamil qızı NƏSİBOVA**
*İşləyən və evdar qadınların stressə dayanıqlılığının xüsusiyyətləri.*.......... 41
**6. Fatih AŞAN**
*Tənhalıq əlilliyi olan uşaqların sosial-psixoloji problemlərindən biri kimi.* ........................................................................................ 50
**7. Elnarə Əhməd qızı ƏHMƏDOVA**
*Yeniyetməlik yaş dövründə çətin uşaqların xarakterik xüsusiyyətləri və onlarla aparılan profilaktik işlərin mahiyyəti və istiqaməti*.................. 62
**8. Ahmet ATİK**
*Autizmin erkən əlamətlərinin tədqiqi (ədəbiyyat icmalı)*..........................70
**9. Afərin Əli qızı ABBASOVA**
*Təhsilə yeni baxış: distant təhsil prosesində tələbə-müəllim münasibətlərinin psixoloji problemləri*.................................................... 79

## SİYASƏT

**10. Elmira Elçin qızı QƏZVİNOVA**
*Qanunvericilik təşəbbüsü məsələsinə dair.*............................................... 85
**11. Zümrüd Novruz qızı NURİYEVA**
*Müasir dövrdə Macarıstan və avropa birliyi: münasibətlərdə yaranmış gərginlik və onu doğuran səbəblər.* .......................................... 91
**12. Aytən Şahin qızı Ramazanova**
*Cənubi Qafqazda Azərbaycan Respublikasının xarici siyasətinin dinamikası və əsas istiqamətləri.* ............................................ 99

## DİLÇİLİK

**13. Billurə İlqar qızı TAHİRZADƏ**
*İngilis onomastikasının mənbələri və inkişafı yolları* ...............................118
**14. Gülarə Eldar qızı QÜDRƏTLİ**
*Koheziya və koherensiyanın cəhətləri* ....................................................124
**15. Samirə Elbrus qızı CƏFƏRZADƏ**
*İdiomatik ifadələrin tərcüməsində ekvivalentlik məsələləri*......................133
**16. Nəzrin Hüseyn qızı BABAYEVA**
*Narratoloji mətn: Linqvistik yanaşma*.....................................................143

## SƏNƏTŞÜNASLIQ

**17. İlham İslam oğlu NƏZƏROV**
*Müslüm Maqomayevin estrada ifaçılıq üslubunun xüsusiyyətlərinə dair*... ........................................................................ 152
**18. Emil Raul oğlu AĞAYEV**
*Sənətşünas Ziyadxan Əliyev tədqiqatlarında Səttar Bəhlulzadə fenomeni* ........................................................................162

## FƏLSƏFƏ

**19. Samirə Nazim qızı DADAŞOVA**
*Özümüzü seçməklə, hər kəsi seçmiş oluruq.*............................................169

## PSİXOLOGİYA

**UOT 613.863**

# İMTAHAN STRESİNİN NƏZƏRİ ƏSASLARI (ƏDƏBİYYAT İCMALI)

**Natəvan Yadulla qızı KƏRƏMOVA**

*Qərbi Kaspi Universiteti*
*phd_karamova@mail.ru*

Məlumdur ki, imtahan stresi aydın təzahür edən sosial şərtlənmiş reaksiyalar, insan orqanizminin kompleks şəkildə psixofizioloji dəyişiklikləri ilə müşaiyət olunan bir halıdır. Ədəbiyyat mənbələrindən alınmış son nəticə olaraq, imtahan stresinin mənfi emosional çalarlı fonunda, koqnitiv proseslərin dəyişikliyi, həyəcanın yüksəlməsi, vegetativ sinir sistemin fəaliyyətinin sürətlənməsi, müxtəlif davranış pozulmaları və s. müşahidə edilir. Yaranmış vəziyyət isə, ən çox yeniyetmə və gənclərə mənfi təsir edərək, sağlamlığının zəifləməsinə, bir sıra psixopatoloji hallara səbəb ola bilər.

**Açar sözlər:** imtahan stresi, psixofizioloji dəyişikliklər, koqnitiv proseslər, vegetativ sinir sistemi, emosiya, imtahan stresi simptomları.

## ABSTRACT

## THEORETICAL BASES OF EXAM STRESS (LITERATURE REVIEW)

It is known that socially conditioned reactions, which are clearly manifested in exam stress, are a state accompanied by complex psychophysiological changes in the human body. According to the final results obtained from the literature, against the background of negative emotional tone of exam stress, changes in cognitive processes, increased excitement, acceleration of the autonomic nervous system, various behavioral disorders, etc. is being observed. The situation, which affects most adolescents and young people, can lead to poor health and a number of psychopathological conditions.

**Keywords:** exam stress, psychophysiological changes, cognitive processes, vegetatis nervous system, emotions, symptoms of exam stress.

## РЕЗЮМЕ

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ЭКЗАМЕНАЦИОННОГО СТРЕССА (ОБЗОР ЛИТЕРАТУРЫ)

Известно, что социально обусловленные реакции, которые отчетливо проявляются при экзаменационном стрессе, представляют собой состояние, сопровождаемое сложными психофизиологическими изменениями в организме человека. Согласно окончательным результатам, полученным из литературы, на фоне отрицательного эмоционального тонуса экзаменационного стресса, изменений в когнитивных процессах, повышенного возбуждения, ускорения вегетативной нервной системы, различных поведенческих расстройств и т. д. наблюдается, ситуация, которая затрагивает большинство подростков и молодых людей, может привести к ухудшению здоровья и ряду психопатологических состояний.


**Ключевые слова:** экзаменационный стресс, психофизиологические изменения, когнитивные процессы, вегетативная нервная система, эмоции, симптомы экзаменационного стресса.

İmtahan stresi-psixi travma vuran faktor olub, müxtəlif psixopatoloji dəyişikliklərə (reaktiv depressiya, psixosomatik xəstəliklər, nevrozlar və s.) səbəb ola bilər. Ədəbiyyat mənbələrindən məlumdur ki, imtahan stresi aydın təzahür edən sosial şərtlənmiş reaksiyalar, insan orqanizminin kompleks şəkildə psixofizioloji dəyişiklikləri ilə müşaiyət olunan bir halıdır [1, 4, 5, 6]. İmtahan stresi məktəblilər və tələbələr arasında psixi gərginlik yaradan faktorlar içərisində ön yerlərdən birini tutur. Çox vaxt imtahan prosesi psixi travma törədən faktorlardan biri sayılır, bundan hətta klinik psixatriyada nevrozların psixi mənşəyinin xarakterində və təsnifatında da istifadə edilir [25]. Son illər imtahan stresinin tələbələrin sinir, ürək-damar və immun sisteminə neqativ təsiri haqqında inandırıcı dəlillər alınıb və bunlar isə genetik apparatın pozulmasına, onkoloji xəstəliklərin yaranması, əmələ gəlmə tezliyinin artmasına səbəb ola bilər. Xüsusilə, Hyustonun tibb məktəbinin tədqiqatçıları tərəfindən aydınlaşdırılıb ki, imtahan sesiyası dövründə tələbələrin reparasion mexanizmləri aktivləşir, hansı ki, bunlar DNT malekulunun zədələnmiş sahələrinin bərpasına cavab verir [54, 59]. Digər tədqiqatlarda göstərilir ki, imtahan stresi, xüsusilə, kofeindən istifadə ilə birgə, tələbələrin arterial təzyiqinin davamlı artmasına gətirib çıxara bilər [36, 49]. Dyusseldorf Universitetinin tədqiqatçıları periodont və ağız boşluğunun mikroflorasının pisləşməsinin səbəbinin imtahan stresinin tələbələrin immun statusuna mənfi təsiri olması ilə izah ediblər [27, 56]. Bolqar alimləri

isə, imtahan stresinin hematoloji göstəricilərə dərin təsirlərini tədqiq etmiş, imtahan vaxtı qanın vacib elementlərində, xüsusilə hemoqlobin, hematokrit göstəricisində eritrositlərin faizlə tərkibinin dəyişməsini müəyyənləşdirmişlər [44]. Rusiya alimlərinin apardığı tədqiqatlarda imtahan zamanı məktəbli və tələbələrin ürək-damar sisteminin vegetativ tənzimləməsindəki pozuntular və EEQ-də yaranmış dəyişikliklər aşkar edilib [9, 22, 23, 32]. Uzun müddətli və əhəmiyyətli dərəcədə emosional gərginlik vegetativ sinir sisteminin simpatik və parasimpatik şöbələrinin aktivləşməsinə səbəb ola bilər ki, bu da vegetativ homeostazın pozulması və emosional stresə qarşı ürək-damar sisteminin yüksəlmiş labil reaksiyası ilə müşaiyət oluna bilər [2, 8, 14, 15]. İmtahana hazırlıq dövründə xoşagəlməz faktorlara - intensiv zehni fəaliyyət, yüksəlmiş statistik gərginlik, kifayət qədər məhdudlaşmış hərəki aktivlik, yuxu rejiminin pozulması, tələbənin sosial statusunda mümkün dəyişikliklər ilə əlaqələr - bütünlüklə orqanizmin normal həyat fəaliyyətini reallaşdıran vegetativ sinir sisteminin gərginləşməsinə gətirib çıxarır [3, 39, 41, 51].

Çox saylı tədqiqatlar göstərir ki, imtahan zamanı ürək yığılmalarının tezliyi kifayət qədər artır, arterial təzyiq yüksəlir, əzələ və psixoemosional gərginliyin səviyyəsi artır [37,54]. İmtahandan sonra fizioloji göstəricilər normaya elə də tez qayıtmır. Adətən müəyyən müddət lazım olur ki, arterial təzyiq normaya - ilkin səviyyəyə qayıtmış olsun [1, 28, 39]. Beləliklə, çox saylı tədqiqatçıların rəyinə görə imtahan stresi özündə məktəbli və tələbələrin sağlamlığı üçün təhlükə yarada biləcək faktor rolunu oynayır. Bir sıra tədqiqatlarda ənənəvi olaraq psixoemosional gərginliyin vegetativ korrelyatları kimi ürək-damar sisteminin iki əsas parametri: ürək yığılmalarının tezliyi və arterial təzyiqin səviyyəsi ölçülmüş və onlara əsasən vegetativ Kerdo indeksi hesablanmışdır, hansı ki, ümumi mənada stress zamanı simpatik və parasimpatik sinir sisteminin münasibətini aşkar etməyə imkan verir. Praktik kardiologiyaya ürək ritmlərinin variabelliyinin riyazi analizinin daxil olması ilə insan orqanizminin tənzimləməsində simpatik və parasimpatik sinir sisteminin rolunu daha dəqiq aşkar etmək mümkün olmuşdur [13, 18, 28, 43]. Bundan əlavə, stress şəraitlərdə şəxsiyyətin fizioloji və psixoloji reaksiyalar kimi korrelyatlar arasında əlaqələrin öyrənilməsinə çox diqqət yetirilir, bu isə psixosomatik qarşılıqlı əlaqələrin mexanizmlərinə yaxınlaşmağa imkan verir. Həm də, qeyd etmək lazımdır ki, imtahan stresi «distres» xüsusiyyəti qazanaraq heç də həmişə zərərverici xarakter daşımır. Müəyyən şəraitlərdə psixoloji gərginlik stimuləedici xarakter daşıyaraq, təhsil alanlara öz biliklərini mobilizasiya etməkdə və fərdi ehtiyatlarından qarşıda qoyulmuş təhsil tapşırığının həllində istifadə edilməsində kömək edir [26, 37, 40].

Məlumdur ki, cəmiyyətdə insan tez-tez «imtahan» şəraitlərinə düşür ki, bu zaman o öz sosial sərbəstliyini, maddi təminatını, fiziki və intellektual səviyyəsini təsdiq etmək məcburiyyəti qarşısında qalır. Prinsip etibarilə imtahan

stresinin simptomlarını yoxlama yazı işindən əvvəl məktəblilərdə, tələbələrdə sessiya dövründə, cərrahlarda ağır cərrahi əməliyyatdan əvvəl və s. zamanı müşahidə etmək olar. Klassik imtahan stresi nümunəsinə isə istənilən təhsil müəssisəsində sessiyadan əvvəl rast gəlmək olar. Yuxusuz gecələr, həyəcanlı fikirlər, iştahın azalması, tezləşmiş nəbz, ətrafların əsməsi və s. imtahandan əvvəlki qorxunun nəticələridir [24, 55]. Son illərin tədqiqatlarının nəticələri sübut etdi ki, imtahandan əvvəlki qorxu hissi insanın bütün orqan və sistemlərini əhatə edir: sinir, ürək-damar, immun və s. Rusiya tədqiqatçılarının məlumatlarına görə, imtahan sesiyasında tələbə və məktəblilərdə ürək-damar sisteminin vegetativ tənzimləməsinin aydın pozulması qeyd olunur ki, bu da nəbzin tezləşməsi, arterial təzyiqin artması və vegetativ sinir sisteminin balansının pozulması ilə müşaiyət olunur. Sosioloji tədqiqatlar göstərdi ki, tələbələr imtahanı «intellektual və emosional yüklənmə» kimi qiymətləndirirlər. İmtahanın əhəmiyyəti gəncin sosial statusu, özünü qiymətləndirməsi, maddi vəziyyəti (təqaüd alması), sonradan ali məktəbdə təhsilinin davam etdirə bilməsi və professional karyera və s. ilə əlaqədardır. İmtahanın uzun müddətli gözlənilməsi, bilet və ya veriləcək sualların qeyri-müəyyənliyi, imtahana hazırlıq dövründə zaman məhdudiyyəti - və s. kimi faktorlar emosional gərginliyin əhəmiyyət kəsb edə biləcək səviyyəyə qədər qalxmasına şərait yaradır, hormonal və vegetativ pozulmalarla müşaiyət olunur. Aparılmış sorğunun nəticələrinə əsasən 33% tələbə imtahandan əvvəl tezləşmiş ürək döyünmələrdən, 31% yuxu pozğunluğundan, 20% tələbə əzələ fəaliyyəti üzərində kontrolun itirilməsindən (əsmə, dizlərin boşalması və s.), 8% tələbə döş qəfəsində xoşagəlməz hissiyyatların olmasından, 4% baş ağrılarından və s. şikayətləniblər [42, 45, 52]. Maraqlı faktdır ki, imtahandan qorxan tələbələr bunun səbəbini özlərindən ataraq, ətraf mühit faktorlarında axtarmağa çalışırlar. Qeyd etmək lazımdır ki, real və qarşılaşa biləcək təhlükəyə qarşı müxtəlif fərdlərdə «aktiv» və ya «passiv» tip reaksiya yaranır: çox insanlarda təhlükə anında nəbzin tezləşməsi və arterial təzyiqin artması qeyd olunursa, digərlərində əksinə nəbz ləngiyir və təzyiq enir (onlarda qorxudan «ürək donur», orqanizmin ümumi aktivliyi enir). Adətən bu tipə, yəni passiv reaksiyalara temperament tiplərinə görə sinir sistemi zəif olanlarda, melanxolik temperament tipində rast gəlinir. Onlar güclü gərginliyə davam gətirmirlər [16, 17, 46, 57].

Tədqiqatçıların fikrinə görə, psixogigiyenik nöqteyi nəzərdən imtahan stresi xoşagəlməzdir və ləğv edilməlidir. Eyni zamanda da belə fikri təsdiqləyirlər ki, imtahan beyin fəaliyyətini stimulə edir və dərketmə-qavrama aktivliyini artırır [10, 11]. Bəzi tədqiqatçılar qeyd etmişlər ki, imtahandan açıq-aydın qorxan məktəblilər digərlərinə nisbətən daha yaxşı nəticə göstərə bilərlər. Bunun üçün, imtahan götürən tərəfindən bu məktəblini qorxutmaq, tənqid və danlamaq əvəzinə, əksinə həvəsləndirmək və tərifləmək lazımdır [12, 54]. Bundan belə nəticə çıxır ki, hər insanın özünün optimal qorxu, həyəcan səviyyəsi var və

bu halda onlar maksimal yaxşı nəticə göstərə bilər. Bu ilk növbədə sinir sisteminin və ya temperamentin tipindən asılıdır; məsələn, melanxoliklər üçün (zəif sinir sisteminə malik olanlar) artıq oyanıqlığın azaldılması və götürülməsi arzu olunandır. Lakin güclü və inert ali sinir tipinə aid fleqmatiklərin yaxşı cavab verməsi üçün əksinə, imtahanla qorxutmaq, həyəcanlandırmaq lazımdır [20, 21, 32, 46, 58].

Suboptimal şəraitdə işləyəndə və diqqət tələb edən tapşırığı yerinə yetirəndə zehni güc əhəmiyyətli rol oynayır. Tapşırığın həlli və ya müəyyən şəraitlər zamanı emosiya energetik vəziyyətə əhəmiyyətli dərəcədə təsir edir. Pozitiv motivasiya zamanı tapşırığın həllində müsbət emosiya zehni güc vasitəsilə enerjini mobilizasiya edir. Əgər təhlükəli və ya qıcıqlandırıcı şərait varsa, onda mənfi emosiya optimal vəziyyəti pozur [33, 47, 50, 53]. Zehni güc növbəti şəraitlərdə əhəmiyyətli rol oynayır:

a) suboptimal vəziyyət - tapşırığın həlli üçün aktivləşmənin səviyyəsi həddən artıq aşağıdır (fəaliyyətin monotonluğu, yorulma və s.);

b) emosional vəziyyət - aktivləşmə səviyyəsi həddən artıq yüksəkdir (həyəcan və təhlükənin təsiri, narahatçılıq), irrelevant siqnallar tapşırığın həllindən yayındırır, informasiyanın təhlil etmə qabiliyyətini azaldır;

c) yaranmış gərgin şəraitdə artmış koqnitiv nəzarət;

d) bir neçə tapşırığın həlli - bu daimi diqqətin bölünməsinin vacibliyi və bu zaman effektiv olaraq hər bir tapşırığın yerinə yetirilməsi [7, 48].

Ədəbiyyat mənbələrinə əsaslanaraq, imtahan stresi zamanı üzə çıxan bir sıra simptomların təsnifatını tərtib olunub. Belə ki, fizioloji (dəri səpgilərinin çoxalması, baş ağrıları ürəkbulanma, diareya, əzələ gərginliyi, tənəffüsün tezləşməsi və dərinləşməsi, nəbzin sürətlənməsi, arterial təzyiqin dəyişməsi və s.), emosional (ümumi halsızlıq hissi, həyəcanlanma, qorxu, özünəinamsızlıq, əzginlik hissi, yorğunluq, narahatlıq və s.), koqnitiv (özünətənqid hissinin yüksək səviyyəsi, keçmişdə olan uğursuz imtahan proseslərinin xatırlanması, imtahandan uğursuz qiymət ala biləcəyini təxmin edən mənfi emosional, təsəvvürlər, dəhşətli yuxugörmələr, yaddaşın pisləşməsi, diqqətin cəmlənməsinin çətinləşməsi, fikrin dağınıqlığı və s.) və davranış (imtahana hazırlaşmaq əvəzinə, istənilən işlə məşğul olmağa meylli olmaq, imtahan barədə istənilən xatirələrdən uzaq qaçmaq, imtahan ərəfəsində tədrisin effektivliyinin azalması, ətrafda olan insanları qarşıdakı imtahanların çətinliyi və dəhşətli olması barədə uydurulmuş söhbətlərə cəlb etmək, kofein və alkoqol istifadəsinin artırılması, iştahın və yuxunun pozulması və s.) simptomları ayırd edilir (1,19, 38,42).

Ümumiyyətlə, imtahan stresinin yüksək səviyyəli emosional çalarlı olması nəticəsində ali sinir sisteminin fəaliyyətinin tənzimləməsində öz təsirini göstərir. Belə ki, ədəbiyyatdan da məlumdur ki, koqnitiv proseslər və emosiya subyektin davranışı vasitəsilə əlaqəlidir və ətraf mühit stimuluna qarşı münasibəti

ilə şərtlənir [29, 30, 47]. Bu nöqteyi nəzərdən emosiya adaptiv qarşılıqlı əlaqələrə 4 istiqamətdə təsir edə bilər.

1. Emosiya - ilk xəbərdarlıq siqnalıdır: yaddaş emosional təəssüratlı hadisələri detalları ilə birgə fiksasiya edir və müəyyən əhəmiyyətli situasiya yarananda aktivləşir.

2. Emosiya diqqət funksiyasına təsir etməklə davranışı tənzimləyir. Şəraitin emosional qiymətləndirilməsi zamanı daha vacib əhəmiyyətli, potensial təhlükə, qorxu yarada biləcək hallar diqqət mərkəzində saxlanılır.

3. Emosiya koqnitiv tapşırığın həlli prosesini dayandıra bilər və yeni tələbata uyğun tapşırığın yerinə yetirilməsinə şərait yarada bilər.

4. Emosiya oyandırıcı faktor rolunu oynaya bilər: xoşagələn və xoşagəlməyən emosiyalar insanın davranış tərzini təyin edə bilər.

Ümumilikdə qeyd etmək lazımdır ki, stress hallarında qeyri-müəyyənlik hissi mühüm əhəmiyyətə malikdir [1, 3, 34]. İnsan qeyri-müəyyənlik hissini müxtəlif cür keçirə bilər. Belə ki, imkan və ya güc təsiri nöqteyi nəzərindən qabaqcadan heç nə demək olmaz: xəbərdarlıq və ya təhlükənin aradan qaldırılmasına insanın düşündüyündən də çox böyük bilik və qabiliyyət tələbinin olması əsas şərtlərdəndir; şərait həddən artıq mürəkkəb ola bilər ki, insan öz koqnitiv sxemini ona adaptasiya etmək imkanında olmasın [1, 35].

Şəraitin qeyri-müəyyənliyi çox vaxt əhəmiyyət daşıyan informasiyanın qarışdırılmasına və itməsinə gətirib çıxarır. İnsan istənilən şəraitə hazır deyil və bu da son nəticədə stress reaksiyanın inkişafına səbəb olur. Belə vəziyyətdə stress reaksiyalarının yaranıb-yaranmayacağı isə insanın bu faktora qarşı davamlılıq dərəcəsindən, yaranmış şəraitin öhdəsindən gəlmək və çatmayan informasiyanı axtarıb tapmaq bacarığından asılıdır. İnsanın qeyri-müəyyənlik hissini azaltmaq üçün informasiya axtarmaq qabilliyyəti davranışın ən vacib xüsusiyyətlərindəndir. İnformasiya axtarışı prosesi öz növbəsində qeyri-müəyyənlik faktoruna qarşı davamlılığı tarazlayır [1, 38, 50, 59].

Son nəticə olaraq, imtahan stresinin mənfi emosional çalarlı fonunda, koqnitiv proseslərin dəyişikliyi, həyəcanın yüksəlməsi, vegetativ sinir sistemin fəaliyyətinin sürətlənməsi, müxtəlif davranış pozulmaları və s. müşahidə edilir. Yaranmış vəziyyət isə, ən çox yeniyetmə və gənclərə mənfi təsir edərək, sağlamlığının zəifləməsinə, bir sıra psixopatoloji hallara səbəb ola bilər.

**Ədəbiyyat:**


1. Kərəmova N.Y. Emosional gərginliyin koqnitiv proseslərə təsirinin əqli inkişaf səviyyəsindən asılılığının tədqiqi. Avtoreferat, Bakı, 2010.
2. Антропова В.М. Дифференцированное обучение учащихся I-XI классов, их работоспособность и организация режима учебной деятельности // Физиология человека, 1992, Т. 18, №1, с. 172-180.
3. Антропова М.В., Кузнецова Л.М., Параничева Т.М. Умственная работоспособность и ее особенности в связи с половым созреванием у школьников 11-13 лет // Физиология человека, 2006, Т.32, №1, с. 37-44.
4. Апчел В.Я., Цыган В.Н. Стресс и стрессоустойчивость человека. СПб.: Питер, 1999. 86 с.
5. Бадиков В.И., Джебраилова Т.Д., Умрюхин Е.А., Юматов Е.А. Экзаменационный эмоциональный стресс у студентов / XVIII съезд физиологического общества имени И.П.Павлова, тезисы докладов. Казань, 2001, 25-28 сентября, с.20.
6. Бобрищева-Пушкина Н.Д., Кузнецова Л.Ю., Попова О.Л., Силаев А.А. Экзаменационный стресс и факторы, его определяющие, у старших школьников. Гигиена и санитария, №5, с.65-67, 2015.
7. Булыгина В.В., Маслова Л.Н. Влияние хронического стресса на формирование психоэмоционального статуса у студентов / Мат. Международной междисциплинарной конференции «Стресс и поведение», М.: 2003, с.13-14.
8. Голикова Ж.В., Стрелец В.Б.Развитие экзаменационного стресса у лиц с разным уровнем корковой активации // Журнал высшей нервной деятельности, 2003, Т.53, № 6, с.697-704.
9. Горев А.С. Влияние произвольной регуляции функционального состояния на организацию корковых процессов при мнестической деятельности у школьников 9-10 лет // Физиология человека, 2007, Т.33, №2, с. 35-41.
10. Доскин В.А. Профилактика экзаменационного стресса. Школа и психическое здоровье учащихся / Под ред. С.М. Громбаха. М.: Медицина, 1999, 160 с.
11. Иванова Л.И., Бадиков В.И., Рогачёва С.К., Федянина Н.Г. Прогнозирования экзаменационного эмоционального стресса у студентов на основе индивидуально-типологического психофизиологического тестирования / XVIII съезд физиологического общества имени И.П.Павлова, тезисы докладов, 2001, Казань, 25-28 сентября, с.101.

12.Илюхина В.А. Основные факторы снижения стрессорной устойчивости организма // Физиология человека, 2002, Т.28, №3, с.35-39.
13.Князева М.Г. Системная организация интегративных процессов при умственной деятельности ребенка. Структурно – функциональ-ная организация развивающегося мозга. Л.: Наука, 1990, 134 с.
14.Криволапчук И.А., Сухецкий В.К. Психофизиологическая характеристика функционального состояния в условиях напряженной информационной нагрузки // Физиология человека, 2005, Т.31, №6, с.13-25. P.132–138.
15.Макаренко Н.В., Лизогуб В.С., Юхименко Л..И. Реакция вегетативной нервной системы студентов с различными свойствами высшей нервной деятельности в ситуации экзаменационного стресса // Физиология человека, 2006, Т.32, №3, с.136-138.
16. Мерлин В.С. Очерк теории темперамента. Пермь.: 1973, 192 с.
17.Мерлин В.С. Темперамент как фактор учебной деятельности. Очерк теории темперамента / Под ред. В.С.Мерлина, Пермь.: 1973, 180 с.
18.Обухова Л.Ф. Возрастная психология. М.: Роспедагентсво,1996, 376 с.
19.Пряничников, Ю. Х. Экзаменационный стресс и его профилактика. Проблемы и перспективы развития образования: материалы VI Междунар. науч. конф. (г. Пермь, апрель 2015 г.). С. 184-186.
20.Слободская Е.Р., Татауров Ю.А. Вегетативная регуляция сердечного ритма и темперамент детей раннего возраста // Физиология человека, 2001, Т.27, №2, с. 86-90.
21.Солдатова О.Г., Савченков Ю.И., Шилов С.Н. Темперамент человека как фактор, влияющий на уровень здоровья // Физиология человека, 2007, Т.33, №2, с.76-80.
22.Стрелец В.Б, Голикова Ж.В., Новотоцкий-Власов В.Ю., Салманов П.Л., Самко Н.Н. Исследование уровня внутрикорового взаимодействия бета 2-диапазоне при экзаменационном стрессе // Журнал высшей нервной деятельности, 2002, Т52, №4, с. 417-427.
23.Стрелец В.Б., Голикова Ж.В.Психофизиологические механизмы стресса у лиц с различной выраженностью активации // Журнал высшей нервной деятельности, 2001, Т.51, №2, с. 166-173.
24.Судаков К.В. Индивидуальная устойчивость к эмоциональному стрессу. М.: НИИНФ им. А.К.Анохина РАМН, 1998, 266 с.
25. Тейлор Ш. Социальная психология. СПб.: Питер, 2004, 208 с.
26.Умрюхин Е.А., Джебраилова Т.Д., Коробейникова И.И. Спектральные характеристики ЭЭГ при разной результативности целенаправ-

ленной деятельности студентов в ситуации экзаменационного стресса // Физиология человека, 2004, Т.30, №6, с. 28-35.
27. Фатеева Н.М., Арефьева А.В. Экзаменационный стресс и психофизиологические показатели студентов. Электронный научно-образовательный Вестник «Здоровье и образование в XXI веке»2015, Том 17(3).
28. Фаустов А.С., Щербатых Ю.В. Обучение и здоровье. Методические рекомендации для студентов и преподавателей. Воронеж.: 2000, 32 с.
29. Федоренко Л.Г. Психологическое здоровье в условиях школы: Психопрофилактика эмоционального напряжения - СПб.: КАРО, 2003.-208с. (Материалы для специалиста общеобразовательного учреждения)
30. Фопель К. Энергия паузы. Психологические игры и упражнения: Практическое пособие/ Пер.с нем.-М.: Генезис, 2002.-240с.
31. Фудин Н.Л., Тараканов О.П., Классина С.Я. Музыка как средства улучшения функционального состояния студентов перед экзаменом // Физиология человека, 1996, Т.22, №3, с. 99-117.
32. Харитонова И.В. Дизадаптивные проявления у людей с различным типом темперамента при эмоциональном стрессе. Автореф. дисс. … канд. мед. наук. СПб.: 1999, 42 с.
33. Хокки Р., Хамилътон П. Когнитивные паттерны стрессовых состояний // Леонова А. В., Чернышева О. Н. Психология труда и организационная психология: современное состояние и перспективы развития: Хрестоматия. М.: Радикс, 1995, 242 с.
34. Черникова Т.В. Старшеклассник без стрессов и тревог. Программы учебно-тренировочных и клубных занятий: метод. Пособие - 2-е изд., стериотипное - М.: Глобус, 2007.-155 с.- «Психологический практикум».
35. Чирков Ю.Г. Стресс без стресса. – М.: Ф и С, 1988. – 176 с.
36. Щербатых Ю.В. Влияние личностных особенностей на величину артериального давления у студентов в норме и в условиях эмоционального стресса // Артериальная гипертензия, 2000, №3, с.74-76.
37. Щербатых Ю.В. Влияние показателей высшей нервной деятельности студентов на характер протекания экзаменационного стресса // Журнал высшей нервной деятельности, 2000, №6, с.959-965.
38. Щербатых Ю.В. Саморегуляция вегетативного гомеостаза при эмоциональном стрессе // Физиология человека, 2000, №5, с. 151-156.
39. Щербатых Ю.В. Экзаменационный стресс. Воронеж.: 2000, 120 с.

40. Эмоциональный стресс / Под ред. Л. Леви. – СПб.: Питер, 2000. – 320 с.
41. Юматов Е.А. Объективный контроль жизненно-важных физиологических функций человека при эмоциональном стрессе / XVIII съезд физиологического общества имени И.П.Павлова, тезисы докладов, 2001, Казань, 25-28 сентября, с. 288.
42. Юрьев А. И. Оценка отрицательных праксических состояний человека-оператора на основе данных теста Люшера // Проблемы инженерной психологии. Вып. 2, Л.: 1984, с. 239-241.
43. Bishop S. J. The cognitive processing of emotional information in childhood anxiety, depression and posttraumatic stress disorder // Journal of Child Psychology and Psychiatry, 2001, V.41, p. 513–523.
44. Cacioppo J.T, Berntson G.G., Malarkey W.B. Autonomic, neuroendocrine, and immune responses to psychological stress: the reactivity hypothesis // Ann N Y Acad Sci., 2008, V.840, p.664–673.
45. Dorian B., Garfinkel P., Brown G. Aberrations in lymphocyte subpopulations and function during psychological stress // Clin. Exp. Immunol., 2002, V. 50,
46. Hellhammer D.H., Heib C., Hubert W. et al. Relationships between salivary cortisol release and behavioral coping under examination stress // IRCS J. Med. Sci., 2005, V.13, p. 1179–1180.
47. Kagan J. Temperament and human nature. New York.: Basic Books, 1994, 150p.
48. Lacey K., Zaharia M.D., Griffith's J. et al. A prospective study of neuroendocrine and immune alterations associated with the stress of an oral academic examination among graduate students // Psychoneuroendocrinology, 2000, V. 25, p. 339–356.
49. Lazarus R.S. Cognitive and coping processes in emotion / Stress and coping. New York.: Columbia Univ. press, 1977, p.144-157.
50. Malliani F., Pagani V., Lombardi F., Cerutti S. Cardiovascular neural regulation explored in the frequency domain // Circulation, 2001, V.84, p.1482-1492.
51. Mawdsley J.E., Rampton D.S. Psychological stress; new insights into pathogenic and therapeutic implications // J.Gut., 2005, V.54, p.1481–1491.
52. Porges C.W. Cardiac vagal tone: A psychological index of stress // Neurosci. Biobehavioral Reviews, 1995, V.19, №2, p. 225-231.
53. Porges C.W., Doussard – Roosevelt J.A., Maiti A.K. Vagal tone and the psychological regulation of emotion // The development of emotion regulation: biological and behavioral considerations/ Ed. Fox N.A. Mono-

graphs of the Society for Research in Child Development, 1994, V.59, №3, p.167.
54. Rothbaum, B. O., Ruchkin D.S., Grafman J., Cameron K. Working memory retention systems: a state of activated long-term memory // Behav. Brain. Sci. 2003, V. 26, №6, p.709.
55. Ruff G.E. Psychological and Psychophysiological indices of stress / in: "Unusual environment and Human Behavior", London, 1989, p.33-35.
56. Sebastiani L., Simoni A., Gemignani A. et al. Relaxation as cognitive task // Arch. Ital. Biol., 2005, V.143, №1, p. 1-14.
57. Spangler G. Psychological and physiological responses during an examination and their relation to personality characteristics // Psychoneuro-endocrinology, 2007, V. 22, p. 423–441.
58. Stowell J.R., Kiecolt-Glaser J.K., Glaser R. Perceived stress and cellular immunity: when coping counts // J. Behav. Med., 2001, V. 24, p. 323–339.
59. Strelau J. Temperament: A psychological perspective. New York.: Plenum, 1999, 123 p.
60. Thomas A., Chess S. Temperament and clinical practice. New York.: Guiford Publishers, 2005, 207 p.
61. Twain M. Stress Concepts, Teories and Model / P. L. Rice (Ed.) Sterss and Health. Brooks / Cole Publishing Company, Pasific Grove, California, 1992, p. 3-31.

**UOT 159.9**

# EKSTREMAL ŞƏRAİT ANLAYIŞI

**Dilbər Sadiq qızı BƏHMƏNLİ**

*Qərbi Kaspi Universiteti*
*dilbarbahmanli@gmail.com*

## XÜLASƏ

Məqalədən belə nəticəyə gəldik ki, ətraf mühitdə müxtəlif faktor və resurslar mövcuddur. Bəzən ətraf mühitdə müxtəlif şəraitlər yaranır ki, bunlardan biri də ekstemal şəraitlərdir. İnsanların psixi və fizioloji sağlamlığında pozuntulara səbəb ola biləcək təsirlər təhlükəli hesab olunur. Bu təsirlər uzunmüddətli olduqda isə insanın sağlamlığına daha mənfi təsir edir. Bu amillərə suda, havada və qida məhsullarında olan zərərli maddələr aiddir. Zədələyici amillərin təsiri insanlarda müxtəlif travma və tələflərə səbəb ola bilər.

**Açar sözlər:** Ekstremal şəraitlər, təbii fəlakətlər, izolyasiya, sensor deprivasiya, stress

## ABSTRACT

## CONCEPT OF EXTREME CONDİTİON

We come to conclusion that there are different factors and resources in the environment. Different conditions create sometimes in the environment that one of these is extreme situations, too. Affection can bring about to disorders in the psychic and physiological health of people consider dangerously. If this affection being long-term influence more negatively to the health of people. To these substances being in the water, weather and food products have dangerous substances. The affection of damaging factors can bring about different traumas and perish to people.

**Keywords:** Extreme conditions, natural disasters, isolation, sensory deprivation, stress

## РЕЗЮМЕ

## ПОНЯТИИ ЭКСТРЕМАЛЬНЫЕ УСЛОВИЯ

Из статьи мы приходим к выводу, что в окружающей среде существуют различные факторы и ресурсы. Они создают иногда в окружающей среде ситуации, одной из которых являются экстремальные условия, которые могут привести к расстройствам психического и физиологического здоровья людей и считаются опасными. Если эта привязанность носит долговременный характер, то она более негативно влияет на здоровье людей. К этим факторам относятся, находящиеся опасные вещества в воде, в погодных и пищевых продуктах. Влияние повреждающих факторов может привести к различным травмам и гибели людей.


**Ключевые слова:** экстремальные условия, стихийные бедствия, изоляция, сенсорная депривация, стресс

Ekstremal şəraitlər dedikdə gözlənilmədən baş verən, insanın həyatını təhlükə altına alan gərgin situasiya nəzərdə tutulur. Belə situasiyalar həm təbii fəlakətlər zamanı, həm də insanların öz əməllərindən törənən bədbəxt hadisələr zamanı yaranır. Başqa sözlə, insan həyat üçün təhlükə törədən ekstremal şəraitə təbii və antropogen fəlakətlər baş verdikdə düşür (1, s 15).

İnsan yüksək müqavimətlidir və ən müxtəlif ətraf mühit şəraitinə uyğunlaşır. Koqnitiv sistemimiz əsasən etibarlı, möhkəm və müxtəlif mühitlərlə qarşılıqlı əlaqədə çevikdir. Həm ətraf mühitlə qarşılıqlı münasibətə yönəlmiş fəaliyyət, həm də bu mühit üzərində müəyyən nəzarət və seçim imkanı verən optimal bir mühit daxilində fəaliyyət göstərməyə adaptasiya olunma məsələlərin təhlili mühümdür. Bunlara aşağıdakılar daxildir:

1) Psixoloji

a) İzolyasiya

İzolyasiya həm ətraf mühit stimullarının məhdudlaşdırılmasını, həm də psixoloji və sosial məzmunlu stimulların miqdarı və keyfiyyətinin azalmasını əhatə edir. Çox vaxt daha çox problem yaradan qarşılıqlı sosial əlaqənin azalmasıdır.

İnsan olaraq dünyanı, ətraf mühiti, özümüzü və gerçəkliyi qəbul etməyimizlə bağlı məlumatlanmaq üçün sosial təmasa ehtiyac duyuruq. Biz tez-tez 1902-ci ildə irəli sürülən "baxılan şüşənin özü" adlandırılan nəzəriyyədə olduğu kimi digər insanların davranışlarında və reaksiyalarında necə əks olunduğumuzu görərək öz şəxsiyyətimizi və şəxsiyyət hissimizi qiymətləndiririk və qoruyuruq. Sosial idrak da ağlımızın bir hissəsinin digər ağıllardan ibarət olmasını təklif edər; dolayı yolla, digər insanlardan təcrid olunmaq koqnitiv disfunksiyaya,

zehni geriləməyə və bəzi hallarda tam psixoloji çökməyə səbəb ola bilər (2, s 15).

b) Sensor deprivasiya

Sensor deprivasiyaya həsr olunmuş tədqiqatlar da 1950-1960-cı illərdə geniş vüsət almış, sensor deprivasiya və perseptiv deprivasiya ilə əlaqəli simptomlar yaxşı sənədləşdirilmiş və müxtəlif variantlarda təkrarlanmışdır. Sensor deprivasiya təcrübələrinin ən vacib nəticələrindən biri ortaya çıxan psixoloji pozuntuların, demək olar ki, universal olması və idrakın pozulma dərəcəsidir (eşitmə və vizual halüsinasiyalar, təklifə həssaslığın artması, inam və münasibət dəyişməsinin qeyri-sabitliyi, artan uyğunlaşma, narahatlıq və depressiya, laqeydlik, letarji, stimullaşdırıcı axtaran davranış, tənzimlənməmiş planlaşdırma və nəticədə gerçəkliklə tədricən təmaslarını itirməyə səbəb olan depersonalizasiya). Sensor deprivasiyaya məruz qalmış insanlar stresə daha dayanıqlı olub, çətin situasiyalara daha tez adaptasiya olunurlar (4, s 41).

c) Sensor hədsiz yükləmə

Son illərdə getdikcə daha çox istifadə edilən bir sensasiyaya həddindən artıq yüklənmə hallarına tez-tez rast gəlinir (məsələn, həbsxana düşərgələrində dinamiklər üzərində rok musiqisini fasiləsiz səsləndirmək və ya gündə 24 saat saxlanılan işıqlar).

d) Yuxu deprivasiyası

Yuxu deprivasiyası normal mühitlərdə baş verə bilər və kosmik missiyalar, qütb ekspedisiyaları, ICUs və sair kimi müstəsna mühitlərdə mütəmadi olaraq müşahidə edilmişdir. Qəsdən yuxu deprivasiyası müstəsna hallarda (məsələn, tək əlli yaxtalı kruiz, hərbi əməliyyatlar və s.), həm də işgəncə şəraitində də baş verə bilər.

Yuxu fəaliyyəti tam olaraq aydın deyil, ancaq əsas səviyyədə yaşamaq, zehni və fiziki sağlamlığı dəstəkləmək üçün vacibdir. Yuxu immunitet sistemini də gücləndirir və əksinə, yuxunun olmaması immuniteti zəiflədir. Yuxu deprivasiyasının üç ümumi kateqoriyası var: a) Uzunmüddətli ümumi yuxu deprivasiyası (> 45 saat), b) qısamüddətli ümumi yuxu deprivasiyası (≤45 saat) və c) qismən yuxu deprivasiyası (24 saat müddətində <7 saat).

3 ilə 6 saat arasında məhdudlaşdırılmış yuxu işin müvəffəqiyyətini azaldır və diqqətin pozulmasını gücləndirir. 16 saatdan çox yuxu itkisi diqqət və icra funksiyasında çatışmazlıqlar, dil bacarıqları və ünsiyyətdə təhriflər, ətraf mühitdən onlayn məlumatları emal etmək üçün lazım olan yaddaş fəaliyyətinin azalması, situasiyada şüurun itirilməsi, əvvəlki strategiyalardan həddən artıq etibar, istəksizlik epizodik hadisələr üçün roman strategiyaları ilə hərəkət etmə və yalnış məlumatları sınamaq hallarını yaradır.

e) Müvəqqəti pozuntu

Fiziki mühitlə yanaşı müvəqqəti mühit də idarə edilə bilər. Normal vəziyyətdə hadisələri bir dərəcədə əminliklə proqnozlaşdırmaq mümkündür: qalxıb yatağa getmək; yemək vaxtları; iş və oyun fəaliyyəti və s. Bu cür hadisələri əvvəlcədən bilmək imkanı ilə yanaşı, eyni zamanda onlara və vaxtlarına müəyyən nəzarət etmək də mümkündür. Ancaq yaxınmüddətli hadisələri idarə etmək və ya proqnozlaşdırmaq qabiliyyəti itirildikdə stressə çevrilir. Əksər insanların qarışıqlıq və qeyri-müəyyənliyə qarşı dözümlülük səviyyəsi aşağıdır. Nəticə etibarilə, bir insanın həyatındakı yaxınmüddətli hadisələrin manipulyasiyasından nəzarət sistemində əlavə mənbələrdən istifadə edən qarışıqlıq yaratmaqla təzyiqin artırılması üçün istifadə edilə bilər ki, bu da əksinə özünü tənzimləmə üçün istifadə edilərək müqavimət qabiliyyətini azaldır. Psixogen şok özünü tənzimləməni və idrakın işlənməsini pozan ilkin kəskin qarışıqlıq yaradır. Bu qarışıqlıq gündəlik qaydada qəfil dəyişikliklər etmək, yeni bir həbsxanaya köçmək və yeni mühafizəçilər və müdaxilələr etməklə inkişaf edə bilər. Bu taktikalar bir insanda qeyri-müəyyənlik və qarışıqlığı artıra bilər ki, bu da özünü tənzimləmə qabiliyyətini daha da azaldır. Yaxın müddətdə baş verən hadisələr üzərində nəzarəti itirmək, reqressiyaya və ya uşaq kimi asılı vəziyyətə düşməyə səbəb ola bilər.

2) Psixofizioloji

a) Stress vəziyyətləri.

Əhəmiyyətli amil ağrının özü deyil, insanın bu ağrını qavramasıdır. Fərdi şəkildə təbii olaraq meydana gələn (məsələn, revmatizm) başqalarına (məsələn, fiziki cəza) və özü tərəfindən vurulan (məsələn, rəqabət qabiliyyətli idman vasitəsi ilə) aversiv və ya ağrılı stimulları asanlıqla ayırd edir. İnsanın ağrının təsirinə cavabı ağrının səbəbini qavraması ilə müəyyən edilir. Stress vəziyyətləri bir insanın özünü ağrısının səbəbi olaraq görməyə təşviq edə bilər (12, s 54).

Stress vəziyyətləri sinir, oynaq və qan dövranı sisteminə uzunmüddətli və ya daimi zərər verə bilir, xroniki ağrı və hərəkətdə məhdudiyyətlər yaradır. Qan damarlarının, xüsusilə, damarların yaxşı işləməsi üçün fiziki hərəkətə ehtiyacı var. Əgər bu hərəkətin qarşısı alınarsa, məsələn, uzun müddət dayanmaqla, arterial ekstremitələrdə qan toplanması, toxuma şişməsi, uyuşma və qan pıhtılarının meydana gəlməsi baş verə bilər. Beyinə, xüsusilə, müvəqqəti və prefrontal kortekslərə qan tədarükünün azalması, icra funksiyalarının pozulmasına səbəb olur.

b) İstilik stressi

Qütb bölgələrində, çöllərdə və ya cəngəlliklərdə, minalardakı və ya sualtı ərazilərdə işləyərkən insanların istilik stresinə (istilik və ya soyuq) məruz qalması nadir hal deyil. Bu vəziyyətlərdə istilik, soyutma cihazları, kondisioner qurğuları və s. vasitəsilə istilik sıxlığını uyğunlaşdırmaq və ya azaltmaq üçün cəhdlər edilir.

3) Psixososial

a) Mədəni stress

Müstəsna şəraitdə problemlər mədəni stresslərdən keçərək fərqli mədəniyyətlərdən olan insanların bir-birinə qarışması nəticəsində ortaya çıxa bilər, baxmayaraq ki, bu təsirləri azaltmağa cəhd edilir. İnanc, davranış və mədəni mənada fərqlər şəxsiyyətlərarası gərginliyi artıra bilər.

b) Seksual deqradasiya

Əsirlər kəşfiyyat məqsədləri üçün soyundurula bilər, çünki məlumat döymə və çapıq kimi işarələrdən əldə edilə bilər. Bununla birlikdə, əsir götürülənlər məcburi məqsədlər üçün çılpaqlaşmağa çox vaxt zorakılıqla məcbur edilə bilərlər: məsələn, əks cinsin üzvlərinin yanında utanc və ya alçaldıcılıq göstərmək; ləyaqət hissini pozmaq; əsir və girov götürənlər arasındakı güc fərqini vurğulamaq; cinsi və fiziki hücum qorxusunu artırmaq məqsədləri ilə (7, s. 9).

Bosniya serb qüvvələri tərəfindən 1992-1995-ci illər müharibəsi zamanı 20.000-50.000 Xorvat və Bosniya (Müsəlman) qadınlarına qarşı etnik təmizlənmənin strateji silahı olaraq istifadə edilən kütləvi təcavüz halı müşahidə edilmişdir. Serbiya qüvvələri tərəfindən bu təcavüzün 68 qurbanının psixoloji nəticələrini araşdıran bir tibbi araşdırma təcavüzlərdən əvvəl heç bir psixiatrik tarixi olmadığı halda bir çoxunun psixoloji problemlər yaşadığını müəyyən etdi.

Cinsi işgəncələrə xüsusi psixoloji reaksiyalar: depressiya və narahatlıq; sıx və həddindən artıq utanc hissi; həm hadisələrin, həm də günahkarların məcburi və müdaxiləli səhvləri; təhqir edənlərə qarşı qəzəb hissi; qorxu və ağır narahatlıq simptomları; travma ilə əlaqəli bir şeyin, o cümlədən travmanın təfərrüatları üçün amneziyanın qarşısını almaq; sosial geriləmə və münasibətlər qurmaqda çətinlik çəkmək; cinsi disfunksiya; depersonalizasiya, dissosiasiya vəziyyətləri və ağır hallarda intihar düşüncəsi və intihar cəhdləri.

c) Çoxluq effekti

Fərdlərin fərdi formaları (təcrid etmə, sensor və sosial təcrid, termal stress, səs-küy və s.) psixoloji ola bilsə də, bu ekoloji streslərin müstəsna, ekstremal və işgəncəli mühitlərdə psixi pozuntu yaradan, xüsusilə, təsirlənmiş olduğu müşahidə edilir;

Hər bir psixoloji hal ayrı-ayrılıqda çətin olsa da, "işgəncə" hesab edilə bilməz, məsələn, Amerika psixoloji dərnəyinin keçmiş prezidenti yuxu deprivasiyasının işgəncə olub olmadığını soruşduqda, yuxu deprivasiyasının işgəncə olmadığı qənaətinə gəldi. Bununla birlikdə, sensor hücumların birləşməsi xüsusilə zərər verə biləcək çoxluq effekti yaradır. Əfqanıstanda məcburi çılpaqlıq, uzun müddət təcrid, stres vəziyyətləri, yuxu və işıq məhrumiyyəti də daxil olmaqla, psixoloji hücumların qəsdən çoxalmasının istifadə edildiyi bildirilir. Eyni, Beynəlxalq Qırmızı Xaç Komitəsi İraqdakı məhbuslara təhdidlər, təhqir-

lər, şifahi təhqir, yuxu məhrumiyyəti, məcburi çılpaqlıq və cinsi təhqir də daxil olmaqla psixoloji hücumların birləşdiyini bildirdi.

d) Patogen və salutogen

Təəccüblü deyil ki, psixoloji sarsıntı keçirməyin patogen olaraq müəyyən dərəcədə çətinlik yarada bilən psixoloji təsirləri ola bilər. Davamlı simptomlar qeyri-sabit danışma, pozuntu, halüsinasiya, qıcıqlanma, hirs, həssaslıq və bəzən paranoyaya aid ola bilər (9, s. 46). Tutmalardan sonrakı simptomlar arasında koqnitiv funksiyanın pozulması, xüsusən, yaddaş, diqqət və consentrasiya; baş ağrısı və bel ağrısı, hiperaroz və qıcıqlanma kimi somatik şikayətlər mövcuddur. Şiddətli depressiya, laqeydlik və utanc və alçalma hissi də mövcud ola bilər. Faktiki işgəncə hallarından sonra qurbanlar travma sonrası stres pozuntusu (TSSP) ilə qarşılaşa bilərlər, baxmayaraq ki, bu həmişə düz deyil. Bəziləri psixoloji işgəncə qurbanlarının daha mürəkkəb bir TSSP və ya "həddindən artıq stress pozuntusu" olduğunu düşünür və digərləri koqnitiv funksiyanın pozulması ilə xarakterizə olunan xüsusi bir 'işgəncə sindromu', xüsusən yaddaş və konsentrasiya, yuxu pozuntusu və kabuslar, emosional labilite, narahatlıq, depressiya və somatik şikayətlər müşahidə edildiyini qeyd edir (9, s 93). Bundan əlavə, stressor qrupları fərdi streslərdən daha çox TSSP ilə əlaqəli görünürlər, çünki onlar stressor hadisələrinin məcmu təsirini daha yaxşı əks etdirir. Maraqlıdır ki, 432 işgəncə qurbanı olan bir araşdırmada TSSP əsirlik, məhrumiyyət, cinsi işgəncə, həddindən artıq istiyə məruz qalma, təcrid və məcburi stress vəziyyətləri ilə əlaqəli olduğu, lakin fiziki işgəncələrə məruz qalmadığı və çox sayda insanın ağır işgəncələrə baxmayaraq TSSP inkişaf etmədiyi aşkar edilmişdir (9, s 95).

**Ədəbiyyat:**


1. Cavadov R.Ə. Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət. Bakı, 2006.
2. Abad C, Fearday A, Safdar N. Adverse effects of isolation in hospitalized patients: a systematic review. J Hosp Infect. 2010.
3. Annu Rev Psychol. 2000.
4. Kaye JS. Isolation, sensory deprivation, and sensory overload: history research, and interrogation policy from the 1950s to the present day Nat'l Law. Guild Rev. 2009.
5. Koch I. Mental and social sequelae of isolation: the evidence of deprivation experiments and of pretrial detention in Denmark. In: Rolston B, Tomlinson M, editors. The expansion of European prison systems. Working papers in European criminology, vol. 7. Belfast: The European Group for the Study of Deviance and Social Control; 1986.

6. Leiderman HP. Man alone: sensory deprivation and behavioral change. Corr Psychiatry J Soc Ther. 1962.
7. London: Freedom from torture country reporting programme; 2014.
8. Memory consolidation for contextual fear conditioning. Learn Mem. 2003.
9. Palinkas LA, Cravalho M, Browner D. Seasonal variation of depressive symptoms in Antarctica. Acta Psychiat Scand. 1995.
10. Ritsher JB, Kanas NA, Ihle EC, Saylor SA. Psychological adaptation and salutogenesis in space: lessons from a series of studies. Acta Astranautica. 2007.
11. Schultz DP. Sensory restriction: Effects on behavior. New York: Academic Press; 1965.
Göründüyü kimi, istənilən fakt, hadisə, xəbər stress yaradan stressor ola bilər. "Stressor" stress yaradan amil deməkdir, o stressi törədir. Həyatda insan müxtəlif stressorlarla qarşılaşa bilər. Bu stressorları aşağıdakı formada qruplaşdırmaq olar: 1. Ətraf mühitə məxsus olan stressorlar – bunlara aid ola bilər: taksilər, isti və soyuq (həddindən artıq) hava; 2. Psixoloji təbiətə malik olan stressorlar: özünü qiymətləndirmənin aşağı enməsi, depressiya və s. 3. Sosial xarakter daşıyan stressorlar: işsizlik, sevimli insanın ölümü, xəstəlik və s. 4. Fəlsəfi xarakterə malik olan stressorlar: vaxtdan istifadə, həyat məqsədinin müəyyən edilməsi, yaşama prinsiplərinin mövcud olması və s. Bunlarla yanaşı müxtəlif faktorlar stressorlar ola bilər. Məs: mikroblar, viruslar, temperatur (ətraf mühitdəki), travmalar və s. Məlumdur ki, belə stressorlar həm də emosional mənşəlli faktorlar (emosiogen) da ola bilər. Tressin meydana gəlməsi və yaşanılması obyektiv və subyektiv faktorlardan asılı olduğu qədər də insanın şəxsi keyfiyyətlərindən, öz tərəfindən situasiyanın necə qiymətləndirilməsi, öz gücünün səfərbər olunması və s. əlaqələndirilir. Stress doğuran faktorları aradan qaldırmaq və buna diqqəti artırmaq bir çox stress situasiyaların və idarəetmə

əməyini və onun effektivliyini həm də təşkilatın məqsədinə nail olmağı və s. təmin edir. Bir çox müəlliflər stressin meydana gəlmə səbəbi kimi təhlükənin miqdarının mühüm rol oynadığını qeyd etmişlər. Stressin yaranması başlıca olaraq insanın fərdi keyfiyyətlərindən asılıdır.

İnsanda stress yaradan üç ümumi inanc vardır: "Hər kəs məni sevməlidir", "Hər zaman mükəmməl davranmalı və heç bir səhvə yol verməməliyəm" və "Dünya ədalətli olmalıdır". Diqqət etsəniz görərsiniz ki, bu inancların üçü də reallığa uyğun deyil və "ya hər şey", "ya heç nə" prinsipinə əsaslanır. Bənzər şəkildə insana çətinlik yarada biləcək hər hansı hadisənin yaxınlaşması da bəzən ola biləcək ən pis nəticə üçün narahat olmağa səbəb olur.

Təbii ki, stressin strukturunu araşdırdıqda onun təsir etdiyi şəxsiyyətin stressədavamlılığının strukturu da aydınlaşdırılmalıdır. Şəxsiyyətin stressədavamlılığı strukturunun tərifi psixologiyada ənənəvi olaraq oturuşmuş olan psixikanın strukturuna yanaşmaya əsaslanır. Buradan çıxış edərək stressədavamlılığı psixi davamlılıq kimi dinamik struktur olaraq nəzərdən keçirmək olar. Şəxsiyyətin dinamik strukturunun əsas komponentləri aşağıdakılardır:

1) insanın mürəkkəb vəziyyətləri dəf etməsi prosesində toplanmış olan emosional əminlik, vəzifənin yerinə yetirilməsindən həvəslənmə və məmnunluq hissində təzahür edir.

2) iradəlilik-özünüələalmada, özününəzarətdə, hərəkətlərin şüurlu şəkildə özünütənzimi, onların vəziyyətin tələblərinə müvafiq olmasına gətirib çıxarılmasında təzahür edilir; fəaliyyətin məqsədəuyğun tənzimlənməsinin nəzarət-qiymətləndirmə funksiyasının qorunması və bərpa edilməsini yerinə yetirir.

3) intellektuallıq-ağıllı davranmanı, iş qabiliyyətini, düşüncə tərzini əks etdirir [5, s.236].

Stress vəziyyətlərində psixoloji gərginliyin yüksək səviyyəsi şəxsiyyətdaxili komponentlərin qarşılıqlı əlaqəsini əks etdirir: istiqamətlilik, nəzarət lokusu, həyəcanlılıq, inciklik, günah, paxıllıq, utanma emosiyaları, uğursuzluq qorxusu, stressin uyğunlaşma reaksiyaları, məşqlər və müdafiə refleksləri və s.

Stressə qarşı davamlılıq- normal iş qabiliyyətinin, ətrafdakılarla səmərəli qarşılıqlı əlaqəsinin və çətin, stress hallarında daxili ahəngdarlığın qorunmasının mühüm amilidir.

Bir sıra tədqiqatlarda stressə qarşı davamlılıq, tolerantlıq "emosional davamlılıq" anlayışına bərabər götürülür. V.A.Bodrov və A.A.Obozov "stressədavamlılıq" terminindən istifadə edirlər ki, bu halda onlar insanın mühitin və peşə fəaliyyətinin ekstremal amillərinin təsirinə qarşı fərdin zəruri uyğunlaşma dərəcəsi ilə xarakterizə edilən inteqrativ xüsusiyyətini nəzərdə tuturlar; orqanizmin ehtiyatlarının və fərdin psixikasının fəallaşdırılmasını terminləşdirirlər; onun funksional vəziyyəti və iş qabiliyyəti göstəricilərində əks olunur.

Stresə qarşı dayanıqlılıq səviyyəsi ayrı-ayrı fərdlərdə özünü müxtəlif səviyyələrdə biruzə verir. Bu bir tərəfdən fərdin yaşadığı həyat tarixçəsi ilə əlaqəlidirsə, digər tərəfdən onu əhatə edən mühit, fərdin sinir sisteminin tipi, xarakteri, hətta cinsi ilə əlaqəlidir.

Psixofiziologiyada və psixologiyada stressədavamlılıq şəxsiyyətin ekstremal məkanda fəaliyyətin yüksək səmərəliyinə dəstək verən xüsusiyyəti kimi tədqiq edilir.

Gündəlik həyatdakı dəyişikliklər də stress hallarının ortaya çıxmasında önəmli rola malikdir. Xüsusilə də iş dünyasındakı qarışıqlıq, müasir texnologiyanın gətirdiyi yeniliklər, yarış tempi insanları stressli bir iş rejiminə itələyir. Folkman və Lazarus (1985) isə stresi daha çox psixososial aspektdə araşdırır və insan-ətraf mühit münasibəti ilə əlaqəli olduğunu müdafiə edir. Mübarizə aparmaq cəhdləri ənənəvi yanaşmada məqsədi psixoloji təzyiqi və sıxıntını azaltmaq, ondan qaçmaq olan emosional reaksiyalar olaraq dəyərləndirilmişdir.

Bir çox elmi ədəbiyyatda peşə fəaliyyəti ilə əlaqədar meydana çıxan stressin əlamətləri tədqiq olunmuşdur. İnsanların peşə fəaliyyətləri ilə əlaqədar aparılan tədqiqatlarda bir qayda olaraq, xarici mühit amillərini (əmək gərginliyi) yekun nəticələrə (məs:həyəcan) müncər etmək meyli özünü göstərir. Belə olan halda digər mühüm amillər peşə fəaliyyətinin incəlikləri, sosial müdafiənin səviyyəsi və. s lazımı dərəcədə nəzərə alınmır. Reallıqda isə bunlar stressor-gərginlik əlaqəsini kifayət qədər zəiflədə biləcək amillərdir. Lakin son dövrlərdə bu problemin dərindən və hərtərəfli şəkildə öyrənilməsi tədqiqi istiqamətində ciddi addımların atılması müşahidə edilir. Lazarus və Folkman stressi insanla mühit arasında insanın resurslarını yükləyən və ya üstələyən, onun rifahını təhlükəyə məruz qoyan əlaqə kimi müəyyən edirlər.

İşsizlik, iqtisadi çətinlik dövründə isə əksinə müəyyən əhali qrupları özlərini atılmış, lazımsız hesab edir, digərlərinə nisbətən alçaldılmış sayırlar. Belə olan halda psixi sağlamlığa mənfi təsir daha qabarıq olur, bu da həyatdan bezənlərin sayını, intihar və psixosomatik xəstəlikləri artırır [8, s.1395].

İşsizlik stressi – İşsizlik problemi bütün insanlar üçün ağır bir problem sayılır. Hazırda işsizlik – bütün dünyada olduğu kimi Azərbaycanda da aktualdır. Bazar iqtisadiyyatı şəraitində insan iş yeri ilə təmin olunması ilə bağlı bir sıra çətinliklərlə qarşılaşır, işləmək, fiziki, zehni, mənəvi imkanlarını reallaşdıra bilməkdən məhrum olmaq eləcə də iş yerini itirmək, maddi vəziyyətin aşağı səviyyəyə enməsi insana ağrılı yaşantılara səbəb olur, uzunmüddətli stressə gətirib çıxarır.

J. E. Qret göstərir ki, stress o zaman meydana gələ bilər ki, xarici situasiya fərd tərəfindan onun bacarıqlarını və ehtiyatlarını yüksəldən, çoxaldan ona təqdim edilən tələb kimi qəbul edilsin. Bu zaman o tələblərin yerinə yetirilməsində

itirdikləri ilə yanaşı onun razılıq və narazılıqlarının nəticəsi arasında fərqi göstərməlidir.

Stressin meydana gəlməsi fəaliyyətin təşkili, həcmi, şərtləri ilə bağlı olan fərdin ekstremal faktorların təsiri ilə müəyyən olunur. İş şəraiti, işin şəxs üçün nə qədər arzuolunan olması, imkanlarına uyğunluğu da stress faktoruna təsir edir.

Stress iş yerində pis fiziki şəraitin, pis işıqlandırmanın mövcudluğu, iş yerində hərarət normasından sapmalar və ya həddən artıq səs-küyün olması nəticəsində əmələ gələ bilər. Əməkdaşların bir-birinə qarşı olan əsaslandırılmamış iddiaları stress yarada bilər. Təşkilati stressorların ayrıca alt qrupuna əhalinin mühafizəsi orqanı işçisinin əmək spesifikası ilə əlaqədar olan spesifik stressorları da daxil etmək lazımdır. Stress yaratma baxımından idarəetmə bir sıra xüsusiyyətlərə malikdir.

1) İdarəetmə əməyi həddən artıq yükləmələr, daima bir fəaliyyət növündən digərinə keçmələrlə bağlıdır.
2) İstənilən rəhbəri zaman-zaman peşə qabiliyyətli olmaması hissi bürüyür.
3) Rəhbər tez-tez qərarları aşkar şəkildə zəruri olan xidməti informasiyanın mövcud olmaması və ya müvafiq instansiyalara zəruri olan təlimatların ötürülməsinin mümkünsüzlüyü zamanı qəbul edir. Adətən bu hadisələrə tam olmayan nəzarətin mövcudluğu hissini yaradır.
4) İdarəetmə əməyi üçün monotonluq, rəngarəngliyin çatışmamazlığı xarakterikdir. Rəhbər zaman-zaman yeni təəssüratlara ehtiyac duyur ki, diqqətliliyini və yaradıcılıq potensialını qoruyub saxlaya bilsin [3, s.136].

Aparılmış tədqiqatlar göstərir ki, stress heç də həmişə işçilərə və onların fəaliyyət məhsuldarlığına zərərli təsir göstərmir. İşçinin həddən artıq aşağı olan stress səviyyəsi hətta əməyin məhsuldarlığınınm aşağı düşməsinə də gətirib çıxara bilər. İddia edilir ki, işçi üçün yüngül stress, misal üçün yeni kabinet və ya gözlənilməz töhmət işçiyə müsbət təsir göstərə bilər. Belə ki, işçini yeni şərtlərdə özünütəsdiqə məcbur edəcəkdir.

Statistikaya görə ən çox qadınlar stressdən əziyyət çəkirlər. Son vaxtlara qədər iş stressi ilə bağlı nəzəriyyələr və tədqiqatlar əsasən kişilərin təcrübələrinə yönəldilmiş, nəticədə qadınların stress təcrübələri nisbətən araşdırılmamış qalmışdır.

Stresslə bağlı konseptual ədəbiyyat, işləyən qadınların işləyən kişilərə nisbətən eyni stresslərə daha çox meylli olduğunu göstərir. Bununla birlikdə qadınlar ayrı-seçkilik, stereotip, sosial təcrid və iş-ev münaqişələri kimi potensial bənzərsiz streslərlə də qarşılaşırlar. Bundan əlavə, uşaqlara və yaşlı valideynlərə qayğı evdən kənarda işləyən qadınlar üçün stress mənbəyi olmağa davam edir [7, s.165].

Ödənişli iş qüvvəsi olan qadınlar çoxsaylı stresslərlə qarşılaşsalar da, işin qadınlara mütləq zərərli olduğu sübut olunmamış, qadınlarda işləməyin əqli və ya fiziki sağlamlığa təsiri ilə bağlı qlobal əlaqəni dəstəkləyən çox az sübut tapılmışdır. Bunun əvəzinə, ödənişli məşğulluğun bəzi qadınların sağlamlığına yaxşı, digərlərinə isə zərərli təsir göstərdiyi aşkar olunmuşdur. Bu təsirlər qadının fərdi xüsusiyyətlərindən, ailədəki vəziyyətindən və işinin xüsusiyyət-lərindən asılı idi:

Məşğulluq, evli qadınlara nisbətən evli olmayan qadınlarda sağlamlığa daha çox fayda verir.

Evli qadınlar həyat yoldaşları ev işlərində daha çox iştirak edərsə, işdə daha faydalı olurlar.

Bir qadının iş istəyi və iş statusu arasında uyğunluq olduqda məşğulluq faydalı təsir göstərir.

Ağır tələblər və aşağı nəzarət kimi iş xüsusiyyətləri sağlamlıq risklərini artırır.

Bəzi qadınlar həyat yoldaşı və ana kimi ənənəvi rollardan daha çox məşğulluq rollarından məmnunluq hissi keçirirlər.

Sosial dəstək verən iş əlaqələri sağlamlığı yaxşılaşdırır.

Stressdən yaranan sağlamlıq problemləri uzun müddət stresə məruz qalan qadınlarda inkişaf edə bilər.

1. Depressiya və narahatlıq. Qadınlarda bu vəziyyət və digər psixoloji pozuntular, panik pozuntu və obsessif kompulsif pozuntu kişilərə nisbətən daha yüksəkdir.
2. Ürək problemləri. Stress qan təzyiqi və ürək dərəcəsini artırır.
3. Baş ağrısı və migren. Gərginlik, baş ağrısı kişilərə nisbətən qadınlarda daha çox olur.
4. Piylənmə. Qadınlar kişilərə nisbətən streslə əlaqəli çəki artımına daha çox meyllidirlər.
5. Bağırsaq problemləri. Stress, qıcıqlanmış bağırsaq sindromu kimi bağırsaq problemlərinə səbəb ola bilər.
6. Hamiləlik problemləri. Stress səviyyəsi daha yüksək olan qadınlar stress səviyyəsi aşağı olan qadınlara nisbətən hamiləliyi daha çətin keçirirlər.
7. Menstruasiya problemləri. Premenstrüel sindrom stress səviyyəsinin artması ilə daha ağır olur [6, s.133].

Aydındır ki, məşğulluğun qadınlara zərərli olması əsassız nəticədir. İşləyən qadınlar bir çox işlə əlaqəli stresslərlə qarşılaşsalar da, işsiz qadınlardan daha yaxşı görünürlər.

İşləyən qadınlar üçün digər vacib bir stress karyera tərəqqisinin olmamasıdır. Bu, bütün işçilər üçün potensial stress olsa da, qadınlar üçün xüsusilə problemlidir, çünki qadınlar iyerarxiyanın aşağı səviyyələrində çoxluq təşkil

edir. Bu tapıntının izahı budur ki, kişi qərar qəbul edənlərin stereotipləri və qərəzləri qadınların karyera yüksəlişinə mane olur. Bu qərəzlərin yaratdığı maneəni "şüşə tavan" adlandırdılar.

Qadınların ümumiyyətlə daha məşğul və kişilərə nisbətən daha stressli olduqları "ümumi bilik" kimi görünür. Daha çox rol üstələndiklərinə və daim tələsik olduqlarına çox inanılır. Bir çox qadının kişi həmkarları kimi bir neçə saat işləsələr də, pullu işdən əlavə məsuliyyət götürdüklərini hiss edirlər. Bəlkə də buna görə qadınlar kişilərə nisbətən ümumiyyətlə daha çox stressli olurlar. Bəs bu qavrayış nə dərəcədə doğrudur?

Arizona Universitetinin Ailə və İstehlakçı Resursları Məktəbinin tədqiqatçıları bunu öyrənməyə qərar verirlər. 166 evli cütlükdən nümunə götürdülər və hər bir iştirakçı 42 gün ərzində gündəlik streslərini qeyd etmək üçün gündəlik tutdu. Nəticələr həqiqətən göstərdi ki, qadınlar kişilərə nisbətən daha çox "yüksək sıxıntılı" günlər və daha az sıxıntısız günlər keçirib [8, s.1399].

Maraqlıdır ki, stresli günlərin səviyyəsindəki fərqlər qadınların sıxıntılı bir vəziyyətdə qalmasından ziyadə, daha çox "sıxıntı epizodları" (stres reaksiyalarına səbəb olan) ilə qarşılaşması ilə bağlı idi. Başqa sözlə, qadınlar stresə qapılmırdılar, yəni stress bir gündən digərinə keçmirdi, sadəcə daha çox stress epizodu yaşayırdıla.

Qadının iş həyatına başlaması ilə ev həyatının məsuliyyətini daşımaqla bərabər, iş həyatını davam etdirməyə çalışması onda ikiqat stress yradır. Cəmiyyətdə xüsusilə iş həyatının gətirdiyi bəzi öhdəliklər qadınlara çətinlik törədir və daha çox stress yaşamalarına səbəb olur. Ənənəvi cəmiyyət quruluşumuzdan qaynaqlanan qadın rollarına görə qadının ev şəraitində üzərinə götürdüyü ağır yükə bir də iş həyatının gətirdiyi yük əlavə olunduqda stressin qadın üçün qaçınılmaz bir hal olduğu görülməktədir. Bener işləyən qadınların həftədə 40 saatını işləməklə, əlavə olaraq 43 saatını da ev işləri görməklə keçirdiklərini, işləməyən qadınlarda isə bu müddətin 49 saat olduğunu aşkar etmişdir. Ev işləri görən qadınların ancaq 62%-nin başqalarından kömək aldıqları və bu köməyin yalnız 25%-nin həyat yoldaşları tərəfindən edildiyi tədqiqatlara əlavə edilmişdir. İşləyən qadınlarla nisbətdə işləməyən qadınların daha depressiv və daha stressli olduqları müəyyən edilmişdir. Bundan əlavə Dökmen tərəfindən aparılan tədqiqatda da oxşar nəticələr ortaya çıxmışdır. Nəticə onu göstərir ki, işləmək depressiyanı gözlə görünən dərəcədə azaldır və iş həyatının çətinliklərinə baxmayaraq, insanlarının psixi sağlamlıqlarını müsbət istiqamətdə dəyişir. İnsanın iş yerində bir şey yaratması, cəmiyyətdə status qazanması, özünü məhsuldar hiss etməsi onun psixoloji sağlamlığına müsbət təsir edir. Bundan əlavə ekonomik cəhətdən özünü azad hiss etməsi və bunun sayəsində cəmiyyətdə özünü ifadə edə bilməsi yaxşı hiss etməsini təmin edir. Ümumi olaraq işləmək xüsusilə qadınların mental sağlamlığına müsbət təsir edir. Dökmen qadınlarda

ev işi görmə sıxlığı ilə depressiyanın da artdığını və ev işlərinin tək cavabdehi olaraq qadınların görülməsi ilə birlikdə qadınların mütəmadi olaraq eyni işi etməsinin ruhi sağlamlığının pozulmasına səbəb olduğunu tədqiqatları nəticəsində ortaya çıxarmışdır. İşləyən qadınlarda isə bu gündəlik sıxıntılar (ev işləri, gərginlik yaradan kədərli hadisələr, şəxsiyyətlərarası münasibətlər sağlamlıqla əlaqəli problemlər, səs-küy, uşaqlara baxmaq, ətrafla bağlı sıxıntılar) ilə bərabər iş mühitindən qaynaqlanan (iş yerindəki fiziki vəziyyət, işin sıxlığı və monotonluğu rollardakı qeyri-müəyyənlik, rol qarşı durmaları, rəhbərlə münasibətlər, işdə yüksəlmə imkanları, veriləcək qərarlar və s.) problemlər ev qadınlarına nəzərən stressin daha sıx yaşanması təbiidir [4, s.40].

Bununla yanaşı, unutmaq lazım deyil ki, istər işləyən qadınlarda istərsə də evdar xanımlarda stress vəziyyətinə nəzarət və stressə dayanıqlılıq onların fərdi psixoloji xüsusiyyətlərindən, o cümlədən, sinir sisteminin tipi, temperament, xarakter, akademik və emosional intellektindən, daxili nəzarət səviyyəsindən asılıdır.

**Ədəbiyyat:**


1. Ekstremal şəraitlərdə psixoloji xidmət (Ali məktəblər üçün dərslik), Bakı, 2006.
2. Брязгунов И.П. Между здоровьем и болезнью. –М., 1995. 224с.
3. Balta A. "Stres ile başa çıkma yolları ve iş hayatında stres", X. Ulusal Psikolji Kongresi Bilimsel Çalışmalan, Türk Psikologlar Derneği Yayınları, 1996, 229-235,
4. Dökmen Z. Y. "Çalışma, cinsiyet ve cinsiyet rolleri ile ev işleri ve depresyon arasındaki ilişki", Türk Psikoloji Dergisi, 12(39), 2000, 39-53
5. Freedman S. M., & Phillips, J. S. "The Changing Nature of Research on Women at Work." Journal of Management,2001, 14, 231-251.
6. Long B.C., & Kahn, S. E. (Eds.)., "Women, Work, and Coping: A Multidisciplinary Approach to Workplace Stress." Montreal: McGill-Queen's University Press., 2003
7. Nelson D. L., & Hitt, M. A., "Employed Women and Stress: Implications for Enhancing Women's Mental Health in the Workplace." In J. C. Quick, L. R. Murphy, J. J. Hurrell, Jr. (Eds.), Stress and Well-Being at Work: Assessments and Interventions for Occupational Mental Health). Washington, DC: American Psychological Association, 2006, pp. 164-177
8. Repetti R. L., Matthews, K. A., & Waldron, I. "Employment and Women's Health: Effects of Paid Employment on Women's Mental and Physical Health." American Psychologist, 2013, 44, 1394-1401
9. https://my.clevelandclinic.org/health/articles/5545-women-and-stress
10. https://www.verywellmind.com/stress-in-women-3144963

**UOT 159.9**

# TƏNHALIQ ƏLİLİYİ OLAN UŞAQLARIN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Fatih AŞAN**

*Bakı-Slavyan Universitetinin Doktorantı*
*fatihasan4153@gmail.com*

## XÜLASƏ

Əlillik mürəkkəb problemlərdən biri hesab olunur. Məqalə çərçivəsində biz, əlilliyin sosial-psixoloji mahiyyətini araşdırdıq. Əlilliklə bağlı tibbi və sosial modelləri təhlil etdik. Əlilliyin özü ilə bərabər gətirdiyi psixoloji vəziyyətlərdən, xüsusilə tənhalıq halından bəhs etdik. ÜST məlumat verir ki, Dünya əhalisinin təxmini 10 faizi əlil şəxslər qrupuna daxildir. Bu baxımdan bu mövzunun müxtəlif aspektdən araşdırılması hər zaman aktualdır.

**Açar sözlər:** əlillik, əlilliyin tibbi modeli, əlilliyin sosial modeli, əlilliyin psixologiyası, tənhalıq

## РЕЗЮМЕ

## ОДИНОЧЕСТВО КАК ОДНА ИЗ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИХ ПРОБЛЕМ ДЕТЕЙ С ИНВАЛИДНОСТЬЮ

Инвалидность является одной из наиболее сложных проблем. В статье мы исследовали социально-психологическую природу инвалидности. Мы проанализировали медицинские и социальные модели инвалидности. Мы говорили о психологических условиях, которые приносит инвалидность, особенно одиночество. По оценкам ВОЗ, около 10 процентов населения мира являются инвалидами. С этой точки зрения изучение данной темы с разных сторон всегда актуально.

**Ключевые слова:** инвалидность, медицинская модель инвалидности, социальная модель инвалидности, психология инвалидности, одиночество

## ABSTRACT

## LONELINESS AS ONE OF THE SOCIAL AND PSYCHOLOGICAL PROBLEMS OF CHILDREN WITH DISABILITIES

Disability is one of the most complex problems in the article, we explored the socio-psychological nature of disability. We analyzed medical and social models of disability. We talked about the psychological conditions that disability brings with it, especially loneliness. The WHO estimates that about 10 percent of the world's population is disabled. From this point of view, the study of this topic from different aspects is always relevant.

**Keywords:** disability, medical model of disability, social model of disability, psychology of disability, loneliness

Tarixən əlilliyi və məhdudiyyəti olan şəxslərə qarşı cəmiyyət və dövlət tərəfindən münasibət fərqli idi. Əhalinin digər həssas qrupları kimi, əlilliyi olan şəxslər də özlərinə qarşı münasibətin müxtəlif dövrlər üzrə dəyişməsinin şahidi olmuşdurlar. Qədimdə onlara qarşı münasibət və onlarla rəftar aqressiya və dözümsüzlüyə arxalanırdı. Bioloji patologiyalarla, xəstəliklərlə və zədələrlə doğulan uşaqlar cəmiyyət tərəfindən birmənalı olaraq "qüsurlu" kimi qəbul olunurdu və bu cür körpələrin dünyaya gəlməsi tanrının insanlara törətdiyi əməllərə və günahlara görə göndərdiyi cəza və ya sınaqla əlaqələndirilirdi. Belə yanaşma və rəftar hüquqi sistemdə də institusional şəkildə əks olunmuşdur. Misal üçün, Likurq və Spartanın qanunlarına əsasən, əlilliklə doğulan uşaqlar təcrid və ya, ümumiyyətlə, fiziki məhv olunmalı idi. Antik dünyada əlilliyi olan şəxslər vətəndaş kimi deyil, hüquqi stastusuna görə kölələrə bərabər tutulurdu. Qanunvericilik hətta ali təbəqənin nümayəndələrini də əlilliyinə görə seçərək, onları "tam dəyərli" (tanınan) və "dəyərsiz" (tanınmayan) qruplara ayırırdı. Bunun nəticəsində onlar fərqli münasibətlə qarşılaşırdılar. Belə vəziyyət əlilliyi olan şəxslərin ekslyuziyasının təməlinin qoyulmasına gətirib çıxartmışdır. Daha sonrakı dövrlərdə, Xristianlığın və İslamın bərqərar olunması ilə bu insanlara qarşı münasibət aqressiya və dözümsüzlükdən şəfqətə doğru dəyişildi. Qərbi Avropada ilk hospislər və sığınacaqlar yaradılmışdır. Əlilliyi olan şəxslər artıq fıziki məhv olunmur, əksinə onlara qida və tibbi müayinə və müalicə xidmətləri təklif olunurdu. Əlilliyi olan şəxslər üçün fəaliyyət göstərən ixtisaslaşmış himayədar təsisatlar adətən dini qurumların nəzdində, daha sonra isə rəsmi hakimiyyət orqanların nəzdində çalışırdı. Lakin göstərilən xidmətlərə rəğmən, bu kateqoriyaya aid olan insanlar ictimai proseslərdə iştirak etmir, qərar qəbul etmək hüququna malik deyildilər, hətta cəmiyyətdə onlarla bağlı çoxsaylı xürafat və

mövhumat mövcud idi. Beləliklə, onlar cəmiyyətdən təcrid olunmuşdur (1, s.5). Müasir dövrdə isə mövcud problemə baxış dəyişilmişdir. Artıq dünya ölkələri bu problemlə üzləşmiş şəxslərin hüquqlarının qorunması və sosial-psixoloji aspektdən dəstəklənməsi üçün qanunlar qəbul etmişlər. Lakin buna baxmayaraq biz əlilliyi olan şəxslərin tamamilə sosial-psixoloji problemlərdən azad olunduğunu deyə bilmərik. Bu baxımdan mövcud problemin araşdırılması mühüm əhəmiyyət kəsb etməkdədir.

Əlillik "bir insanın fərdi və ya sosial həyatında tək başına etməsi gərəkən işləri fiziki və ya ruhi qabiliyyətlərindəki irsi, ya da sonradan olma hər hansı nöqsanlıq nəticəsində edə bilməyənlər" olaraq müəyyən edilib. Fərdin fiziki funksiyalarındakı pozğunluq və bunların hərəkət qabiliyyətində yaratdığı əksiklik və çətinlik, onun özünü cəmiyyətin digər fərdlərindən fərqli hiss etməsinə səbəb olur. Beləliklə də, fiziki funksiyalardakı pozğunluqlar və bunların hərəkət qabiliyyəti üzərində yaratdığı məhdudiyyətlər əlilliyi olan insanları cəmiyyətdən uzaqlaşdırar.

Fiziki məhdudiyyətli insanların, xüsusilə də uşaqların cəmiyyətə inteqrasiyası birinci növbədə valideynlərin və ya onlara yaxın olan digər insanların əlindədir. Özəlliklə də, onların ilk davranış qəlibləri, ictimai həyata bağlı qayda və rollar, təməl vərdişlər, xoşbəxliklər, sevgilər, gündəlik münasibətlər içində böyüyüb inkişaf edə biləcəyi bir ailəyə ehtiyacı vardır(4, s.115).

Qeyd edək ki, mövcud problemin təhlilində əlilliklə bağlı iki model təklif olunur: Tibbi model və Sosial model.

İlk öncə əlilliyin tibbi modelinə nəzər salaq. Ənənəvi qəbul edilmiş tibbi model əlilliyin məhz şəxsin daxilində yaranan "qüsurlar", "zədələr" və xəstəliklər sayəsində disfunksiyaların aşkarlanması və həmin şəxslərin "əlillər" qrupuna daxil olmasını iddia edirdi. Belə şəxslər "qüsurlu" və tibbi korrektəyə möhtac olan insanlar kimi qələmə verilirdi. Sosial modeldə isə, əlillik ətraf mühitin çoxsaylı amillərinin təsiri nəticəsində əlilliyi olan şəxslərin məhdudiyyətlərlə və manelərlə rastlaşdığı vəziyyət kimi qəbul edilir.

"Bir insanı hansı meyyarlara görə əlil adlandıra bilirik?" Sualına tibbi model çərçivəsində yanaşma tərəfdarları aşağıdakı kimi cavablandıracaqdır:

- "İnsanlar yeriyə bilmədikləri zaman əlil adlandırıla bilər".
- "İnsanlar eşidə bilmədikləri üçün əlil adlandırıla bilər".
- "İnsanlar görə bilmədikləri üçün əlil hesab oluna bilər".
- "İnsanlar danışa bilmədikləri üçün əlil hesab olunur".

Buna əsasən aşağıdakı anlayış nümunələri formalaşır:

Əlillər xəstədirlər və əlillik normadan kənara çıxmadır.

Əlilliyi olan insanlar norma anlayışına daxil edilmir və buna görə də:

- əlilliyi olan insanlar çox az yerdə işləyə bilir;
- əlilliyi olan insanlar adi məktəblərə gedə bilmirlər;

- əlillərin uşaqları olmamalıdır;
- əlilliyi olan insanlar kimlərdənsə asılıdırlar və onlar yükdürlər.

Tibbi model insanları edə bilmədikləri baxış açısından müəyyənləşdirir. Buna görə cəmiyyət öz siyasi mövqeyini təyin edərək əlilliyi olan insanları cəmiyyətin əksər hissəsindən təcrid etmək üçün xüsusi qurumlar təşkil etdi, müəyyən qanunlar qəbul etmiş oldu.

İkinci model əlilliyin sosial modelidir. Sosial modeldə əlilliyi olan şəxslərin "düzəlməsinə", "korreksiyasına" ehtiyac duyulmur. Əksinə, ətraf mühitin həmin şəxslərin məxsusi ehtiyaclarına uyğunlaşdırılmasını nəzərdə tutur. Sosial modeldə əlilliyi olan şəxslərə qarşı mərhəmət və şəfqət istənilmir, cəmiyyət üzvlərinin özlərini onların yerinə qoyması, onları başa düşməsi və bütün vətəndaşlar kimi onların da tam bərabər hüquqlu şəxs olması nəzərdə tutulur. Bu modelin təməlini müyəssərlik və müstəqil həyat prinsiplərinin tətbiqi təşkil edir (6, s.152). Bu prinsiplərə əsasən, ətraf mühit obyektləri, xidmətləri və ehtiyatları əlilliyi olan şəxslər üçün əlçatan olmalıdır. Gündəlik həyatda isə onlar imkan daxilində özlərini idarə edib, müstəqil şəkildə qərarları qəbul etməli və heç kəsdən asılı olmamalıdır. Konvensiyanın müddəalarına əsasən, əlilliyi olan şəxslərə qarşı bütün ayrıseçkilik formaları ləğv olunmalı, onların hüquq və azadlıqları təmin olunmalı, ləyaqətləri və dəyərləri qorunmalıdır. Bu konvensiyanın tam tətbiqi nəticəsində bəşəriyyət artıq keyfiyyətcə yeni mərhələyə, əlilliyi olan şəxslərin inklyuziyasına qədəm qoyacaq. Əvvəllər daha geniş yayılmış inteqrasiya konsepsiyasından fərqli olaraq, inklyuziya paralel inkişafı deyil, məhz müştərək, hər bir sahəni əhatə etməklə, birgə inkişafı ehtiva edir və əlilliyi olan şəxslərin öz müqəddəratını təyin edib qərar qəbul etmə prosesində tam iştirakı nəzərdə tutur.

Bu modelə görə, onların pozuntuları ilə əlaqəli olmadan cəmiyyət tərəfindən əlillərin vəziyyəti və yaşadıqları ayrı seçkilik süni şəkildə yaradıldığı müəyyən olunmuşdur.

Sosial model, Britaniya Şurasının Əlillər Təşkilatı tərəfindən qurulduğu aparıcı fəlsəfi prinsipləri indi və gələcək dövürlərdə də təmin etməyə davam edir.

Fikrimizcə, fiziki qüsurlu insanları əlil edən cəmiyyətdir. Əlillik, həddindən artıq təcrid və bizi ictimai həyatda tam iştirakdan kənarlaşdırmaqla pozuntularımıza əlavə olumuşdur. Beləliklə, əlillər cəmiyyətin məzlum bir hissəsidir. Bunu dərk etmək üçün oxşar əlilliyi olan insanların "Əlillik" adlandırılan fiziki əlilliklə, sosial vəziyyətlə bağlı pozuntu arasındakı fərqləri anlamaq lazımdır. Beləliklə biz özümüz bu pozuntunu qismən və ya tamamilə olmayan bir orqan və ya funksiya olaraq təyin edirik, əlillik isə-müasir cəmiyyətin təşkili nəticəsində yaranan qismən və ya tam bir fəaliyyətdir. Hansı ki, tamamilə və ya təcrübə olaraq fiziki qüsurlu insanları nəzərə almır və bununla da cəmiyyət içə-

risində tam fəaliyyətində iştirak etmələrini ixtisar edir. Nəticə etibari ilə fiziki əlillik sosial təzyiqin müəyyən bir formasıdır.

Bu baxımdan əlil olan insanları başa düşmək, onlara mövcud psixoloji sərhədləri ilə mübarizə aparmağa, bu əngəllərin öhsədindən gəlmək üçün güc qazanmağa kömək edir.

Beləliklə, bir az əvvəl verilən "İnsanı əlil edən nədir?" Sualına sosial modeli nəzərə alaraq cavablandıran insan:

• "İnsanlar ətraf mühitdəki maneələrə görə əlil olurlar."

• "İnsanlar məlumat və ünsiyyət imkanlarının olmaması səbəbindən əlil olurlar."

• "İnsanlara bərabər iş imkanları verilməməsi səbəbindən əlildir."

• "İnsanlar əlçatmaz yaşam, nəqliyyat imkanlarını səbəbindən əlildir."

• "İnsanlar sistematik ayrıseçkiliyə görə cəmiyyətin əlillərə olan mənfi münasibətinə görə əlil olurlar."

Sosial model, hər kəs kimi əlil insanların da zaman-zaman tibbi yardıma ehtiyacı olduğunu qəbul edir. Bununla birlikdə, bu model əlillərin tibbi müdaxilə obyekti kimi görülə bilməyəcəyini söyləyir. Onların digər insanlar kimi fəaliyyət göstərməsini qeyri-mümkün edən nədir, onları əlil edən nədir? Onların pozuntusu deyil, əksinə, cəmiyyətin mənfi münasibəti və ünsiyyəti necə təşkil etmələridir (6, s.158).

Əlillərin sayının artması prosesi planetimizin bütün əhalisi üçün xarakterikdir. BMT ekspertləri və Ümumdünya Səhiyyə Təşkilatı dünya əhalisinin 10% -nin fiziki və ya əqli cəhətdən əlilliyi olduğunu bildirir - onlardan hər 10 nəfərdən biri, 120 milyondan çoxu- uşaq və yeniyetmədir.

Fiziki əlilliyin qarşısının alınması həm qlobal iqtisadi və sosial amillərin həllindən, həm də əhalinin şüurlu və fəal iştirakından asılıdır.

Əlillik problemini nəzərdən keçirərkən bir neçə məqamı qeyd etmək olar:

• tibbi aspekt, əzələ-sümük sistemindəki, hissiyyat və ya nevro-psixi sahələrdə anatomik bir qüsurun əks olunması ilə ciddi bir funksiya pozğunluğu və həyatın məhdudlaşmasına səbəb olan amillər;

• sosialoji cəhətdən mühitdə məcburi təcrid olunma, sosial məhrumiyyət, məlumat çatışmazlığı, məhdud məşğulluq, məlumat yetərsizliyi və eləcə də şəhər maneələrinin yaranmasında özünü göstərir;

• psixoloji cəhətdən şəxsi planda dəyişiklik özünü aşağı qiymətləndirmə, balanssız özünü tənzimləmə, ətraf mühitə uyğunsuzluq, özünü ətrafdan asılı hiss etmə kimi özünü göstərir. Daha çox nəzərə çarpan psixoloji dəyişikliklər: qeyri-müəyyənliyin, ümidsizlik hisslərinin, əzabın, narahatlığın, daxili tənhalığın olması ilə müşayiət olunur.

"Əlil uşaq" problemi, sanki iki plana sahibdir: Bir tərəfdən - əlil uşağın ailəsi tərəfdən yaşamaq, sosial müdafiə və təhsildə əlaqəli problemlər komplek-

si kimi; digər tərəfdən, əlil uşağın özü; onun problemi fərd kimi (mümkündür amma o qədər də yox) eşitmə, görmə və hərəkət etmə bacarıqları, eləcə də öz həmyaşıdlarından fərqli olaraq onun maraqlarını, qayğılarını əhatə edən uşaqlıq dünyasından məhrum olmasıdır.

Son zamanlar tibb və pedaqogikada anadan gəlmə inkişaf qüsurları olan uşaqları təsvir etmək üçün "xüsusi" uşaqlar termini geniş yayılmışdır. Belə uşaqların müalicəsi və tərbiyyə problemi tibbi, psixoloji və pedaqoji korreksiya baxımından, qüsuru kompensasiya etməyə və cəmiyyət daxilində həyata uyğunlaşmağa yönəldilmişdir.

Əlil uşaqların təlim və təhsil məsələlərini də nəzərdə saxlamaq vacib məsələlərdəndir. Təhsil və təlim pedaqoji fəaliyyətin bir hissəsidir. Uşağın əmək bacarıqlarına yiyələnməsi və eləcə də həyatda öz mövqeyini tapması üçün ətraf aləm, həyat haqqında ümumi təsəvvürlərinin yarandılması məqsədilə verilən təhsil eyni zamanda tərbiyyə adlanır. Tərbiyənin əsas vəzifəsi uşağın cəmiyyətdə yaşaması üçün lazım olan faydalı keyfiyyətlərə sahib bir şəxs kimi formalaşması və inkişafıdır. Öyrənmənin, əsas məqsədi uşağın qabiliyyətlərini inkişaf etdirməkdir. Bu iki prossesi bir-birindən ayırmaq praktik olaraq mümkün deyil. Uşağı tərbiyyə edərək ona nələrisə öyrətmiş oluruq, uşağa təhsil verdiyimiz zaman isə eyni zamanda onu tərbiyyələndirmiş oluruq.

Əvvəlcə əlil uşaqların valideynləri uzun müddət əlilliyi olan uşağın doğulması ilə əlaqəli psixoloji sarsıntıdan "uzaqlaşa" bilmirlər. Sonra, bəzi hallarda, uzun müddət qüsurun praktik olaraq sağalmaz ola biləcəyinə dair daxili razılığa gələ bilmirlər. Uşağın həyatının ilk illərində valideynlər bütün mövcud müalicə metodlarından istifadə etməyə uyğunlaşmağa başlamadan, müalicəyə qarşı "soyuyurlar". Təəssüf ki, ilk illərdə əksər valideynlər uşağın zehni inkişafına və yetkin dövrdə müstəqil həyat üçün lazım olan biliklərin, bacarıqların (mövcud qüsurun xüsusiyyətlərini nəzərə alaraq) formalaşmasına lazımı diqqət yetirmirlər. Zehni inkişaf üçün ən qiymətli olan həyatın ilk dönəmləri, uşağın ətraf mühitlə əlaqəsi formalaşdığı zaman həyata keçirilir. Artıq yetkinlik dönəmində uşağın taleyini müəyyən edən müstəqil varlıq onun bacarıqlarıdır, məlumdur ki, valideynlər "əbədi deyil" və uşağın özünəxidmət bacarıqlarına yiyələnməsi vacibdir (5).

İnkişaf qüsurlu bir uşaq böyüdükdə müstəqillik problemi ön plana çıxır, lakin şəxsiyyəti artıq qəyyumluq, zəiflik və aşağı tələblər prinsipləri üzərində formalaşır.

Əlilliyi olan uşaqlar da daxil olmaqla bütün uşaqların əsas ehtiyacı sevgi, yemək, qayğı tələbləri olmaqla yanaşı, özünü və onu əhatə edən dünyanı tanıma fürsətidir. Əlil uşağın ətrafındakı dünyanı dərk etməsi daha çətindir. Hər bir uşaq üç amil üzrə inkişaf edir: fiziki (bədən ilə), əqli (zəka ilə) və sosial (ünsiyyət ilə).

Hər hansı bir uşağın inkişafında və erkən tərbiyəsində həlledici rolu valideynlər və digər ailə üzvləri oynayır. İnkişafdan geri qalan uşaqlar stimullaşdırmaya ehtiyac duyurlar - söhbətlər, musiqi, oyunlar, parlaq təəssüratlar, lakin sağlam uşaqlardan fərqli olaraq onlar fiziki və zehni inkişaf üçün daha çox kömək və sistematik fəaliyyətə ehtiyac duyurlar.

Erkən stimullaşdırma və təhsil fəaliyyətləri ilə uşağa kömək edən inkişaf sahələri:

• Hərəkət, bədənini idarə etmə qabiliyyəti, fiziki güc, eləcə də hərəkətlərin koordinasiyası uşağı hərəkətə gətirər, müxtəlif hərəkətlər yerinə yetirməsinə, oynamasına və işləməsinə kömək edəcəkdir.

• Əllərdən istifadə (əlin yaxşı idarə olunması, əl və göz hərəkətlərinin koordinasiyası) uşağın bir çox bacarıqlara yiyələnməsinə kömək edəcəkdir.

• Duyğu orqanları, xüsusən görmə, eşitmə və qavrama. Onlar uşağın ətraf aləmini tanımasına və onlara necə reaksiya verməli olduğuna köməkçidirlər.

• Ünsiyyət, yəni dinləmək, deyilənləri başa düşmək, nitq və ya digər ünsiyyət vasitələrini mənimsəmək.

• Digər insanlarla ünsiyyət: gülümsəmək, oynamaq, düzgün davranmaq

• Gündəlik əsas fəaliyyət növləri: Yemək, içmək, geyinmək, təbii ehtiyacların idarə edilməsi (tualet), yuyunma. Bu bacarıqlar uşağınızın daha müstəqil və özünə güvənli olmasına kömək edəcəkdir.

• Müşahidə, düşüncə və fəaliyyət: düşünülmüş ağlabatan qərarlar qəbul etmə bacarığı.

Müalicənin əsas prinsiplərini başa düşmək və bununla yanaşı tövsiyə olunan müalicəni müəyyən olunmuş uşağa, ailəsinə və gündəlik həyatın tələblərinə uyğunlaşdırmaq lazımdır.

Əlil uşaqların valideynləri ilə sağlam uşaqların valideynlərinin psixoemosional vəziyyətinin müqayisəli təhlili göstərdi ki, sağlam uşaqların valideynlərinin ruh yüksəkliyi daha yüksəkdir. Fəaliyyət göstəricilərnin aktivliyi isə daha çox əlil uşaqların valideynləri arasında daha yüksəkdir. Bu o deməkdir ki, bu cür valideynlər uşağına effektiv yardım göstərməyə israrlıdırlar və bu da öz növbəsində belə ailələrdə əlverişli reabilitasiya imkanları yaratmaq üçün yaxşı imkanların olduğunu göstərir.

Ailədə inkişaf qüsurlu bir uşağın düzgün tərbiyəsi, yalnız valideynlərin, xüsusən də ananın, artan stress şəraitində dincliyini qorumağı bacardığı zaman mümkün olur. Yalnız belə bir ailə övladına fəal bir köməkçi olur, ümidverici bir reabilitasiya sahəsi yaradır (4, s.165).

Uşaqlar böyüdükcə əlavə bilik və bacarıqlara ehtiyac olur. Əlilliyi olan uşaqların sosial uyğunlaşması üçün təhsil vacibdir. İnkişaf etmiş ölkələrdə əlilliyin ən erkən mərhələsində xüsusi təlim proqramları və müvafiq texniki avadanlıqlar mövcud olarsa, nəticəsizliyin minimuma endirilə biləcəyi bir an-

layış mövcuddur. ABŞ, Türkiyə və İtaliyada bütün uşaqlar, o cümlədən ən ciddi əlilliyi olan uşaqlar da daxil olmaqla müntəzəm məktəblərə gedirlər ki, bu da onların cəmiyyətə daha da yaxşı uyğunlaşmalarına səbəb olur. Bir çox ölkələrdə valideynlər və ya valideynlər qrupu əlil uşaqları başqaları ilə ünsiyyətdə olması və onların səviyyəsində inkişaf etdirmək üçün xüsusi texnologiyadan istifadə edərək təhsil verməyə çalışırlar.

Əlilliyi olan uşaqların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin təhlili göstərir ki, başlıca psixoloji problemlər onun yaşadığı və böyüdüyü cəmiyyətdən təcrid edilməsilə bağlıdır.

Erkən uşaqlıq dövründən etibarən inkişaf qüsurlu uşaqlar xarici görünüşlərinin digər insanlar tərəfindən qiymətləndirməsi ilə qarşılaşırlar. Tez-tez sağlam uşaqlar əlilliyi olan uşaqların xarici qüsurlarını uşaq ağlının spontan və qəddarlığının nəticəsi ilə qiymətləndirirlər. Nəzərə alsaq ki, Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin tam əksəriyyəti "əlil", "ağıldankəm", "axsaq", "autik", "Daun", "debil", "epileptik", "dovşandodaq", "kar", "kor", "lal" və bunun kimi sözlərin istifadəsini bəyənmir və özlərinə qarşı həmin söz və ifadələri təhqiramiz sayır, bu amil də sosial təcridə təsir edir. Nəticədə, əlil uşaqlar təcrid, kütləvi ünsiyyətdən qaçmaq, "dörd divarın içərisində" bağlanmağa üstünlük verir, daxilən isə bu maskalı (gizli) depressiyanın yaranmasına gətirib çıxarır. Masqalanmış (gizli) depressiya (aşağı düşmüş əhval fonu, özünü qiymətləndirməmə, özünün və digər insanların prespektivləri, tez-tez ləngiyən düşüncə, asılılıq və passivlik) özünə inamın aşağı olması və gələcək üçün əlverişli bir proqnozun olmaması ilə birlikdə intihar xarakterli düşüncələrin ortaya çıxmasına səbəb olur. Tez-tez natamamlılıq kompleski formalaşmış olur. Ünsiyyət problemin və özünü təcrid, inravertlik əlilliyi olan şəxslərdə tənhalıq halının daha dərin yaşanmasına səbəb olur. Öz tənhalıq hissinin öhdəsindən gələ bilməyən şəxs bu hissin fonunda digər psixoloji narahatlıqlarla üzləşir və dərin ruhi sarsıntı keçirir (7, s.460).

Böyümə prosesi zamanı əlilliyi olan uşaqlar "adi" uşaqlarla müqayisədə həyat səviyyələrinin onlara nisbətən aşağı olduqlarını anlamağa başlayırlar. Bununla da artıq onlarda özünü qiymətləndirmənin - özünə hörmətin aşağı səviyyəsi formalaşmış olur ki, bu da öz növbəsində iddia səviyyəsinin həddən artıq azalmasına səbəb olur. Bu proseslərin nəticəsi olaraq sosial passivlik və aktiv yaşayış sahəsinin daralması xarakterizə olunur.

Gec-tez xüsusi uşaqlar cəmiyyətin sağlam üzvlərindən asılılığının qlobal mahiyyətini dərk etməyə başlayırlar. Pensiya, müavinət və daha çox - bunların hamısı sağlam insanların hesabına almış olurlar. Bu aslılığı dərk etmək və ona alışmaq asılılığın formalaşmasına kömək edir. Tipik meyllər öz müstəqilliyinin rədd edilməsi və taleyinə görə məsuliyyəti isə öz ətrafına köçürmüş olur. Əs-

lində "xüsusi" uşaqların inkişafındakı təhsilin qüsuru tərbiyyə qüsuruna qoşulmuş olur.

Gözlənilmədən görmə, eşitmə imkanlarını itirmiş insanlarda bu ömrünün qalan hissəsinin dağılması kimi anlaşılan və onlar tərəfindən əlilliyi qəbul etmək, bu vəziyyətlə barışa bilməmək ən çətin əlillik dönəmidir. Şəxsiyyətin sonraki xarakteroloji inkişafı nevrozun, psixozların mərhələli şəkildə dəyişməsi ilə baş verə bilər. Bu, düzgün tərbiyə olunmayan əlilliyi olan uşaqlarda, xüsusən onlar üçün gələcəyin bir modelinin izah edildiyi zaman ortaya çıxır.

Əlil uşaqların gələcək həyat modelini müşayiət edən araşdırmalar, sağlam uşaqların gələcəyinin modeli ilə müqayisədə onların həyatlarının dəyişdirə bildiyini göstərdi. 14-15 yaşlarında xüsusi uşaqların 36%-i sağlamlıqlarının yaxşılaşmasını xəyal edirlərsə, digər sağlam uşaqların 100%-i isə müəyyən bir peşə əldə etməyi xəyal etmiş olurlar. Ancaq 15-16 yaşlarında gələcək düşüncəsi daralır. Həyat yalnız yaxşı iş xəyalı ilə 5 il müddətində planlaşdırılır. Gələcəyin emosional rəngləri mənfidir. Uşaqlar öz şanslarından əmin deyillər. Rəssam, həkim, balerina, vəkil olmaq arzusunda olurlar, amma ən yaxşı halda tərcüməçi, yazıçı, dərzi ola biləcəklərini anlamış olurlar. Gələcəyin modeli keyfiyyətsizdir, məzmunu və müvəqqəti xüsusiyyətləri məhdud və emosional planda isə mənfidir. Ziddiyyətli məqamlar gələcək modelinin quruluşunda görünür. Bir tərəfdən, arzu olunan gələcək real imkanların məhdudlaşdırılmasını kompensasiya edir, müsbət bir əlaqə yaradır və mümkün uğursuzluqlardan qoruyucu bir mexanizm əks etdirir. Digər tərəfdən, özündən məmnunluq səviyyəsinin aşağı olması, ciddi şəkildə müxtəlif növ nevroz hallarının sonrakı məqamlarda meydana gəlməsi ilə daxili bir qarşıdurmaya səbəb olur.

Əlilliyi olan uşağa sahib olan hər bir ailənin öz xüsusiyyətləri, öz psixoloji dövrü var ki, bu da bu və ya digər şəkildə uşağa təsir edir, ya onun reabilitasiyasına kömək edir, ya da əksinə onu ləngidir.

Ailədə atanın əlil uşağın tərbiyəsində iştirakı kimi bir amil onun psixoloji rifahına əhəmiyyətli dərəcədə təsir göstərir. Atanın tərbiyyə dövründə işində iştirak etməməsi, habelə digər səbəblər nəticəsində əlilliyi olan uşaqlar tez-tez ailə münasibətlərində narahatlıq keçirirlər. Təbii ki, bu həmişə mənfi olur. Belə ailələrdə əlil bir uşaq ikiqat yük daşıyır: cəmiyyət tərəfindən rədd olunmaya və eləcə də öz ailəsində yadlaşmaya məruz qalır.

Beləliklə, əlil uşaqların psixoloji reabilitasiyasının mahiyyəti nevropsixi stressi aradan qaldırmaqdan ibarət ola bilər; özünə inamın düzəldilməsi; zehni funksiyaların inkişafı - yaddaş, düşünmə, təxəyyül, diqqət; passivliyi aradan qaldırmaq; müstəqillik, məsuliyyət və aktiv həyat mövqeyinin formalaşması; yadlaşma duyğusunu aradan qaldırmaq və ünsiyyət bacarıqlarının formalaşması.

Psixoloji reabilitasiya metodları həm əlil uşaqlar, həm də onların ailələri üçün psixoloji söhbətlər, fərdi psixoloji məsləhətlər, psixoloji yardım, rol oyunları, psixoloji təlimlər, psixoloji qarşılıqlı yardım və qarşılıqlı dəstək ola bilər.

Əlilliyin özü psixoloji problem deyil, problem, insanın sosial və psixoloji uyğunlaşma prosesidir. Sosial uyğunlaşma ilə insanlarla birlikdə dinc yanaşı yaşamaq, hədəflər qoymaq, onlara nail olmaq və mövcud gündəlik problemləri həll etmək kimi qabiliyyəti başa düşürük. Psixoloji şəraitdə isə - əsəb sarsıntılarından və hər cür məyusluqdan sonra daxili tarazlığı özünə və insanlara olan sevgi vəziyyətini bərpa etmək imkanı başa düşülür.

Əlil bir uşaq həyata uyğunlaşma və inteqrasiya qabiliyyətlərinin azalmış səviyyəsi ilə çıxış edir. Xəstəliyin növü və inkişafın olmaması, xəstəlik gedişatının xüsusiyyətləri, xəstəliyin müxtəlif orqanlara və sistemlərə ziyan vurma xüsusiyyətləri, qüsurun xarakteri və şiddəti uyğunlaşma və inteqrasiya imkanlarının azalması xarakterini və səviyyəsini müəyyənləşdirir.

Bir uşağın həyata uyğunlaşması və cəmiyyətdə öz yuvasını tapması üçün müəyyən biliklərə, bacarıqlara ehtiyacı var. Bir insanın həyatda iddialarının səviyyəsi, insanın özü üçün qoyduğu məqsəd və vəzifələrin mürəkkəblik dərəcəsi, onun sosial-psixoloji məkanının sərhədlərindən asılıdır. Bu məkanda insan öz qabiliyyətlərinin səviyyəsinin mümkünündən daha geniş olduğunu dərk etmədən bütün həyatını yaşaya bilər. Cəmiyyət “əlil şəxsin” probleminin həllinə cəmiyyətdən kənarda baş verən müəyyən bir hadisəyə yazıqlama mövqeyindən deyil, yardım, dəstək, birlik mövqeyindən yanaşmalıdır. Əlilliyi olan uşaqlar təhsil almaqda, hərtərəfli inkişafda və (yalnız qanunvericilik səviyyəsində deyil, həm də praktik səviyyədə) bərabər imkanlara, yaradıcılıq da daxil olmaqla, bütün fəaliyyət sahələrində özünü sınamaq və öz potensiallarını reallaşdırmağı seçmək imkanlarına sahib olmalıdırlar.

Əlil şəxslərin problemlərinin həllində sosial işçilər mühüm rolu oynayır - onlar bir növ köməyə ehtiyacı olan xüsusi bir şəxsə, ailəsinə fərdi mütəxəssislər arasında vasitəçi rolunu oynayırlar. Onlar öz işlərində vəkil, sosial terapevt və müştəri üçün lazım olan bütün xidmətlərin əlaqələndirici funksiyalarını birləşdirirlər.

Əlil uşaqlar və onların ailələri ilə işləyərkən sosial işçi, mütəxəssis əlilliyi olan şəxslərin vəziyyətinə uyğun müəyyən yanaşmaları etməlidir. Dövlət sosial müdafiə sistemi əlil uşaqlar və onların ailələri üçün güzəştlər təqdim edir.

Uşaq Hüquqları Konvensiyasında dövlətlərin aşağıdakı uşaqların xüsusi qayğı hüquqlarını tanıdıqları vurğulanır. Konvensiyanın 23-cü maddəsində deyilir: "İştirakçı dövlətlər əqli və fiziki cəhətdən əlil olan uşağın ləyaqətini təmin edən, özünə inamı inkişaf etdirən və cəmiyyətdə aktiv iştirakını asanlaşdıran şəraitdə tam və ləyaqətli bir həyat sürməli olduqlarını qəbul edirlər". Yəni fiziki və əqli inkişaf əlilliyi olan bütün uşaqlara özlərini bir şəxs kimi müəyyənləşdir-

mək və təhlükəsizlik və əlverişli şəraitdə, ailələr və ya qəyyumları vasitəsilə öz imkanlarını həyata keçirmək imkanı verilməlidir.

Əlilliyi olan uşaqların ümumi hüquqları Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (10 dekabr 1948) tərtib edilmişdir. Uşaq Hüquqları Bəyannaməsi (20 Noyabr 1959). Əlillərin hüquqları haqqında BMT Bəyannaməsi (dekabr 1971). Zehni Əlillərin Hüquqları haqqında Bəyannamə (20 dekabr 1971), Uşaq Hüquqları Konvensiyası (20 noyabr 1989). Uşaqların yaşaması, qorunması və inkişafı haqqında dünya bəyannaməsi (30 sentyabr 1990). Əlilliyi olan şəxslərin məşğulluğunun peşə reabilitasiyası ilə bağlı Konvensiya və Tövsiyələr (1983) və s.

Cəmiyyətin kənarlaşdırıcı davranışları əngəlli fərdin cəmiyyətə inteqrasiyasına manə ola bilər. Bundan başqa, əlillərin əsas problemi təhsil ala bilməmək, işsizlik və mənzilsizlikdir. Məhz bu kimi səbəblərdən əlillərin cəmiyyətə inteqrasiyası ilə bağlı da ciddi problemlər yaranır. Bu kimi problemləri aradan qaldırmaq üçün dövlət proqramları var. Dövlət tərəfindən əlillərə qayğı müəyyən qanunlar, layihələr vasitəsilə özünü göstərilir. Azərbaycan Respublikasının Konstitusiyasının 38-ci maddəsində əlilliyə və əmək qabiliyyətinin itirilməsinə görə sosial təminat hüququ müəyyən edilib (11). Əlliliklə bağlı məsələrə dair digər qanunvericilik aktlarında da müəyyən bəndlər nəzərdə tutulub. “Əhalinin Sağlamlığı Haqqında” 26.06.1997-ci il tarixli Qanun, “Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili (xüsusi təhsil) haqqında” 05.06.2011-ci il tarixli Qanun, “Əmək Pensiyaları Haqqında” 07.02.2006-cı il tarixi Qanun, AR. Əmək Məcəlləsi və digər qanunlarda əlillər üçün bir sıra güzəştlər və geniş əhatəli sosial təminatlar nəzərdə tutulub. 1993-cü ildən 2016-cı ilədək bir sıra yeni qanunlar təsdiq edilib, Azərbaycan Respublikası Nazirlər Kabinetinin birbaşa sərəncamları ilə bu sahədə çoxşaxəli dəyişikliklər edilib, yeni əsasnamələr və qaydalar müəyyən olunub. 05.01.2011-ci il tarixli Qərarla Tibbi-Sosial Ekspertiza Komissiyaları yenidən təşkil edilərək, 22 Zona TSEK ləğv edilməklə, onların bazasında 39 TSEK yaradılıb, 15 TSEK sədri işdən azad olunub və əlillərə keyfiyyətli və şəffaf xidmət göstərilməsi üçün müəyyən islahatlar aparılıb. 30.12.2015-ci il tarixli 413 saylı Qərarla “Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair yeni Əsasnamə” təsdiq edilib.

Bunlardan əlavə Azərbacan dövləti tərəfdaş çıxdığı bir sıra beynəlxalq sazişlərin tələblərinə uyğun olaraq əlillikllə bağlı yeni öhdəliklər qəbul edib. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (10.12.1948), Uşaq Hüquqları Bəyannaməsi (20.11.1959) və BMT-nin qəbul etdiyi “Əlil İnsanların Hüquqlarının Qorunması üzrə Beynəlxalq Konvensiya”ya (13.12.2006) qoşulmaqla bağlı 02.10.2008-ci il tarixli 687-IIIQ saylı Qanunun qəbul edilməsi ilə mövcud qanunlarda bəzi dəyişikliklər və ratifikasiyalar aparılıb. Qeyri-hökumət təş-

kilatları və digər vətəndaş cəmiyyəti institutları ilə birgə araşdırmalar aparılıb və xeyli sayda layihələr həyata keçirilib, Hökumətə konkret tədbirlərin görülməsini tələb edən təkliflər paketləri təqdim edilib (9).

Fiziki məhdudiyyətli insanlar cəmiyyətdən təcrid olunduqlarını düşünərək, tənhalıq problemi yaşayırlar. Bu insanlara mütəmadi olaraq cəmiyyətin ayrılmaz hissəsi olduğunu xatırlatmaq, onların cəmiyyət üçün əhəmiyyətini dərk etdirmək lazımdır. Bununla bağlı cəmiyyət həyatının müxtəlif sahələrində psixoprofilaktik tədbirlər və maarifləndirmə işləri görülməlidir (10).

**Ədəbiyyat:**

1. Əlillik məsələləri üzrə terminlərin izahlı lüğəti, Əmək və soail problemlər üzrə elmi tədqiqat mərkəzi, Bakı, 2016
2. Конвенция о правах ребенка (одобрена Генеральной Ассамблеей ООН 20.11.1989) (вступила в силу для СССР 15.09.1990) // Сборник международных договоров СССР, выпуск XLVI, 1993.
3. Грачев Л.К. Программа работы с семьями, имеющими детей-инвалидов. - М.: МарТ, 2001. - 416 с.
4. Мартынов В.Л. Социально-гигиенические исследования роли семьи в реабилитации детей-инвалидов. - М.: Речь, 2002. - 244 с.
5. Ткачева В. В. О некоторых проблемах семей, воспитывающих детей с отклонениями в развитии // Дефектология. 1998. №1.
6. Ярская-Смирнова Е.Р., Наберушкина Э.К. Социальная работа с инвалидами. - СПб.: Питер, 2004. - 316 с. Cuffel B. I.,

**UOT 159.9**

# YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ ÇƏTİN UŞAQLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ VƏ ONLARLA APARILAN PROFİLAKTİK İŞLƏRİN MAHİYYƏTİ VƏ İSTİQAMƏTİ

**Elnarə Əhməd qızı ƏHMƏDOVA**

*Qərbi Kaspi Universiteti*
*Psixologiya üzrə fəlsəfə doktoru, dosent*

*ahmedova-elnara@mail.ru*

## XÜLASƏ

Çətin uşaqlarla iş aparmaq və onlarda özünü göstərən qüsurları aradan qaldırmaq üçün psixoprofilaktika və psixokorreksiya vasitələrindən sistemli şəkildə istifadə etmək lazım gəlir. Bu sahədə psixoloqların üzərinə xüsusi iş düşür. Burada birinci növbədə, diqqətə xas olan, şəxsiyyəti sosial cəhətdən deformasiyaya uğrayan uşaqların vaxtında diaqnostikasını verməyə yönəldilmişdir. Bu zaman yeniyetmələrdə yaranan çətinlikləri yaradan səbəblərinin aşkara çıxarılmasına da xüsusi diqqət yetirilməlidir. Bütün bunların əsasında yeniyetmələrin fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almaqla onunla aparılacaq iş sistemi müəyyənləşdirilməlidir. Bu cür vəziyyətdən çıxmaq üçün psixoloq və müəllimlər müasir psixologiyanin nailiyyətlərinin məktəb həyatına tətbiqi nəticələrinə istinadən etməlidirlər.

**Açar sözlər:** “çətin” uşaqlar, yeniyetmə, ailə, məktəb, əxlaq, tərbiyə, psixokorreksiya, psixoprofilaktika

## АННОТАЦИЯ

## ХАРАКТЕРИСТИКА ТРУДНЫХ ДЕТЕЙ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ, СОДЕРЖАНИЕ И НАПРАВЛЕНИЕ ПРОФИЛАКТИЧЕСКИХ РАБОТ С НИМИ

При работе с трудными детьми и устранении проявившихся дефектов возникает необходимость систематического использования средств психопрофилактики и психокоррекции. На психологов в этой области возлагается особая работа. Здесь, в первую очередь, внимание уделяется

своевременной диагностике детей, личность которых социально деформирована. В то же время следует особое внимание уделить выявлению причин, вызывающих трудности у подростков. На основе всего этого определяеться система работы с подростками с учетом их индивидуальных и психологических особенностей. Для решения этой проблемы психологи и учителя обращаются к результатам применения достижений современной психологии в школьной жизни.

**Ключевая слова:** «трудные» дети, несовершеннолетние, семья, школа, мораль, воспитание, психокоррекция, психопрофилактика

## ABSTRACT

## CHARACTERISTIC OF DIFFICULT CHILDREN IN ADOLESCENT, CONTENT AND DIRECTION OF PREVENTIVE WORK WITH THEM

Psychoprophylaxis and psychocorrection should be used systematically to work with difficult children and to address their shortcomings. It is primarily aimed at the timely diagnosis of children with personality disorders and social deformities. At the same time, special attention should be paid to identifying the causes of difficulties in adolescents. On the basis of all this, the system of work with adolescents should be determined, taking into account their individual and psychological characteristics. To overcome this situation, psychologists and teachers should refer to the results of the application of the achievements of modern psychology in school life.

**Keywords:** “difficult” children, teenager, family, school, morality, upbringing, psychocorrection, psychoprophylaxis

Müasir elmi-tədqiqat ədəbiyyatlarının təhlilinə əsaslanaraq “çətin uşaqlar” anlayışının məzmununu təşkil edən üç mühüm əlaməti göstərmək olar. Birincisi, uşaq və ya yeniyetmədə normadan kənar davranışın mövcud olması. İkincisi, “çətin” məktəblilər qrupuna davranış qüsurları çətinliklə islah olunan uşaq və yeniyetmələrin daxil edilməsi. Bununla əlaqədar, “çətin uşaqlar” və “pedaqoji nöqteyi-nəzərdən baxımsız qalmış uşaqlar” terminlərini ayırmaq lazımdır. Əlbəttə, bütün çətin uşaqlar pedaqoji nöqteyi-nəzərdən baxımsız qalmış uşaqlardı. Lakin pedaqoji nöqteyi-nəzərdən baxımsız qalmış uşaqların hamısı heç də çətin uşaqlar deyil. Onlardan bəziləri nisbətən asanlıqla yenidən tərbiyə oluna bilər. Üçüncüsü, “çətin uşaqlar” fərdi yanaşmaya, valideyn və müəllim diqqətinə, bütövlükdə ətrafdakıların xüsusi qayğısına ehtiyacı olan uşaqlardır. Onlar bütövlükdə pis, islaholunmaz uşaqlar deyil, onlar sadəcə ətrafdakıların

xüsusi diqqətinə və şəfqətinə ehtiyacı olan uşaqlardır (11, s.140).

M.A.Alemaskin yeniyetmələrin aparıcı fəaliyyətinin xarakteri, onların inkişaf səviyyəsi və mənfi xüsusiyyətlərinin təzahürlərini, habelə onlara tətbiq olunan tipik tərbiyəvi təsir metodlarını nəzərə alaraq, yetkinlik yaşına çatmayan şagirdlərdə normadan kənara çıxan davranışın strukturunu hazırlamışdı. Həmin strukturda, "pedaqoji baxımdan pozğun", "qanunu pozan" və "yetkinlik yaşına çatmamış cinayətkarlar"dan fərqli olaraq, "islaholunmaz uşaqlar" bir-biri ilə bağlı iki meyar əsasında müəyyən edilir: nizam-intizamın periodik şəkildə pozulması və onların davranışının ailə və sinif kollektivi tərəfindən düzəlişinin prinsipial mümkünlüyü (7, s.87).

Bir sıra psixoloji tədqiqatlara əsaslanaraq qeyd edə bilərik ki, qanunpozan çətin uşaqlarda əsasən aşağıdakı ümumi cəhətlər daha çox nəzərə çarpır.

1. Bu uşaqların həm ümumi, həm də idrak maraqları aşağı səviyyə olması;
2. Onların şəxsiyyətinin təşəkkülünə, həyat ideallarının formalaşmasına təcrübəli yaşlı cinayətkarların böyük təsiri;
3. Çətin uşaqların şəxsi keyfiyyətləri içərisində:

a) tənbəllik;
b) iradəsizlik;
c) məsuliyyətsizlik;
d) konformizm - başqalarının təsirinə asanlıqla qapılma və ya təqlidə meyil;
e) aqressivlik və s. kimi mənfi xüsusiyyətlər üstünlük təşkil etməsi.

V.İ.Abramenko və A.İ.Seletski bir sıra "işlək" pedaqoji və patopsixoloji terminlərdən istifadə edərək islaholunmazlığın obyektiv şəkildə müşahidə olunan təzahürlərinin özünəməxsus tipologiyasını təqdim edirlər (6, s.42):

1) qeyri-mütəşəkkil yeniyetmələr qrupu – "coşğun" və "coşğun-ehtiyatlı" yeniyetmələr;

2) potensial qanun pozan yeniyetmələr qrupu – "geridə qalan", "dəcəl", "ərköyün", "qaraqabaq", "emosional baxımdan qanmaz" yeniyetmələr, "avaralar";

3) psixi baxımdan natamam yeniyetmələr qrupu – "orqanik", "isterik", "tez əsəbiləşən", "affekt baxımdan qeyri-sabit psixopat", "hiperseksual" yeniyetmələr.

Müşahidə və tədqiqatlar göstərir ki, çətin yeniyetmələr cinayətə daha çox meyllidirlər və onların cinayət işləməsinin iki başlıca səbəbi vardır:

1. Yeniyetmənin şəxsi keyfiyyətindən irəli gələn səbəblər;
2. Xarici mühitin mənfi təsiri ilə əlaqədar olan səbəblər.

Çətin yeniyetməyə xas olan əlamətlərin formalaşmasına mənfi ailə şəraiti də qüvvətli təsir göstərir, heç də təsadüfi deyil ki, çətin uşaqların çoxu çətin ailələrdə, yəni tərbiyəsiz, əxlaqsız, cinayətə yol verən ailələrdə böyüyən uşaqlardır. Bu cəhətdən aşağıdakı misal çox səciyyəvidir. Ailə iki nəfərdən: 14 yaşlı

oğuldan və ərindən ayrılmış anadan ibarətdir. Ana restoranda ofisiant işləyir. Bəzən hətta gecələri evdə olmur, oğluna lazımi nəzarəti yetirə bilmir. O, hər gün oğluna 5 manatdan 10 manatadək cib xərcliyi verir. Evdə başsız, nəzarətsiz qalan oğul, verilən puldan özünə yeniyetmə qızlardan bir "köməkçi" və oğlanlardan isə xüsusi "mühafizəçi" tutur. Tez-tez evdə eyş-işrət, spirtli içkilərlə qonaqlıq, şənlik düzəldir. Getdikcə şənlənmələrinin, dostlarının sayı artır, daha çox pul tələb olunur. Oğlan və yoldaşları cinayət yolu ilə külli miqdarda pul əldə etmək fikrinə düşürlər. Beləliklə, tədricən cinayətə qoşulurlar. Deməli, çətin yeniyetmələrin şəxsiyyətinin formalaşmasına ailə şəraiti güclü təsir göstərir. Müşahidələr göstərir ki, əksər hallarda çətin uşaqların ailələrində normal əxlaqi mühit olmur və nəticədə onlara mənfi keyfiyyətlər aşılanır. Belə mühitdə böyüyən uşaqlar eqoist tərbiyə olunur, yalnız öz xeyirlərini güdürlər. Valideynlərdən birinin olmaması, ya da ailə başçılarının pozğun həyat sürməsi, pedaqoji tələblərə riayət etməməsi ailədə böyüyən uşaqların tərbiyəsini pozur. Ailədə tez-tez baş verən münaqişələr, davalar, gərginliklər yeniyetmənin sinir sisteminə böyük təsir göstərir, ləngimə proseslərini zəiflədir ki, bu da tənhalıqda, əsəbilikdə, hövsələsizlikdə, affektiv reaksiyaya meyllilikdə və s. özünü göstərir. Tədqiqatlar göstərir ki, ailə şəraitinin ağır olması zamanı yeniyetmədə 7 mənfi xarakter xüsusiyyətinin (acıqlılıq, narazılıq, düşmənçilik, inamsızlıq, qorxu, tənhalıq, laqeydlik) meydana çıxmasına səbəb olur. Sadalanan psixi halların hər biri mənfi səciyyəli daxili amillərlə (məsələn, iradə və ağıl zəifliyi və s.) birləşərək yeniyetmənin mənəvi neqativ xarici təsirlərin nüfuz etməsi üçün daxili əlverişli şərait yaradır. Amma bir çox hallarda uşaqların tərbiyəsini pozan, onları pis yola təhrik edən, uşaqlarını sevən, ancaq pedaqoji mədəniyyəti aşağı olan valideynlər olurlar. Qeyd etmək lazımdır ki, çətin yeniyetmələrin şəxsiyyətinin formalaşmasına ailə şəraiti də güclü təsir göstərir. Çətin yeniyetmənin təşəkkülündə iştirak edən başqa amillər də vardır. Məsələn, tək uşaqlı ailələrdə tək uşağa ana-atanın həddən artıq qayğısı, sevgisi nəticəsində eqoist və tənbəl, şıltaq böyüdə bilər. Bəzi ailələrdə uşaq fəaliyyətdən tamamilə təcrid edilir. O, necə deyərlər, “pitomnik” (tinglik) şəraitində yaşayır. Əlini ağdan-qaraya vurmur. Hər arzusu yerinə yetirilir və s. Belə şəraitdə yeniyetmə sosial cəhətdən infantil böyüyür, kritik situasiyalarda meydana çıxan çətinliklərlə mübarizədə acizlik göstərir və nəticədə, onun pis yola düşmək ehtimalı artır. Müasir şəraitdə yeniyetmələrin tələbatları sürətlə artır. Lakin bu tələbatları ödəmək imkanı olduqca məhduddur. Yeniyetmənin könlündən çox şey keçir. Ürəyi çox şey istəyir – təzə, yaraşıqlı paltarlar, siqaret, spirtli içkilər, tamaşalar və s. Yeniyetmələrin iştahı böyük, lakin “qabı” boşdur. Belə hallarda yeniyetmə yüngül yolla imkanını artırmaq həvəsinə düşə bilər ki, bu, cinayətin, pozğunluğun başlanğıcıdır. Çünki cinayətkar davranış cinayətkar niyyətdən başlayır. Ona görə yeniyetmənin normal inkişafı üçün onun istəyi ilə imkanı arasında ahəngdar münasibət yaratmağa

çalışmaq lazımdır ki, necə deyərlər, yeniyetmə yorğanına görə ayağını uzatsın, imkanına görə hərəkət etməyi bacarsın.

Çətin yeniyetmələri səciyyələndirən xüsusiyyətlərdən biri də onların dərsə, təlimə mənfi münasibətidir. Başqa uşaqlardan fərqli olaraq, idrak motivi, elm, bilik qazanmaq motivi yoxdur. Onlarda məcburiyyət motivi üstünlük təşkil edir. Buradan da neqavitizm, özünü igid kimi göstərmək, qoçuluq etmək cəhdi meydana çıxır. Çətin yeniyetmələr özlərini məktəbə, kollektivə qarşı qoyurlar və bu zaman onların maraqları qeyri sağlam, məqsədləri cəmiyyət üçün təhlükəlidir.

Bir cox hallarda yeniyetmənin bədrəftar, yola getməz, münaqişəli olmasının səbəbi onun özünü adekvat, yəni düzgün qiymətləndirə bilməməsidir. Yeniyetmə özünə tənqidi yanaşa bilmədikdə və ya əksinə, özünü çox aşağı qiymətləndirdikdə normal inkişaf edə bilmir, yeniyetmələrin çoxunun səviyyəsi imkanlarından çox yüksək olur. Ona görə yeniyetmə real həyata atıldıqda uğursuzluğa məruz qalır, məqsədinə çata bilmir. Bu da onda narazılıq hissi (frustrasiya halı) yaradır. Çətin yeniyetmələrin çoxunun tələbat və emosional sahəsində (məsələn, nevroz, nevrotik qüsurlar) sinir sistemində, xarakterində üzvi mənşəli pozğunluqlar vardır. Bu səbəbdən həmin yeniyetmələrdə təlqinə böyük meyl müşahidə olunur. Tələbat sahəsində olan qüsurlar daha xoşagəlməz şəkildə (qəddarlıqda, içkiyə meyldə və s.) təzahür edir. Bəzi hallarda ayrı-ayrı uşaqlarda cəmiyyətə zidd davranış formaları sinir sisteminin üzvi qüsurlarından da irəli gəlir. Bu qüsurlar özünü uşağın kəmağıllığında, ona xas olan psixopatik əlamətlərdə büruzə verir. Sinir sistemi qüsurlu olan belə uşaqlar tez təsir altına düşürlər, ağılın zəifliyindən düşdükləri mürəkkəb şəraiti və ya məqsədlərinə nail olmaq üçün seçdikləri vasitələri düzgün qiymətləndirmədikdə öz hərəkətlərinə kifayət dərəcədə tənqidi münasibət bəsləyə, başqasının və özünün hərəkətinin mənasını dərindən dərk edə, hadisələrin gözlə görünməyən, bilavasitə əks olunmayan əlaqə və münasibətlərini başa düşə bilmirlər.

Yuxarıda qeyd etdiyimiz kimi yeniyetmələrin inkişafında, təlim - tərbiyəsində ailənin (valideynlərin) və məktəbin (müəllimlərin) rolu böyükdür. Ancaq bir sıra hallarda onlar özləri də bilmədən yeniyetmələrdə psixoloji problemlərin yaranmasına səbəb olurlar. Ona görə də yeniyetmələrin birinci növbədə yaşadıqları, təhsil aldıqları mikromühitin psixoloji təzyiqlərindən qorunmalarına ehtiyac yaranır. Əks halda, onlar bu mühitdən qaçmağa, onunla əlaqələrini məhdudlaşdırmağa, bəzən də ona qarşı çıxaraq hüquqazidd davranışa meylli olurlar. Məhz bu səbəbdəndir ki, statistikaya görə, 14-17 yaşlılar arasında cinayətkarlığın səviyyəsi digər yaş dövrləri ilə müqayisədə daha yüksəkdir. Ona görə də dünyanın inkişaf etmiş ölkələrində uşaq hüquqlarının qorunması, sosial təminatının ödənilməsi ilə yanaşı, onların psixoloji müdafiəsi sahəsində də təsirli tədbirlər həyata keçirilir. Psixoprofilaktikanın məzmunu da həmin tədbirlərlə

müəyyənləşir. Bütün bunlar yeniyetmələrin cəmiyyətin fiziki və mənəvi cəhətdən sağlam üzvü kimi formalaşmalarına xidmət edir.

Çətin uşaqlarla iş aparmaq və onlarda özünü göstərən qüsurları aradan qaldırmaq üçün psixoprofilaktika və psixokorreksiya vasitələrindən sistemli şəkildə istifadə etmək lazım gəlir. Bu sahədə psixoloqların üzərinə xüsusi iş düşür. Burada birinci növbədə, diqqətə xas olan, şəxsiyyəti sosial cəhətdən deformasiyaya uğrayan uşaqların vaxtında diaqnostikasını verməyə yönəldilmişdir. Bu zaman yeniyetmələrdə yaranan çətinlikləri yaradan səbəblərinin aşkara çıxarılmasına da xüsusi diqqət yetirilməlidir. Bütün bunların əsasında yeniyetmələrin fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almaqla onunla aparılacaq iş sistemi müəyyənləşdirilməlidir. Bu cür vəziyyətdən çıxmaq üçün psixoloq və müəllimlər müasir psixologiyanin nailiyyətlərinin məktəb həyatına tətbiqi nəticələrinə istinadən etməlidirlər.

Yeniyetmələrin diaqnostikasında şəxsiyyəti səciyyələndirən əlamətlərin yoxlanılması vacib məsələlərdən biridir. Bura daxildir:

- Psixi tarazlığın pozulması;
- Psixotizm;
- Nevrotizm;
- Depressiya;
- Ümumi aktivlik;
- Vicdanlılıq;
- Asosiallıq;
- Ünsiyyətcillik;
- İntroversiya;
- Senzitivlik;
- Estetik, hissiyyatlılıq;
- Cəsarətsizlik, utancaqlıq, passivlik

Şagirdlərin davranışında və şəxsiyyətinin inkişafında özünü gostərə bilən qüsurların qarşısını almaq və onları aradan qaldırmaq sahəsindəki işin aşağıdakı istiqamətlərini müəyyənləşdirmək mümkündür:

- ✓ Məktəbə yeni daxil olan şagirdlə, onun valideynləri ilə, uşağa aid bütün sənədlərlə tanış olmaq və bu zaman həmin şagirdin tərbiyəsindəki nöqsanları aşkara çıxarmağa çalısmaq.
- ✓ Çətin şagirdin kollektivə alışmasına köməklik göstərmək, sinif rəhbəri ilə birlikdə şagirdin davranışında mövcud olan qüsurları aradan qaldırmağın planını hazırlamaq.
- ✓ Davranışında və şəxsiyyətinin inkişafında qüsurları olan şagirdləri dərindən öyrənmək, bu zaman peşə etikası normalarına əməl etmək, imkan daxilində şagirdin yoxlanılmasının həqiqi məqsədini bildirməmək.

Lazım gələrsə psixoloq həmin şagirdin əqli səviyyəsini müəyyənləşdirmək üçün müvafiq mütəxəssislərlə (məsələn, psixiatr, həkim və b.) əlaqə saxlamalıdır. Əgər uşağın inkişafında qüsurlar, psixi normalara uyğun gəlməmək halları müəyyənləşdirilərsə, məktəb psixoloqu ona fərdi yanaşmaqla əlaqədar müəllimlərə və valideynlərə məsləhət verə bilər.

Çətin tərbiyə olunan yeniyetmələrlə psixoloqun işi onun əsas vəzifələrindən birini təşkil edir. Ona gorə də burada psixoloqun və başqa müəllimlərin aparacaqları işlərin xarakteri qabaqcadan müəyyənləşdirilməli və bununla müvafiq iş aparılmalıdır.

Qeyd edək ki, əksər tədqiqatçıların fikrincə, yeniyetmələrlə aparılan psixoloji iş paralel şəkildə üç istiqamətdə aparılmalıdır:

– özünə, öz davranışına, ətrafdakılara münasibətə dair şəxsi mövqenin axtarılması və hazırlanması;

– dəyərlərin qiymətləndirilməsi, bihuşedici maddələrin istifadəsindən təhsil, iş, digər sosial pozitiv yönəliş və tələblərə keçmənin bütün mümkün üsulların, fəaliyyət göstərən adekvat mövqenin axtarışı;

– korreksiya zamanı konstruktiv şəxsi keyfiyyətlərin – iş qabiliyyəti, adekvat özünüqiymətləndirmə, stresslərə psixoloji davamlılığın formalaşması və möhkəmlənməsi aparılır (6, s.284).

Çətin tərbiyə olunan yeniyetmələrlə psixokorreksiya işi 2 istiqamətdə aparılır. Birinci istiqamət fərdi və qrup terapiyası vasitəsilə həyata keçirilir. Psixokorreksiyanın ikinci istiqaməti pedaqoji prosesə müdaxilə etməklə həyata keçirilir.

**Ədəbiyyat:**

1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası, Bakı, 2012
2. Bayramov Ə.S., Əliyev B.H. Sosial psixologiyası, Bakı, 2003
3. Əliyev B.H., Əliyeva K., Cabbarov R.V. Hüquq psixologiyası, Bakı, 2012
4. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı, Hüquq ədəbiyyatı, 2002
5. Şəfiyeva E.İ. Anomal inkişafın psixologiyası. Bakı, ADPU, 2012
6. Абраменко В.И., Селецкий А.И. Психолого-физиологическая типология трудных школьников и несовершеннолетних правонарушителей. – М.: Изд-во Всесоюз. ин-та по изуч. причин и разраб. мер предупреждения преступности. – 1973.
7. Алемаскин М.А., Потанин Г.М., Науч. ред.: Анисов М.И.Методика предупреждения отклоняющегося поведения несовершеннолетних. Учебное пособие. – М.: Изд-во МОПИ им. Н.К. Крупской, 1987.

8. Кондрашенко В.Т. Девиантное поведение у подростков (социально-психологический и психиатрический аспект), Беларусь, 1988
9. Личко Е.А. Подростковая психиатрия. М., 1985.
10. Личко А.Е. Психопатология и акцентуации характера у подростков, М., "Медицина", 1983
11. Мысли, идеи, принципы А.С.Макаренко в современном образовании. Сборник докладов республиканских Макаренковских педагогических чтений (Абакан, 21 декабря 2007 года) /Ред.-составитель В.В. Лушников. – Абакан: редакционно-издательский отдел ГОУ ДПО ХРИПК и ПРО «РОСА», 2007.
12. Психология подросткового и юношеского возраста. 12-е изд. Спб: Питер, 2011
7. Akamutsu T. I. The structure of Loneliness Factor-Anal it i o Investigation. Cognitive Therapy & Reseach, 2001, Vol 13, Iss. 5, 459-454.
8. Flanders J. P. A general Systems approach to loneliness. -In: Loneliness. A sourcebook of Current Theory, Reseach & Therapy. A Wiley-Intersience Publication, 2003,166-179.
9. https://www.olkem.info/?p=5755
10. www.paralel.az/az/article/80361
11. http://www.e-qanun.az/framework/15641

**UOT 159.9**

# AUTİZMİN ERKƏN ƏLAMƏTLƏRİNIN TƏDQİQİ (ƏDƏBİYYAT İCMALI)

**Ahmet ATİK**

*Qərbi Kaspi Universiteti*
*ahmetatik53@gmail.com*

## XÜLASƏ

Autizm, ünsiyyət, sosial qarşılıqlı təsir və davranış sahələrinə təsir edən psixoloji inkişafın pozulmasıdır. Autizmin erkən diaqnozunun qoyulmasına maraq həm bu mövzuda çalışan mütəxəssislərin, həm də ailələrin məlumatlılığı ilə sıx əlaqəlidir. Təqdim olunan məqalədə autizmdə erkən simptomlar və diaqnoz, erkən diaqnoz vasitələrini nəzərdən keçirmək və erkən diaqnozun əhəmiyyəti barədə ədəbiyyat icmalı təqdim olunub.

**Açar sözlər**: autizm, erkən simptomlar, psixi inkişafın ləngiməsi, diaqnostika çətinliyi, fizioloji yaş dövrləri.

## РЕЗЮМЕ

## ИЗУЧЕНИЕ РАННИХ СИМПТОМОВ АУТИЗМА (ОБЗОР ЛИТЕРАТУРЫ)

Аутизм - это расстройство психологического развития, которое затрагивает области общения, социального взаимодействия и поведения. Интерес к ранней диагностике аутизма тесно связан с осведомленностью как профессионалов, так и семей. В статье представлен обзор литературы о ранних симптомах и диагностике аутизма, обзор важности ранней диагностики.

**Ключевые слова:** аутизм, ранние симптомы, умственная отсталость, сложность диагностики, физиологический возраст.

## ABSTRACT

## STUDY OF EARLY SYMPTOMS OF AUTISM (LITERATURE REVIEW)

Autism is a disorder of psychological development that affects the areas of communication, social interaction and behavior. The interest in early diagnosis of autism is closely linked to the awareness of both professionals and families. The article presents a literature review on early symptoms and diagnosis of autism, review of early diagnosis tools, and the importance of early diagnosis.


**Keywords**: autism, early symptoms, mental retardation, difficulty in diagnosis, physiological age.

Autizm — erkən yaşlardan başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran beynin inkişafına maneə yaradan xəstəlikdir. Autizm hallarının sayı 1980-ci illərdən bəri olduqca çox nisbətdə artmışdır. Bunun səbəbi qismən diaqnoz qoyma üsullarındakı dəyişikliklərdir. Erkən diaqnozun nə kimi əhəmiyyəti var? Məqalədə ədəbiyyat mənbələrindən istifadə edərək bu sualı cavablandırmağa çalışdıq.

Müalicənin erkən başlanması ilə uşağın mövcud qabiliyyətindən daha yaxşı istifadə edilə bilər və bu uşaqlar normal təhsil müəssisələrinə daha yaxşı uyğunlaşırlar; əksinə, gecikmiş müalicəsi edilən xəstələrin bu baxımdan əhəmiyyətli çətinliklərlə qarşılaşdıqları bildirilir (10). Autizmli uşaqlara göstərilən xüsusi təhsil, davranış müalicəsi, digər müalicə və reabilitasiya xidmətləri qiymətləndirilməlidir. Davranışa erkən müdaxilənin faydalı olduğunu göstərən elmi tədqiqat işləri çoxdur (17). Ailələrin təhsili, həssaslığı və paylaşma səviyyələri fərqli olsa da, əldə edilən bütün məlumatların ortaq komponenti erkən inkişaf dövrlərindəki normadan fərqlənən hallardır və həyatın ilk aylarından etibarən ortaya çıxması qeyd olunur. Retrospektiv mənbələrdən alınan məlumatların sistematik təhlili autizmin ilk davranış əlamətlərinin nə olduğu barədə vacib məlumatları ortaya qoydu. Bu simptomlar kliniki diaqnozun təyin edilməsində də istifadə olunur (13) və autizm monitorinqində istifadə olunan vasitələrin inkişafına rəhbərlik edirlər (14, 22). Ümumiyyətlə, körpənin inkişafı üçün video müşahidələr sistemi çox mühüm əhəmiyyət kəsb edir və müşahidəçinin peşəkarlıq səviyyəsi bu görüntüləri qiymətləndirməyə imkan verir. Bu səbəbdən sağlam uşaqları izləyən pediatrlar və ilkin tibbi yardım həkimləri inkişaf geriləmələrini təyin edən ilk həkimlərdir. Filipek və digərləri (13) ilkin tibbi müayinəyə gələn uşaqların 25%-nin psixi inkişafında gecikmə olduğunu və müayinə-

lərin 30%-nin standart inkişafı təyin edən şkala ilə qiymətləndirildiyini bildirmişdir. Bu baxımdan inkişaf skrininq testlərinin ildə ən azı bir dəfə yalnız nevroloji və ya psixoloji problemləri olan riskli körpələrə deyil, həm də sağlam doğulan körpələrə tətbiq edilməsi çox vacibdir.

Araşdırmalar göstərir ki, inkişaf testləri 6-cı aydan əvvəl, xüsusilə də erkən doğulmuş körpələrdə kifayət qədər məlumat vermir (8, 9). Buna görə, 6-cı aydan etibarən körpələrin inkişaf testləri ilə mütəmadi olaraq izlənməsi vacibdir (11, 13). Uşaq psixiatrlarının inkişaf testlərini tətbiq etmə təcrübələrini də artırmaları lazımdır. Autizm diaqnozu qoyulan uşaqların inkişaf testlərinə əlavə edilən regresiya analizi kimi inkişaf etmiş statistik metodlar, inkişaf gecikməsinin hansı ay və hansı inkişaf mərhələsində olduğunu aşkar etmək mühüm əhəmiyyət daşıyır. Amerikan Pediatriya Dərnəyi (1), bu testlərə əsaslanan 12 aylıq uşaqlarda jestlər və nitqin olmamasını, 16 aylıq uşaqlarda - nitq çatışmazlığını, 24 aylıq uşaqlarda ekolaliya xaricində, ən azı iki sözlü cümlənin qurula bilməməsini və bu səbəbdən istənilən vaxt nitq və ya sosial bacarıqların itirilməsini risk faktoru olaraq qəbul etdi.

İlk olaraq uşağın psixi inkişaf səviyyəsi və fizioloji yaşa uyğun inkişaf mərhələləri müəyyənləşdirilməlidir. İnkişaf mərhələsindəki inkişaf addımları və zehni geriləmənin təyin edilməsi, erkən diaqnozda əldə ediləcək meyarların müəyyənləşdirilməsində vacib məlumatları təmin edir (9). Psixi inkişafın qiymətləndirilməsində tətbiq olunan testlərdə aparılacaq bir regresiya təhlili, autizmi ən yaxşı qiymətləndirən test tapşırıqlarını təyin etməyə imkan verəcəkdir.

Beləliklə, psixoloji inkişaf və ya zəka testlərinin digər bir əhəmiyyəti, bunların autizmin funksionallığını təyin etməyə imkan verməsidir. Aşağı və yüksək səviyyəli autizm anlayışları altındakı simptomların aydınlaşdırılması fərqli perspektivlər təmin edir. Erkən simptomlar siyahısından olan əlamətlər dəqiqləşdirilməli, mütəmadi olaraq psixoloji yoxlama tətbiq olunmalı, klassik və müasir tədqiqatlarla əsaslandırılmasalıdır (16). Ədəbiyyat mənbələrinə əsaslanaraq, autizmin ilk xəbərdarlıq və erkən simptomları aşağıdakılardır:

- Sosial qarşılıqlı əlaqə və ünsiyyətdəki çatışmazlıqlar, davranış, maraq və fəaliyyətdəki məhdudiyyətlər, stereotip və təkrarlanan hərəkətlər,
- 3 yaşından əvvəl sosial qarşılıqlı əlaqələrdən, ünsiyyətdə istifadə olunan nitqdən və ya simvolik-xəyali oyun bacarıqlarından heç olmasa birində gecikmə və ya qeyri-adi funksionallıq,
- Müxtəlif narahatlıqlar, həyəcanın artma səviyyəsi ilə xəstəlik özünü göstərir (1).

Autizmin erkən diaqnoz qoyulması və erkən müdaxilə edilə bilməsi üçün doğuşdan dərhal sonra 12-18 ay arasında meydana gələn simptomları nəzərə almaq vacibdir. Çünki 24 aydan əvvəl uşaqlarda autizm diaqnozu qoymaq çox

çətindir. Bu simptomlar qısa müddətli müayinə zamanı valideynlər, tibb bacıları, həkimlər və digər sağlamlıq işçiləri tərəfindən fərqləndirilə bilər (7). Valideynlər və həkimlər hər uşağın fərqli olduğunu və hər uşağın inkişaf nisbətinin eyni olmadığını bilməlidir. Valideynlər, əgər hiss etsələr ki, uşaqda normal inkişaf mərhələlərində gecikmə var və o həmyaşıdlarından daha ləng inkişaf edir, mütləq pediatra və müraciət etməlidir və uşaqlarında olan narahatlıqlarını aydınlaşdırmalıdır.

Autizm diaqnozu qoyulan uşaqlarda görülən erkən simptomlar aşağıdakılardır:

- 6-cı aydan başlayaraq ətrafdakılara gülümsəməmək;
- 9-cu aydan başlayaraq səslərə, gülümsəmələrə və mimikalara reaksiya verməmək;
- 12-ci aydan etibarən gülümsəyə bilməmək, bir şeyə və ya bir insana işarə etməmək, sadə qarşılama və sağollaşma kimi jestlər etməmək;
- 16-cı aydan bircə kəlmə də deyə bilməmək;
- 24-cü aydan başlayaraq sadə iki sözlü cümlələrin qurulmaması, aydan asılı olmayaraq inkişafda geriləməni göstərmək; məsələn əvvəl söylədiyi bəzi sözləri söyləməyi və ya etdiyi hərəkətləri etməyi dayandırmaq (23).

Başqa bir mənbəyə görə (21), erkən simptomlara aiddir:

- Sosial əlaqələrin pozulması
- Düzgün göz təması qura bilməmək;
- İsti və şən ifadələrin olmaması;
- Maraq çatışmazlığı və ya zövq mübadiləsinin olmaması;
- Uşağın adını çağıranda, reaksiya verməməsi.
- Ünsiyyətdə narahatlıq;
- Jestlərin olmaması;
- Sözsüz ünsiyyət koordinasiyasının olmaması;
- Qeyri-adi ölçü (səs səviyyəsindəki dəyişiklik, qəribə intonasiya, nizamsız ritm, qeyri-adi səs keyfiyyəti);
- Təkrarlanan davranışlar və məhdud maraqların olması;
- Eyni oyuncaqlarla təkrarlanan hərəkətlər;
- Bədənin duruşu və ya silah, əl və ya barmaqlarla təkrarlanan hərəkətlərin edilməsi və s.

Sağlamlıq və maarifləndirmə zamanı, ailələr uşaqlarında bu və ya daha çox simptom gördükdə, uşaqlarının istənilən səhiyyə müəssisəsində psixoloji vəziyyətinin qiymətləndirilməsi üçün həkimə dərhal müraciət edilməli olduğu məlumatlar verilir (21).

Autizm Tədqiqat Proqramında (12), uşaqlarda tez-tez görülən erkən simptomlar ailələrə izah edilir; normal inkişafı olan uşaqların, autizmli uşaqlar ilə eyni yaşda olması mümkündür, ancaq psixoloji inkişafda fərqlər var. Belə ki, valideynlər uşaqlarında qeyd olunan ilk əlamətləri görsələr, təcili həkimə müraciət etmələri tövsiyə olunur. Autizm Tədqiqat Proqramında müəyyən edilən erkən simptomlar oxşar və təfərrüatlı şəkildə aşağıdakı kimi verilmişdir:

- İnsanlarla ünsiyyətdə çətinliklər:
- Ətrafdakı insanlara; ailə üzvlərinə və ya hətta dayələrinə heç bir diqqət göstərməmək.
- Adını deyən şəxsə reaksiya verməmək və səs gələn tərəfə baxmamaq.
- Üz ifadələrini və tonlarını anlamamaq.
- Başqalarının emosiyalarını, emosional hərəkətlərin ətrafdakı insanları necə təsirləndirdiyini anlamamaq.
- Üç yaşına qədər digər uşaqlarla oyun oynamağa az maraq göstərmək.
- Danışıq və ünsiyyətdəki çətinliklər.
- Həyatın ilk ilinə qədər heç bir səs və ya söz deməmək.
- 16 aylığına qədər bir kəlmə deyə bilməmək və ya hər yaşda əldə edilmiş sözləri və dil bacarıqlarını itirmək.
- "Sağ ol" jestini etmək və ya bir şeyi göstərmək üçün ümumi jestlərdən istifadə edə bilməmək
- Eyni şeyləri davamlı təkrar etmək:
- Bir oyuncağı və ya ipi saatlarla irəliyə və geriyə aparmaq, dairəvi hərəkətlər etmək.
- Başını dişləmək və ya vurmaq kimi özünə zərər verən davranış nümayiş etdirmək.
- Səslərə və ya toxunuşa mənfi reaksiya vermək.
- Başqaları kimi ağrı hiss etdiyi zaman heç bir reaksiya göstərməmək.
- Əldən və ya qoldan tutmağı və ya qucaqlaşmağı xoşlamamaq.
- Səs-küydən narahat olmaq

Autizm olan körpələrdə görülən bu simptomlardan əlavə, hərəki bacarıqların təkrar edilməməsi, sosial gülümsəmənin olmaması, uzun müddətli diqqətli baxışın və gözlə izləmənin olmaması, ümumi diqqət çatışmamazlığı, diqqətin ətrafdakı bir obyektə fiksasiya etmə qabiliyyətinin olmaması (Korkmaz, 2010), 12-ci aydan başlayaraq mənasız səslər çıxarmaq, üz ifadəsində etinasızlıq, emosiyanın olmaması təəssüratı yaradan davranışlar və qatı qidalardan imtina etmək kimi erkən simptomlar da müşahidə olunur (2;19). Autizm spektri pozğunluğunun körpənin bətndaxili dövrdən başladığı qəbul olunsa da, bətndaxilində diaqnoz qoyulması mümkün deyil. Ancaq doğuşdan sonrakı ilk iki ildə, hətta 2,5-3

yaşlarında sosial və sözsüz ünsiyyət bacarıqlarının geriliyi səbəbindən dəqiq diaqnoz qoyulması mümkün ola bilər. Buna görə, ilk simptomları olan körpələrdə doğuşdan sonra 18 və 24 ayda iki yoxlama testi keçirmək çox vacibdir (20).

Adətən doğuşdan sonra körpə çox sağlam görünür. Bununla yanaşı, uşağı həyatının ikinci ili (18), ağlamaq, gülümsəmək, göz təması qurmaq, üz ifadələrini təqlid etmək kimi sosial davranışlar və sosial qarşılıqlı təsir xüsusiyyətlərinin inkişaf etdiyi dövrdür. Psixi ləngiməsəbəbindən körpədə autizm spektri pozğunluğunun ilk əlamətləri görünməyə başlayır. Autizm olan körpələr tez-tez sosial bacarıqlardan geri qalır və dil inkişafı və sosial qarşılıqlı əlaqədə həyati əhəmiyyət kəsb edən və addım-addım olması lazım olan sosial dəyişikliklər edə bilmirlər (2).

Araşdırmalar autism spektrum pozğunluğuna xas olan bəzi göstəricilərin 30 ay əvvəl başladığı fikrini dəstəkləyir. Körpənin sakit olması, çox nadir hallarda ağlaması, uzun müddət göz təması qura bilməməsi, gec danışması və davranışların normadan kəskin fərqlənməsi diqqəti cəlb edən ilk simptomlardır (6;15; 18). Tədqiqatın nəticələri göstərir ki, valideynlər uşağın 18-ci ayından sonrakı inkişaf mərhələsindəki psixi pozulmaları hiss edirlər və ümumiyyətlə ən yaxşı halda iki yaşlarında tibbi yardım almaq üçün müraciət edirlər.

Erkən diaqnozun əsas çətinliklərindən biri, körpəylə ilk dəfə autizm spektrum pozuntusu ilə qarşılaşan səhiyyə işçilərinin qeyri-kafi məlumat və diaqnoz imkanlarıdır. Bundan əlavə, diaqnostik kriteriyaların kliniki xüsusiyyəti və yaxşı qurulmuş diaqnostik vasitələrin olmaması, xəstələrin səhv diaqnozu, ailə-məişət şərtləri və yanaşmaları (4), milli-mentalitet qaydaları, sağlamlıq haqqında maarifləndirmənin zəif olması, sosial uyğunsuzluq, uşağa qulluq, valideynlərin təhsil səviyyəsi və sağlamlıqda yaranan dəyişikliklər barədə məlumatsızlıq (2), erkən dövrdə uşaq psixiatriya klinikalarına girişdə sosial, mədəni və iqtisadi çətinliklər (3) və s.

Uşaqlarda inkişaf pozğunluqlarının erkən diaqnozu və müalicəsinin qeyri-adekvatlığının bəzi səbəbləri ondan ibarətdir ki, əksər təhsil sistemlərində tərbiyə ilə bağlı hər hansı bir təhsil mərhələsi yoxdur. Qiymətləndirmə prosesi zamanı ailələrə diaqnozla bağlı suallar verildikdə, ailələr uşaqlarında autizm spektri pozğunluğunun ilk simptomlarını dilə gətirdi. Bu simptomların əksəriyyəti autizm olan uşaqların valideynlərinin hekayələrindən və video görüntülərindən əldə edilir (19; 24).

Autizmin erkən diaqnostikası üçün uşaq poliklinikaları ilə valideynlər-ailələr arasında sıx əlaqə olmalıdır. Bunun ilk səbəbi uşağın həyatının ilk illərində diaqnoz qoymağa kömək edən simptomlar barədə valideynləri məlumatlandırmaq vacibdir. Bu gün autizm olan uşaqların erkən diaqnozu, diaqnozdan dərhal sonra tibbi yardım, xüsusi təhsilə başlanması, həyatının ilk illərində

uşaqlara intensiv davranış təhsili verilməsi və daimi tibbi nəzarət onların psixi inkişaflarına müsbət təsir göstərir. Ailələr övladlarının xüsusi vəziyyətinə uyğunlaşmalı, uşağa göstərilən dəstək və təhsildə qarşılaşdıqları çətinliklərin öhdəsindən daha asanlıqla gəlməyi öyrənməlidirlər (2;5;12; 24).

**Ədəbiyyat:**

1. Amerikan Psikiyatri Birliği: Psikiyatride hastalıkların tanımlanması ve sınıflandırılması elkitabı, yeniden gözden geçirilmiş. Dördüncü Baskı, (DSM-IV-TR), Washington DC: Amerikan Psikiyatri Birliği, 2000'den Hekimler Yayın Birliği, Ankara 2001.
2. Bodur Ş., Soysal A. Ş. Otizmin erken tanısı ve önemi. Sürekli Tıp Eğitimi Dergisi (Sted) 13, s.394-398, 2004.
3. Güneş S., Ekinci Ö., Yıldırım V., Toros F. 14 yaşında otizm tanısı: Çocuk psikiyatrisine ulaşım zorluğuna ilişkin bir olgu örneği. 23. Ulusal Çocuk ve Ergen Ruh Sağlığı ve Hastalıkları Kongresi'nde sunulan bildiri, Edirne, 2013.
4. İşeri E., Şenol S. Otistik bozukluğun erken belirtileri ve tanısı. Çocuk ve Gençlik Ruh Sağlığı Dergisi, 13, s.130-136, 2006.
5. Korkmaz B. Otizm: Başlıca davranış sorunları ve pratik yaklaşım. Yeni Symposium, №39, s.26-34, 2001.
6. Korkmaz B. Otizm: Klinik ve nörobiyolojik özellikleri, erken tanı, tedavi ve bazı güncel gelişmeler. (Çağrılı yazar), Türk Pediatri Arşivi Dergisi, №80, c.45, s. 37-44, 2010.
7. Sayan A., Durat G. Risk tanılaması yoluyla otizmin erken teşhisi: Hemşirenin rolü. Atatürk Üniversitesi Hemşirelik Yüksekokulu Dergisi, №10, p.105-113, 2007.
8. Soysal A.Ş. Erken doğan bebeklerle normal doğan bebeklerin psikomotor ve duygusal gelişimlerinin karşılaştırılmasına ilişkin bir çalışma. Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayınlanmamış Yüksek Lisans, 2000, Ankara.
9. Soysal A.Ş., Ergenekon E. Öktem F. ve ark. Doğum türü değişkeninin bağlanma örüntüsü üzerindeki etkilerinin incelenmesi. Klinik Psikiyatri Dergisi №3, s. 75-85, 1999.
10. Ünal F., Pehlivantürk B. Otizmde erken belirtiler. Çocuk Sağlığı ve Hastalıkları Dergisi, №47, səh. 69-75, 2004.

11. American Academy of Pediatrics (AAP). The pediatrician's role in the diagnosis and management of autistic spectrum disorder in children. Pediatrics №107, p. 1221-1126, 2001.
12. Autism Research Program, Autism parent handbook: Answers to common questions. Kaiser Permanente Division of Research Diagnostic and statistical manual of mental disorders. Fourth Edition, 2010.
13. Filipek P.A., Accardo P.J., Ashwal A. at all. Practice parameter: screening and diagnosis of autism: report of the Quality Standarts Subcommitee of the American Academy of Neurology and the Child Neurology Society. Neurology №55, p. 468-479, 2000.
14. Hall L. J. Autism spectrum disoders from theory to practice. Upper Saddle River, New Jersey: Pearson Education, Inc., 2009.
15. Heflin L. J., Alaimo, D. F. Students with autism spectrum disorders: Effective instructional practices. Upper Saddle River, New Jersey: Pearson Education, Inc., 2007.
16. Lord C., Rutter M. Le Couteur. A Autism diagnostic interview-revised: A revised version of a diagnostic interview for caregivers of individuals with possible pervasive developmental disorders. J.Autism Dev. Disord №24, p. 659-685,1994.
17. Lovaas O.I. Behavioral treatment and normal educational and intellectual functioning in young autistic children. J.Consult Clin.Psychol., №55, səh. 47-63,1987.
18. Macari S. L., Campbell D., Gengoux G. W., Saulnier C. A., Klin A. J., Chawarska K. Predicting developmental status from 12 to 24 months in ınfants at risk for autism spectrum disorder: A preliminary report. Journal of Autism and Developmental Disorders, DOI 10.1007/s10803-012-1521-0. Springer Science+Business Media, LLC, 2012.
19. Massie H. The prodromal phase of autism and outcome of early treatment. S. Acquarone (Ed.). Signs of autism in infants: Recognition and early intervention. p. 3-17, 2007. London: Karnac Books.
20. Ozonoff S., Heung K., Byrd R., Hansen R., Hertz-Picciotto I. The Onset of Autism: Patterns of Symptom Emergence in the First Years of Life, Autism Research №1, p.320-328, 2008.
21. Parent’s A. Handbook: Your Guide to Autism Programs. British Columbia, 2013.
22. Text Revision, American Psychiatric Association, Washington DC: APA. 2000.

23. http://www.autismspeaks.org/about-us/annual-reports/2005-highlights Erişim Tarihi: 28 Temmuz 2014. http://www.autismspeaks.org/what-autism/prevalence. Erişim Tarihi: 28 Temmuz 2014.
24. www. Tohumotizmportali.org

**UOT 159.9**

# TƏHSİLƏ YENİ BAXIŞ: DİSTANT TƏHSİL PROSESİNDƏ TƏLƏBƏ-MÜƏLLİM MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ PROBLEMLƏRİ

**Afərin Əli qızı ABBASOVA**

*Qərbi Kaspi Universiteti*
*a.aferin@yahoo.com*

## XÜLASƏ

Məqalədə müəllif distant təhsil prosesində tələbə-müəllim münasibətlərinin psixoloji problemlərinə toxunaraq, onun zəruriliyini qeyd etməyə çalışmışdır. Lakin distant təhsilin başqa təhsil formalarından üstün cəhətləri ilə yanaşı, mənfi tərəfləri də mövcud olduğunu vurğulamışdır. Bunlar distant tədris zamanı müəllim və tələbələrin üzləşdiyi bəzi psixoloji-problemlərdir ki, bu gün də öz aktuallığını qoruyub saxlamaqda davam edir. Həmçinin müəllif məqalədə distant təhsildə piroritet kəsb edən psixopedaqoji problemlər yenidən baxılmalı, onların həll edilməsinin vacibliyini göstərmişdir.

**Açar sözlər:** təhsil, müəllim, tələbə, distant təhsil, əyani təhsil, təlim prosesi, ünsiyyət problemi, virtual ünsiyyət, sosial şəbəkələr, bilik, bacarıq, vərdişlər

## ABSTRACT

## A NEW APPROACH TO EDUCATION: PSYCHOLOGICAL PROBLEMS OF STUDENT-TEACHER RELATIONS IN THE PROCESS OF DISTANCE EDUCATION

In the article, the author tries to emphasize its importance as touching upon the psychological problems of student-teacher relations in the process of distance education. However, along with the advantages of distance education from other forms of education, it is emphasized also disadvantages having. These are some of the psychological problems faced by teachers and students during distance education, today also continues to maintain actualization. In the article author also points out to essential psycho-pedagogical problems look again through, which these are important their solving.

**Keywords:** education, teacher, student, distance education, full-time education, learning process, communication problem, virtual communication, social networks, knowledge, skills, habits

## РЕЗЮМЕ

## НОВЫЙ ПОДХОД К ОБРАЗОВАНИЮ: ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ВЗАИМООТНОШЕНИЙ СТУДЕНТОВ И ПРЕПОДАВАТЕЛЕЙ В ПРОЦЕССЕ ДИСТАНЦИОННОГО ОБУЧЕНИЯ

В статье автор затронул психологические проблемы взаимоотношений студентов и преподавателей в процессе дистанционного обучения и попытался подчеркнуть его необходимость. Вместе с тем он подчеркнул, что дистанционное образование имеет как преимущества, так и недостатки по сравнению с другими формами обучения. Вот некоторые из психологических проблем, с которыми сталкиваются учителя и ученики во время дистанционного обучения, которые продолжают оставаться актуальными и сегодня. Автор статьи также подчеркнул необходимость пересмотра важности решения психопедагогических проблем, которые являются приоритетными в дистанционном образовании.

**Ключевая слова:** образование, преподаватель, студент, дистанционное обучение, дневная форма обучения, учебный процесс, проблема общения, виртуальное общение, социальные сети, знания, навыки, привычки

Bildiyimiz kimi təhsil anlayışı mürəkkəb və çoxmənalıdır. Təhsil insanın sistemləşdirilmiş bilik, bacarıq və vərdişlər qazanılmasına, əqlin və hisslərin inkişaf etdirilməsinə, dünyagörüşün və idrak proseslərinin təşəkkülünə yönəldilmiş, məqsədyönlü prosesdir.

Təhsilin inkişaf etdirilməsi, onun müasir tələblər səviyyəsinə çatdırılması üçün tələb edilən iqtisadi bazanın və maliyyə imkanlarının olması vacibdir. İstənilən ölkədə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsinin əsasında məhz inkişaf etmiş insan kapitalı dayanır ki, bu da birbaşa olaraq yüksək səviyyəli təhsillə əlaqədardır (3.səh.,24).

Müsir elm və texnologiyanın inkişafının bir-başa təhsildən asılı olduğunu nəzərə alsaq, təhsildəki problemlər bəşəriyyət qarşısında ciddi və qlobal xarakter daşıyan problemlərin əsas səbəbi kimi götürülə bilər. Hazırda ali təhsil almaq get-gedə insanların daha çox hissəsi üçün vacib zərurətə çevrilir.

Müasir dövrdə təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən distant təhsil texnologiyalarına tələbat get-gedə artır. Dünya təhsil sistemində əyani təhsil forması geniş yayılıb. Əyani formada təhsil alan insanlar hər zaman digərlərindən peşə bacarıqları ilə seçilib. Mütəxəssislər isə hesab edirlər ki, əyani təhsil keyfiyyət baxımından yaxşı olsa da, bunun üçün böyük vəsait tələb olunur. Təhsilin əyani və qiyabi formaları ilə müqayisədə açıq distant təhsil forması xeyli üstünlüklərə malikdir. Bu baxımdan distant təhsilə maraq kəskin şəkildə artıb. Bu cəmiyyətin bütün təbəqələri üçün əlverişli və baha olmayan təhsil formasıdır. Distant təhsilin məqsədi müasir informasiya texnologiyalarından istifadə etməklə təhsil alanın ixtisasının artırılmasıdır.

Bildiyimiz kimi Azərbaycanda təhsil almanın 4 forması mövcuddur. Onlar əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) təhsil formalarıdır. Distant təhsil müəyyən məsafədən keçirilən təlim sistemidir. Distant təhsil öyrədən və öyrənən arasında telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirildiyi təhsil formasıdır. Təhsilin distant formasından daha çox müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan insanlar üçün əlverişlidir.

Yəqin ki, konfransda iştirak edən əməkdaşlar distant təhsilin aktuallığını qeyd edəcəklər, mənim məqsədim bu təhsil növünün aktuallığını deyil, onun həyata keçirilməsində yaranan psixoloji problemlərə toxunmaqdır.

Ekspertlər qeyd edirlər ki, distant təhsil zamanı keçirilən dərslər adi universitetlərdə tədris olunan dərs proqramından bir o qədər də fərqlənmir. Yeganə fərq ondan ibarətdir ki, distant təhsil zamanı tələbə və müəllim arasındakı ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir. Təbii ki, distant təhsil formasının müsbət tərəfləri mövcuddur. Lakin distant təhsilin başqa təhsil formalarından üstün cəhətləri ilə yanaşı, mənfi tərəfləri də mövcuddur. Bunlar distant tədris zamanı müəllim və tələbələrin üzləşdiyi bəzi psixoloji-problemlərdir ki, bu gün də öz aktuallığını qoruyub saxlamaqda davam edir. Gəlin bu psixoloji problemlərə birlikdə nəzər salaq:

1. Tələbələrin təhsil səviyyəsinə və peşəkar təcrübəsində fərdi fərqləri nəzərə almağa imkan vermir. Tədris zamanı müəllimlərin diqqət yetirdiyi ən vacib məsələlərdən biri də tələbələrdə fərdi fərqlərin nəzərə alinmasıdır. Bəzən tələbələrimizin temperament tipindən asılı olaraq onlar diskusiyaya qoşulmaqda çətinlik çəkirlər. Müəllimin peşəkarlığı bu problemin aradan qaldırılmasına yardım edir, tələbənin xarakterinə uyğun olaraq suallar verir və onu auditoriyaya qoşulmağa vadar edir. Distant təhsil tələbənin fərdi fərqlərini nəzərə almağa imkan vermir.

2. Təlim və imtahan telekonfranslarının təşkili üçün müxtəlif ölkələrin telefon xəttlərinin keçiricilik qabiliyyəti kifayət etməyə bilər. Təlim və imtahan telekonfranslarının təşkili zamanı xətlərdə yaranan problemlər iştirakçılarda

emosional gərginlik yaradır ki, bu da psixoloji cəhətdən növbəti problemlərin yaranmasına səbəb olur.

3. Tələbələr tərəfindən mənfi qarşılana biləcək daha bir cəhət distant təhsil sistemində müəllim və tələbə arasında canlı ünsiyyətin itməsidir. Ünsiyyət problemi sosial münasibətlərin elə formasıdır ki, həmişə tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Sosial münasibətləri tənzimləyən ünsiyyət prosesi elə vacib prosesidir ki, insanlar həyatının əksəriyyəti hissəsini orda keçirir. Canlı ünsiyyət zamanı dərs prosesi emosional boyalarla daha zəngin olur və ruhi tarazlıq yaradır. Təlim prosesində bu cür effektiv ünsiyyət vərdişlərinin olması tələbələrdə mühakimə yürütmə bacarığını daha da yaxşı inkişaf etdirir.

Müasir dünyada ünsiyyət vasitələri rolunda texnologiya və müxtəlif əlaqə vasitələri (telefon, kompüter, sosial şəbəkələr, ünsiyyət üçün yaradılmış xüsusi proqramlar və s.) çıxış edir. Bu cür ünsiyyət vasitələrinin bir sıra müsbət və mənfi tərəfləri vardır. Virtual ünsiyyət vasitələrinin mənfi tərəflərindən biri ondan ibarətdir ki, gündəlik internet istifadəçilərində savadsızlıq, dilin çalarlarının itirilməsi halları müşahidə olunur. Bundan əlavə, mənfi tərəflərdən biri də insanlar arasında "tənhalıq" probleminin artmasıdır. Müasir ünsiyyət vasitələri insanları real ünsiyyətdən uzaqlaşdıraraq virtual ünsiyyətə cəlb edir. Bu da insanlar arasında uzaqlaşma, yadlaşma hisslərinin dərinləşməsinə, "tənhalıq" probleminin yaranmasına səbəb olur. Bu isə öz növbəsində virtual olaraq ünsiyyətdə olduğun insanın əsl duyğularını, hisslərini görə duya bilməməkdə öz əksini tapır.

4. Distant təhsil zamanı təlim kursları kifayət qədər interaktiv olmur. Dərs prosesinin ən məhsuldar dövrü interaktiv şəkildə keçirilməsidir. Distant təhsil zamanı tələbə və müəllim arasındakı ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir. Distant təhsil prosesində məlumat birtərəfli verildiyi üçün interaktiv proses mümkün olmur, lakin dərs nə qədər interaktiv keçirilsə o, qədər keyfiyyətli alınır. Əgər biz "öyrədici hafizədən" "düşündürücü təfəkkürə" keçmək üçün yollar axtarırıqsa, bu indiki halda distant təhsil prosesində effektli deyil, çünki məlumat birtərəfli ötürülür. Bunun üçün müəyyən zaman lazımdır.

5. Distant təhsilin yekunlarına görə verilən diplom və ya sertifikat hələlik keyfiyyətli təhsilin göstəricisi kimi qəbul olunmur.

6. Asan qəbul edildiyi üçün adətən distant təhsil səhvən müəyyən bir xarici təhsil almaq imkanı kimi başa düşülür.

Ölkədə distant təhsil sisteminin işlənib hazırlanmasının zəruruliyi həm də onunla izah edilir ki, ayrı-ayrı şəhərlər təhsil xidmətinin potensial istifadəçilərindən xeyli uzaqda yerləşir. Lakin distant təhsil sisteminin yaradilmasi ali mək-

təblərin heç də hər birində təşkil edilə bilməz, çünki yeni təhsil texnologiyaları yalnız müəyyən maliyyə, kadr, texnoloji və texniki təhcizat səviyyəsinə çatdıqdan sonra tətbiq edilə bilər. Distant təhsil o halda tam həcmdə həyata keçirilə bilər ki, tədris planı üzrə nəzərdə tutulan saatların və tədris proqramlarının həcminin ən azı 70% - müdavimlər tərəfindən distant təhsil texnologiyalarının köməyilə mənimsəmiş olsun. Mütəxəssislərin hesablamalarına görə distant təhsilə 10 il vaxt və 150 milyon manatdan artıq vəsait lazımdır (5).

Təhsil üzrə ekpertlərin fikirlərinə görə, distant təhsil şübhəsiz ki, qarşısına məqsəd qoyanlar və bunun ona nə üçün lazım olduğunu anlayanlar üçün səmərəli təhsil formasıdır. Belə təhsil özünütəhsil prosesini planlaşdirmağı və ona nəzarət intizamını tərbiyə edir. İstənilən təhsil forması kimi bu da qarşılıqlı prosesdir və tələbə ilə canlı ünsiyyət olmadıqda “pedaqoq” amili çox vacib olur (5).

One of the necessary consequence which is followed from the rule is that as a genre "narrative" is separated from the "narrative" which is used as a text type. The "narrative" as a text type appears from the predominant quality of texts which is considered being prototypical for the "narrative" or "fiction" which is used as genre, contents of which are frequently not pure "narratives" as the usage of text type. When any text which is used as a novel belonging to narrative in the sense of genre, probably any kind of novel consists only the narrative which is used in the sense of text type.

As a usual, novels demonstrate all types of text. Nevertheless, some kinds of experimental literary texts are called a novel which refers to the narrative as a genre, even though it is chiefly characterized by the "description" as a text type. The equivocation occurs in each case. Equivocation problem is that one term denotes various notions. This problem may be avoided when one of the other terms is available. Thus, "ekphrasis" as the term denotes a descriptive genre while description denotes text type. Description is not still by any means limited to this latter usage and the term 'ekphrasis' chiefly belongs to literary imaginations which depicting parts of visual art [8; pp.337–39].

The first point of view in text type exists to have established from the Russian formalism in the twentieth century. In the Pushkin`s article which is called "The Shot", Petrovskij analyzed the narrative dynamics of the story and characterized different chapters of the text due to their descriptive structure (or

static structure) and narrative structures (or temporal structure). Nevertheless, this kind of early examples has had no impact on the latest developments [3; p.67-89].

While the discussion about narratological as a text type, starting with the Genettes`s point of view, it has been devoted to the connection between text types “description” and “narrative”. The sense of Genette is that: “description is naturally … the handmaiden of narration” [11].

It resulted much trouble and difficulty in narratology, for example; Klaus, Peter (1982) “Description and Event in Narrative”; Chatman, Seymour (1990) “Coming to Terms: The Rhetoric of Narrative in Fiction and Film”; Ronen, Ruth (1997) “Description, Narrative and Representation”.

One of the essential causes was the lack of variety between a generic narrative which is classifying concept to cover sorts of texts and a typological narrative, comparative concept designed for capturing deep functions, structures and so on. Though, he did not mention that it clearly and from time to time blurs the variety himself, Genette thinked the narrative as the sense of generic concept. He concluded what kind of description was in the relation to narrative so, involves as a necessary that description wasn`t on the same stage as narrative in generic point of view. So, description for him is something like text type at the same time narrative is both a kind of literary genre and a text type: “Every narrative includes two types of representation, although they are blended together and always in varying proportions: representations of actions and events, which constitute the narration properly speaking, and representations of objects or people, which make up the act of what we today call description”.

In the given definition, “description” and “narration” obviously express text types. Nevertheless, he didn`t goal at the theory of these typological objects but he looked at if the object of description is convenient for limiting this generic scope of the narrative (he thought that, not at all).

In the wake of article of Genette, narratologists and other literary linguistics started for investigating description and functions, manifestations of it in the literary discourse (for example; Hamon, Philippe, 1982). “What is a Description?” T. Todorov (ed.). *French Literary Theory Today. A Reader*. Cambridge: Cambridge UP, 147–78).

For opinion of Hamon, description is the way for inserting knowledge in the narratives. He is less rousted interest in theory of the text types than in literary devices which implement knowledge in the narratives. The model of Hamon for descriptions is the encyclopedia entry which the literary descriptions enlarge in many ways. Most of publishers are on the subject which is devoted to distinguishing description and the functions of it (for example Lodge, David (1977). “Types of Description.” D. L. *The Modes of Modern Writing. Meta-*

*phor, Metonymy, and the Typology of Modern Literature*. Ithaca: Cornell UP, 93–103). Some of linguists explored the description role in 19$^{th}$ century prose like Hamon, some of them Scherpe (1996) and Pflugmacher (2007) focus on the description practice in modern writing. And alsosome of them like Ibsch (1982) contradict the examples of the two periods.

One of the essential contributions to the text types theory is made by Chatman (1990). He considers both fiction and film in the terms of text types theory. His first step modifies the term 'text' in the meaning of the premise which narrative is the existing independently of structure of the medium. The text notion of Chatman is not limited to pieces of written or spoken discourse but comprises: "any communication that *temporally* controls its reception by the audience." [3; p.77]. According to Chatman`s thoughts, both of them (literary works and films) are texts. He determines three text types: 1) narrative, 2) description, 3) argument.

Nevertheless, he doesn`t differentiate these types from one another by the usage one and also the same criterion. The "description" as text type is said to render the peculiarities of things with the subject as a kind of criterion while the argument of text type which is defined on the foundation of the communicative purpose that a text producer pursues to persuade the audience. In addition to all these he notes that; "Argument is the text-type that relies on logic, at least in the informal sense" [3].

Consequently, Chatman clearly conceives of the text types as the macro genres to which they are known as the literary genres. Ibid denotes that; "… Westerns are generic subclasses of the Narrative text-type. The ophrastian character is a subclass of Description. A sermon is a subclass of Argument".

He obviously regards that text types are generic categories. Unquestioningly, his conception about text types based on a functional, don`t based on a generic account.

The definition problems aside, the idea of Chatman is like that: "text-types routinely operate *at each other's service*" [3].

The principle highlighted this idea is that a lot of texts play another structure on textual stage than they do on deeper level. So fables are narrative on the surface stage. Nevertheless, it is both a narrative and essentially something more.

One of the obvious point is that, Chatman appears the functional connections among generic ascriptions and ascriptions of highlighted meaning structures which conceived text types. Chatman obviously shows the object of text type in the sense of narratology. One side, text types capture the semantic features of texts due to the lexical distribution (the stage of odd words); from the other side, they are used in the mean to connect the results of the procedure

to overall meaning of text. This is what the thought of Chatman understands to have when he models text types on the two stages. Occasionally, these two stages correspond each other (a result of descriptive wording in a description no other function), and occasionally, they don`t correspond each other (a result of descriptive wording in a narrative).

One of the other approaches, Fludernik puts forward for consideration a threefold system for going to cover neither literary nor oral discourse. She differrentiated three stages [6]:

- Genre
- Macro genre. Texts either refer to one of macro genres or they don`t. As a consequence, she assigns the macro genres: drama, film and novel which are subordinated to narrative as a scientific text, historiography as an argumentative text and philosophy as a reflective macro genre. She also refers a term as text types not being in confusion with the matter of text type like explicated above.
- Discourse mode. It is determined by "the surface structure of texts and the specific functional correlates within specific genres" [6; p.56].

Thus, for example, it is subordinated to genre which, in own turn, is subordinated to macro genre of the instructive texts. It is the discourse mode concept which corresponds to the text type notion. It appears in answer to the need for non-generational category which is more flexible to capture the various typological heterogeneities within both one and the identical text, let lonely within one and the identical macro genre. On the contrary, this notion explains that various macro genres can show one and the identical discourse mode; for example, narrative can understand as a macro genre, they may hold with in evaluative sentences typical for macro genre which are argumentative, while the argumentative texts can hold with in event phrases characteristic for the macro genre like narrative as an argument of illustration. The opinion of Fludernik, the similarity between text types and discourse modes are that both of them are comparative notions.

Also, discourse mode refers to the texts passages instead of the entire texts and to exhibit functional connection. Nevertheless, they are obtained from the heterogeneous textual phenomena and they aren`t exclusive in a mutual relationship.

She says as addition three types and excepts description from the given list: furthermore, to argumentative and narrative, she goes over conversational, instructive and reflective macro genres.

With the increase of narratology in the 20th century, the narratological concepts such as "*fictional world", "plot"* and "*narrator"* which have become increasingly necessary tools for approaching to the literary texts. Nevertheless,

research in the recent decades has raised with the suspicion that great deal of the narratological concepts are incomprehensible.

Thus, it is regarded one of the most needed literary studies for improving the understanding of the narratological notions. The ways of doing such make part of the giving precise definitions, inspecting closely application conditions and investigating the narratological concepts structure by specifying notions which are fundamental and also derivative. In relation to, the interdependencies among the narratological concepts stay to be clarified. The narratological concepts are considered neutral with the respect to interpretation in two ways at least: any school of interpretation can invoke them, applying them isn`t the interpretative move.

It is time to reassess how the narratology is connected to interpretation. All of the above are as a matter of fact a conceptual work, it is natural for seeking the support from the experts in dealing with the concepts. Analytic philosophy appears particularly suitable in the circumstances. Because, it provides to the tools which are powerful and methodological means for guiding and focusing the envisaged research. Moreover, the analytic aesthetics already proposes decades for the research which is relating to the foundations of the literary theory.

Peter Lamarque, on his on “Interpretation and the Opacity of Narrative” points out to the characteristic of the narratives which the represented world is unable to be seperated from the way where it is presented. The thought includes to the referential opacity as well as the representational opacity (i.e., the idea that if a fictional narrative represents an object a, and a is identical. It doesn`t represent).

Referential opacity is regarded such as; the idea which substitutions of the co-extensional terms change the content of narrative. Representational opacity is regarded such as; the idea which if the fictional narrative represents the object and it is identical.

Nevertheless, opacity at least in the sense of former which isn`t an intrinsic peculiarity of the literary narratives. Instead of the questions whether content and form are inseparable which depends on the interests brought to text: we decided to read for the opacity when we lay to the emphasis on the way where the narrative content is presented. Lamarque used the scene from Jane Eyre for demonstrating how reading for the opacity cannot only bring out to the brilliance of the literary work and heighten our reading pleasure, but also it helps us to *interpret the* literature in way which it makes us explore the reflecting ways on fictional world and to heighten our experience of the world in a remaining place of his talk.

## Conclusion

The narrative structure models which are called Temporal Discourse Models, are considered tree-structured, in which the dominance connection is sent by express by temporal markers.

Thus, although the linguistic information in form of aspect, tense, discourse markers and temporal adverbials is frequently present, people use take advantage of knowledge for filling in information. Let`s look such a simple discourse. For example;

Mr. Wickham was the happy man towards whom almost every female eye was turned, and Elizabeth was the happy woman by whom he *finally* seated himself; and the agreeable manner in which he immediately fell into conversation, though it was only on its being a wet night, made her feel that the commonest, dullest, most threadbare topic might be rendered interesting by the skill of the speaker: “I know little of the game *at present,”* said he, “but I shall be glad to improve myself, for in my situation in life-” Mrs. Phillips was very glad for his compliance, but could not wait for his reason. (J. Austen, Pride and Prejudice. Chapter 16)

The aspectual information points out that they are happy at this discourse communication. The commonsense knowledge also puts forward for consideration that they are happy.

We can observe that even to interpret such kind of relatively discourses, a system could require a diversity of the sources of the linguistic knowledge which includes knowledge of aspect, tense, discourse relations and temporal adverbials, such as the background knowledge.

**Literature:**


22) Abbott, H. Porter (2011). “Time, Narrative, Life, Death, & Text-Type Distinctions: The Example of Coetzee’s *Diary of a Bad Year*.” *Narrative* 19.2, 187–200.
23) Berman, R. A., & Slobin, D. I. (1994). *Relating events in narrative: A trosslinguistic developmental study.* Mahwah, NJ: Erlbaum.
24) Chatman, Seymour (1990). *Coming to Terms: The Rhetoric of Narrative in Fiction and Film*. Ithaca: Cornell UP.
25) Crowhurst, M. (1987). Cohesion in argument and narration at three grade levels. *Research in the Teaching of English, 21,* 185-201.
26) Fairclough N. (1989) Language and Power. London: Longman.
27) Fludernik, Monika (2000). “Genres, Text Types, or Discourse Modes?” *Style* 34.2, 274–92.

28) Genette, G. (1980). Narrative discourse (J.E. Lewin, Trans.). Ithaca, NY: Cornell University Press. (Original work published 1972)
29) Klarer, Mario (2005). “Ekphrasis.” D. Herman et al. (eds.). *Routledge Encyclopedia of Narrative Theory*. London: Routledge, 133–34.
30) Labov, W., & Waletsky, J. (1967). Narrative analysis. In J. Helm (Ed.}, *Essays on the verbal and visual arts* (pp. 12--44). Seattle, WA: University of Washington Press.
31) Mammadov A. Studies in Text and Discourse. Cambridge Scholars Publishing.
32) Ukrainetz T.A., Justice L.M., Kaderavek J.N., Eisenberg S.L., Gillam R. B., & Harm, H. M. (in press). The development of expressive elaboration in fictional narratives. *Journal of Speech, Language, and Hearing Research.*

**SƏNƏTŞÜNASLIQ**

**UOT 784; 78**

# MÜSLÜM MAQOMAYEVİN ESTRADA İFAÇILIQ ÜSLUBUNUN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

**İlham İslam oğlu NƏZƏROV**

*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı*
*Azərbaycan Respublikasının Əməkdar artisti*
*ilhamnazarov@yahoo.com*

## XÜLASƏ

Görkəmli müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevin yaradıcılığının əhəmiyyətli hissəsini estrada janrında yaradıcılığı təşkil edir. M.Maqomayev təkcə Azərbaycanın deyil, eləcə də SSRİ estrada musiqisinin inkişafına böyük töhfələr vermiş və bu janrı yeni ənənələrlə daha da zənginləşdirmişdir. Belə ki, ötən əsrin 1960–1980-ci illərinin estrada musiqisi dedikdə ilk növbədə M.Maqomayev xatırlanır. Bu baxımdan M.Maqomayevin estrada yaradıcılığı dedikdə, təkcə onun mahnı ifaçılığını qeyd etmək kifayət deyildir. Burada onun bu janra gətirdiyi tendensiyaları da mütləq vurğulamaq lazımdır.

Əfsanəvi musiqiçi Azərbaycan estrada ifaçılığını akademik səviyyəyə qaldırmışdır. Eyni zamanda M.Maqomayev mahnı janrında öz ifaçılıq dəstxəttini yaratmağa müvəffəq olmuşdur. O, mahnı janrının hüdudlarını genişləndirmiş və təzadlılıq fəndini gətirmişdir.

**Açar sözlər:** Müslüm Maqomayev, Azərbaycan estrada ifaçılığı, mahnı janrı, ifaçılıq üslubu, vokal, təzadlılıq fəndi, akademik ifaçılıq.

## РЕЗЮМЕ

## ОСОБЕННОСТИ СТИЛЯ ЭСТРАДНОГО ИСПОЛНЕНИЯ МУСЛИМА МАГОМАЕВА

Значительную часть творчества выдающегося певца, Народного артиста СССР Муслима Магомаева составляет его творчество в эстрадном жанре. М.Магомаев внес значительный вклад в развитие эстрадной музыки не только Азербайджана, но и СССР, обогатив этот жанр более новыми традициями. Так, говоря об эстрадной музыке 1960–1980 гг. прошлого

века, в первую очередь вспоминается М.Магомаев. Упоминая эстрадное творчество М.Магомаева с этой точки зрения, является недостаточным отметить только его песенное исполнение. Также следует обязательно подчеркнуть и тенденции, внесенные им в этот жанр.

Легендарный музыкант повысил эстрадное исполнение Азербайджана до академического уровня. В то же время М.Магомаев успешно создал свою исполнительскую линейку в песенном жанре. Он сумел расширить границы песенного жанра и внести контрастные уловки.

**Ключевые слова:** Муслим Магомаев, эстрадное исполнение Азербайджана, песенный жанр, исполнительский стиль, вокал, контрастные уловки, академическое исполнение.

## ABSTRACT

## MUSLIM MAGOMAYEV'S VARİETY PERFORMANCE FEATURES

A significant part of the work of the outstanding singer, People's artist of the USSR Muslim Magomayev is his work in the variety genre. M. Magomayev made a significant contribution to the development of variety music not only in Azerbaijan, but also in the USSR, enriching this genre with newer traditions. So, concerning the variety music of the 1960–1980 years of the last century, first of all, M.Magomayev is remembered. While on the subject of M. Magomayev's variety creative work from this point of view, it is not enough to mention only his song performance. It is also necessary to emphasize the trends introduced by him in this genre.

The legendary musician raised Azerbaijan's variety performance to an academic level. At the same time, M.Magomayev successfully created his own performing line in the song genre. He managed to expand the boundaries of the song genre and to introduce contrasting tricks.

**Keywords:** Muslim Magomayev, variety performance of Azerbaijan, song genre, performance style, vocals, contrasting tricks, academic performance.

Görkəmli müğənni Müslüm Maqomayevin yaradıcılığının mühüm hissəsini estrada janrında fəaliyyəti təşkil edir. Əfsanəvi musiqiçi təkcə Azərbaycanın deyil, eləcə də SSRİ estrada musiqisinin inkişafına öz töhfələrini vermişdir [2, səh.507-508]. XX əsrin 60-70-ci illərinin sovet estrada musiqisini "Müslüm Maqomayev dövrü" adlandırmaq mümkündür. Belə ki, M.Maqomayevin gətirdiyi ənənələr, ifa etdiyi və müəllifi olduğu əsərlərin xüsusiyyəti onun yaradı-

cılığını estrada janrında yeni dövr kimi səciyyələndirməyə imkan verir. Müğənninin sənət yolunu bədii şəkildə mahnılarla keçən ömür ifadəsi ilə xarakterizə etmək olar. İ.Kərimov "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuş "Müslümün mahnı dünyası" adlı məqaləsində ifaçının yaradıcılığında mahnı janrının əhəmiyyətini çox gözəl şəkildə xarakterizə etmişdir: "Müslüm və mahnı...Bu iki sözü, iki məfhumu indi bir-birindən ayırmaq çox çətindir. İnamla deyək ki, mahnı insanlara həmdəm olmaq, onları sevindirmək, ovundurmaq üçün yaranmışdırsa, Müslüm bu mahnılara ölməzlik bəxş etmək, yaşatmaq üçün doğulmuşdur. Çünki özünün oxuduğu mahnıda deyildiyi kimi, mahnı onun taleyidir. Yaradıcılıq taleyinə üzüdönüklük etmək, onun "hökmündən" çıxmaq isə mümkün deyildir" [1, səh.7].

M.Maqomayev yaradıcılığı ərzində 400-ə yaxın estrada mahnısı səsləndirmişdir. Sənətkarın ifa etdiyi mahnılar azərbaycan, rus, italyan, alman, ispan, ingilis və s. dilləri əhatə edir. M.Maqomayevin repertuarındakı mahnılar obraz – məzmun cəhətdən də zəngindir. Belə ki, sənətkarın mahnılarında insanın daxili aləminin ən incə məqamlarından başlamış insan və cəmiyyət, Vətən, sadiqlik, dostluq, dünyada baş verən bir çox qlobal hadisələr, məhəbbət, gözəllik və sair mövzular əks olunmuşdur. Sənətkar müxtəlif bəstəkarların əsərləri ilə yanaşı, məhz onun səs imkanları üçün yazılan və eləcə də özünün müəllifi olduğu mahnıları səsləndirmişdir. Qeyd edilənləri nəzərə alaraq ifaçının mahnı yaradıcılığının təsnifatını aşağıdakı kimi vermək mümkündür:

Dil xüsusiyyətinə görə:

1) Azərbaycan dilində oxuduğu mahnılar;
2) Rus dilində oxuduğu mahnılar;
3) Müxtəlif dillərdə oxuduğu mahnılar (italyan, ingilis, alman, ispan və digər dillər nəzərdə tutulur)

Mövzu dairəsinə görə:

1) Vətənpərvərlik haqqında mahnılar;
2) Məhəbbəti tərənnüm edən mahnılar;
3) Müxtəlif mövzulara bəstələnən mahnılar;

Mahnıların xüsusiyyətinə görə:

1) M.Maqomayevə həsr olunan mahnılar (Həmin mahnılar müğənninin səs imkanları nəzərə alınaraq yazılmışdır);
2) M.Maqomayevin ifa etdiyi mahnılar (Burada müxtəlif bəstəkarların mahnıları nəzərdə tutulur);
3) Müğənninin müəllifi olduğu mahnılar.

M.Maqomayevin ifasında mahnıları dramatik cəhətdən kamil, dinamik inkişafı ilə fərqlənən, aydın sujetli, bitkin kompozisiyalı musiqili hekayələr kimi xarakterizə etmək mümkündür. Müğənni ifa etdiyi hər bir əsərdə özünəməxsus yanaşmasını göstərməyə müvəffəq olmuşdur. İfaçı mahnılara rənga-

rəng səs çaları bəxş etmək və onları yeni məzmunla mənalandırmaqla orijinal təfsir verirdi. Bu zaman mahnılar kiçik məna çərçivəsindən çıxaraq dərin məzmunlu sənət əsərlərinə çevrilirdilər. Bu amil M.Maqomayevin estrada yaradıcılığının başlıca xüsusiyyətidir.

Müğənninin müraciət etdiyi mahnıların müəllifləri XX əsrin ortalarında rus estrada musiqisində öz sözlərini demiş bəstəkarlar idilər. Onların mahnılarının geniş dinləyici rəğbəti qazanmasında M.Maqomayevin özünəməxsus ifaçılıq üslubu böyük rol oynamışdır. Bu səbəbdən bir çox bəstəkarlar əsərlərinin məhz onun tərəfindən səsləndirilməsini istəyirdilər. “Ədəbiyyat və incəsənət” qəzetinin 16 mart 1974-cü il nömrəsində dərc olunan məqalədə M.Maqomayevin mahnı janrında fəaliyyəti ətraflı işıqlandırılmış və ifaçılıq xüsusiyyətlərinə toxunulmuşdur. Həmin məqalədən kiçik bir hissəni təqdim edirik: “Sovet bəstəkarlarının yazdıqları bir neçə mahnı onun ifasında birinci dəfə səslənmişdir. Bu mahnıların əksəriyyəti qanlı-qadalı müharibə illərinə, ölməz qəhrəmanların xatirəsinə həsr olunmuşdur. M.Maqomayev V.Şainskinin “Məktub gəlirdi” («Шло письмо»), A.Paxmutovanın “Dünyanın vicdanı” («Совесть мира»), “Kim səs verəcəkdir” («*Кто* отзовётся») və s. mahnıların dərin məndəricəsini bacarıqla açıb göstərmiş, onları öz yaradıcılıq süzgəcindən keçirərək əlvan boyalarla zənginləşdirmişdir” [4, səh.4].

Qeyd etdiyimiz kimi M.Maqomayev estrada janrına bir çox yeniliklər gətirmişdir. Bu yeniliklər aşağıdakılardan ibarətdir:

1) Müğənninin özünəməxsus ifaçılıq üslubu;
2) Konsert repertuarının seçimi;
3) Müğənninin müraciət etdiyi mahnıların xüsusiyyəti;

M.Maqomayevin estrada ifaçılığını aşağıdakı xüsusiyyətlər fərqləndirir:

1) Gözəl, güclü və geniş diapazona malik məlahətli səs;
2) Coşğun və temperamentli ifa;
3) Yüksək ifaçılıq mədəniyyəti və bədii ifadə vasitələrinin zənginliyi;

M.Maqomayevin estrada ifaçılığının əsasını bir-birindən tamamilə fərqlənən iki əks oxuma texnikası təşkil edir. Belə ki, müğənni burada sırf estrada ifaçısı kimi çıxış etməmişdir. Onun ifaçılıq üslubu akademik və estrada vokal ifaçılığı xüsusiyyətlərinin sintezindən yaranmışdır. Bu isə M.Maqomayevin akademik ifaçılıq üslubunda tərbiyələnməsi və estrada janrının çərçivələrini aşan səs imkanları ilə bağlıdır. Məhz bu səbəbdən müğənninin estrada janrında ifaçılıq prinsipinin əsasını akademik vokal ifaçılığı təşkil etmişdir. Belə ki, sənətkar estrada mahnılarını janrın xarakterik xüsusiyyətlərini saxlamaqla, klassik ifaçılıq elementləri ilə səsləndirmişdir. Onun yaradıcılığında akademik və estrada vokal ifaçılıq texnikasını birləşdirməsi Azərbaycan vokal sənəti tarixində yeni təmayül idi.

M.Maqomayevin estrada ifaçılıq üslubu bir çox musiqişünasların diqqət mərkəzində olmuşdur [3, səh.110]. Həmin məqalələrdə müğənninin geniş vokal ifaçılıq imkanları, səsinin qeyri-adi olması işıqlandırılırdı. Burada A.Tağızadənin "XX əsr Azərbaycanının musiqisi" adlı kitabında yer alan "Sevimli müğənnimiz" adlı məqaləsində aşağıdakı fikirlər öz əksini tapmışdır: "...yaradıcılıq təbiəti etibarı ilə M.Maqomayev estrada müğənnisinin və opera solistinin ən yaxşı cəhətlərini ahəngdar şəkildə özündə birləşdirir" [6, səh.269].

M.Maqomayevin ifa etdiyi bütün mahnılar onun dəst-xəttini özündə əks etdirirdi. Bu baxımdan həmin mahnıların özünəməxsus xüsusiyyəti vardır. Mahnılar musiqi dilinə görə seçilir və onların mühüm cəhətlərindən biri də diapazon baxımından geniş olmasıdır. Geniş diapazon həm də registr müxtəlifliyi və oynaqlığı deməkdir. Bu isə təzadlılıq fəndinin sənətkarın yaradıcılığında əsas ifadə vasitələrindən biri olmasını göstərir.

Musiqişünaslar M.Maqomayevin estrada ifaçılığının təzadlar üzərində qurulduğunu və təzadlılığı onun ifasının səciyyəvi cəhəti kimi vurğulayırdılar. Təzadlılıq dedikdə sakit və təmkinli, coşğun və emosional ifaların qarşılaşdırılması nəzərdə tutulur. E.Uvarova tərtib etdiyi estrada müğənniləri haqqında ensiklopediyasında M.Maqomayevin ifasının səciyyəvi xüsusiyyətlərindən danışarkən onu belə xarakterizə edir: "M.Maqomayev oxuduğu hər bir mahnının məzmununu dərinləşdirir. İfaçının istifadə etdiyi təzad fəndi mahnının dramaturgiyasına təsir edir. Belə ki, müğənni tamamilə sakit, reçitativ sayağı başlayır və sonda coşğun, temperamentli ifaya keçir... Müğənninin ifasında opera yaradıcılığı estrada ifaçılığını zənginləşdirir və əksinə olaraq estrada sənətinin qanunları olan ünsiyyət, səmimilik klassik opera ariyalarına özünəməxsus formada transformasiya olunur" [10, səh. 366]. Nümunə olaraq "Üç dəqiqəlik səssizlik" («Три минуты молчания»), "Axşam eskizi" («Вечерний эскиз»), "Eleqiya" («Элегия»), "Maritana" («Маритана»), "Sən mənim nəğməmsən" («Ты моя мелодия»), "Mavi əbədiyyət" («Синяя вечность»), "Dunayın çələngi" («Венок дуная») və digər mahnıları göstərmək mümkündür.

Bu əksər mahnılarda rast gəlinən ifaçılıq modelidir. Təbii ki, bu modeli sənətkarın ifasında səslənən bütün mahnılara şamil etmək olmaz. Belə ki, müğənninin repertuarında digər strukturlu mahnılar da vardır. Sözsüz ki, bu ilk növbədə sənətkarın ifasının zənginliyindən xəbər verən amildir. Fərqli ifa prinsipinə əsaslanan mahnılardan "Arzular, arzular" («Мечты, мечты»), "Mersi" («Мерси») və digərlərini göstərmək olar.

Aşağıda M. Maqomayevin ifasında hər iki modeli özündə əks etdirən bəzi mahnıların ifaçılıq xüsusiyyətlərinə nəzər yetirilmişdir.

*A.Paxmutovanın "Sənin məhəbbətinin günəşi" [14] («Солнце любви твоей») mahnısının ilk ifaçısı M.Maqomayev olmuşdur. Əsər yazılma üslubuna görə də müğənninin ənənəvi estrada oxuma tərzini xatırladır. Belə ki, burada*

*sakit, reçitativ sayağı bənd və emosionallığı ilə seçilən nəqarət diqqəti cəlb* edir [9]:




**Not nümunəsi № 1. A.Paxmutovanın** *"Sənin məhəbbətinin günəşi" («Солнце любви твоей») mahnısından fraqment.*

*Əsərin bənd hissəsində müğənni təmkinli ifa tərzinə üstünlük vermişdir. Birinci musiqi ifadəsində* ("es$^1$-f$^1$-g$^1$-d$^1$-d$^1$") sənətkar "c$^1$" səsinə doğru hərəkətlə ifa etmiş və "es$^1$-d$^1$-c$^1$-c$^1$" ifadəsini p çalarında səsləndirmişdir. «Дожди над городом, дожди» sözləri ilə başlayan ikinci musiqi ifadəsi də eyni prinsip ilə səsləndirilmişdir. Burada da "d$^1$" səsi vurğu ilə ifa olunmuşdur. «Я умоляю, сделай милость» cümləsi mahnı mətninə uyğun olaraq daha sakit və təmkinlə oxunulmuşdur. M.Maqomayev mahnıda müxtəlif ifadə vasitələrindən, yumşaq səs ötürülməsindən, baş registrindən istifadə etmişdir:




*Not nümunəsi № 2.* **A.Paxmutovanın** *"Sənin məhəbbətinin günəşi" («Солнце любви твоей») mahnısından fraqment.*

*Burada nəqarət hissəsinin coşğunluğu və emosionallığı bizə ənənəvi M.Maqomayev ifasını xatırladır. Əsərdə* «И пусть над нами ветры злей, И даже небо холодней, Я знаю: бессмертно солнце» cümləsi emosionallıqla ifa edilən etirazı xatırladır. Əsərin *kulminasiyası* «Спасибо тебе за солнце» ifadəsinin üzərinə düşür və «Солнце любви твоей» yumşaq səs ötürülməsi ilə ifa olunaraq sanki minnətdarlıq hissini bildirmiş olur. Müğənni burada 6-cı xanədə "b$^1$", 7-ci xanədə es1" və 11-ci xanədə "c$^1$" səslərini vurğu ilə ifa etmişdir. Eyni zamanda o, 8-ci xanədə "e$^1$" səsinin ölçüsünü artırmışdır. Əsərin

sonrakı hissələri də eyni prinsiplə ifa edilmişdir. Qeyd edək ki, mahnının diapazonu kiçik oktavanın "h" səsindən ikinci oktavanın "des" səsinə qədər intervalı əhatə edir. M.Maqomayev əsərdə ifaçılıq imkanlarını həm texniki və həm də bədii cəhətdən yüksək səviyyədə göstərə bilmişdir.

O.Feltsmanın M.Matusovskinin sözlərinə yazdığı "Mənim qara dənizim" («Черное море моё») əsəri lirik mahnılar silsiləsindəndir [13]. Burada dramatizm, çılğınlıq və coşğunluq kimi emosiyalar yoxdur. Bu baxımdan "Mənim qara dənizim" mahnısı M.Maqomayevin estrada ifaçılığında fərqli tərzdə təfsirə nümunədir. Əsər ¾ ölçüsündə yazılmışdır və valsı xatırladır. Burada incə lirizm, ifanın axıcılığı və həzinliyi dinləyicini qayğısız gənclik illərinə aparır. Müğənni əsərdə lirik qəhrəman obrazını yaratmışdır. M.Maqomayev mahnıda ifaçılıq imkanlarını tamamilə başqa bir tərəfdən göstərmişdir. Əsərin diapazonu birinci oktavanın "c" səsindən ikinci oktavanın "f" səsinə qədər intervalı əhatə edir. Tessitura baxımından mahnının ən yüksək hissəsi ikinci oktavanın "f" («са») səsinə düşür. Qeyd olunan yüksək nöqtəyə isə «свет маяка над волною южных ночей забытё» musiqi cümləsi ilə başlanılır. Əsərin son 6 xanəsi ($f^1$-$f^2$–yə doğru) falset səslə oxunmuşdur. Müğənni 19-cu xanədə "$a^1$", 25-ci xanədə "$f^2$", 29-cu xanədə "$c^2$" və 34-cü xanədə "$g^1$" səslərini vurğulamaqla ifa etmişdir. Qeyd edək ki, əsər e-moll-da bəstələnmişdir, musiqiçi isə onu yarım ton yuxarı, f-moll tonallığında səsləndirmişdir [11]:




**Not nümunəsi 3. O.Feltsmanın "Mənim qara dənizim" («Черное море моё») mahnısından fraqment.**

Estrada özünəməxsus ifa çətinliklərinə malik janrdır. Teatrşünas S.Klitin estrada janrına məxsus spesifik xüsusiyyətlərdən danışarkən burada musiqi, söz, ifa və aktyorluq qabiliyyəti kimi dörd komponentin aparıcı rol oynadığını vurğulayır. Bütün qeyd edilən elementlər estrada ifaçılığında mühüm əhəmiy-

yətə malikdir. Belə ki, ifadə vasitələrinin ideal şəkildə uyğunlaşdırılması nəticəsində canlı, harmonik səslənən obraz yaratmaq mümkündür.

M.Maqomayev ifa etdiyi əsərlərin məzmun baxımından inkişafının qurulmasının mahir ustası olmuşdur. O, hər bir mahnıda yaddaqalan obraz yaratmış, əsərin dramaturji mahiyyətini melodiyanın dinamik inkişafında göstərməyə çalışmışdır. M.Maqomayevin ifasında obrazın çatdırılması estetik cəhətdən də nəzəri əsaslanma tələb edir. Burada subyektiv və obyektiv olaraq iki yanaşma prinsipini müəyyən etmək mümkündür:

Subyektiv və obyektiv yanaşma metodu incəsənətdə, xüsusilə ifaçılıqda vacib anlayışlardan biridir. Bu anlayışlar həmçinin ifaçının estetik düşüncə tərzinin diqtəsi altında formalaşır. Müğənni ifa etdiyi əsəri daxilindən keçirərək öz münasibətini göstərmiş olur. Başqa sözlə desək, obyektiv olan hər bir əsər ifaçının təfsirində istər-istəməz subyektivləşir. Subyektivləşmə isə sənətkarın mənəvi aləminin zənginliyinə dəlalət edir. M.Maqomayev sənətinin də məhz bu formul əsasında estetik modelini yaratmaq mümkündür. Digər tərəfdən bu ifaçının daxili aləminin nümayişi prosesi kimi də qiymətləndirilə bilər. M.Maqomayev sanki ifa etdiyi hər bir əsəri daxili "mən"inə tabe etdirmişdir. Onun ifaçılığının mahiyyəti məhz qeyd olunan yaradıcılıq metoduna köklənmiş, psixoloji mövzuların, mürəkkəb və dərin mənəvi hisslərin əksinə əsaslanmışdır. Bu baxımdan sənətkarın ifaçılığında subyektivlik özünü bütünlüyü ilə göstərir.

Nümunə olaraq M.Maqomayevin səsləndirdiyi "Piter boyunca" («Вдоль до Питерской») rus xalq mahnısını göstərə bilərik [15], [12]. Mahnı müğənninin yaradıcılığının bütün mərhələlərində ifa edilmişdir. Musiqiçini dinləyərkən onun ifasında çox obrazlılığa nail olmasını xüsusilə qeyd etmək istərdik. Belə ki, burada üç səs tembrini eşitmək mümkündür. Mahnıda bu bir növ təqlid xarakteri daşıyır. Müğənninin «ех, сладку водочку, да, наливочку да, ех, я пила, молода» cümləsində tenor, «трещит, да не комар пищит» bas kimi ifa etməsi mahnının dramaturgiyasının zənginləşdirilməsinə xidmət edir. Qalan hissələri isə müğənni bariton səs tembri ilə səsləndirmişdir. Sənətkar müxtəlif temp dəyişmələrindən, deklamasiya, rus xalq musiqisinə xas səs hasilindən istifadə etmişdir. İfaçı əsəri asta tempdə kiçik girişlə başlayaraq tədricən tempi artırmışdır. Əsər sənətkarın təfsirində dolğun, şən əhval-ruhiyyəli xarakterdə səslənir. O, kiçik bir mahnı daxilində obrazlar məcmusunu böyük ustalıqla çatdırmağa nail olmuşdur. Bu təfsir metodu canlı və hərəkətli olması ilə F.Şalyapinin ifasından tamamilə fərqlənir. Qeyd edək ki, həmin mahnının işləməsi də F.Şalyapinə məxsusdur. M.Maqomayev həm də bəstəkar mətninə özünəməxsus münasibətini bildirmişdir. Sənətkarın ifasından sonra sadə rus kəndlisinin mahnısı dillər əzbərinə çevrilmişdir: "..Sanki mahnı yenidən doğulmuşdur. Bunun üçün Müslüm Maqomayev çox iş görmüş, mahnını müasir baxım-

dan, ancaq klassik kökünə toxunmadan əlvan boyalarla təfsir etmişdir" [7, səh.1].

Konsert repertuarının təşkili də M.Maqomayev yaradıcılığında maraqlı məqamlardan biridir. Onun konsertləri adətən iki hissədən ibarət olmuş, birinci hissədə klassik əsərlərə, ikinci hissədə isə estrada mahnılarına üstünlük verilmişdir. Görkəmli opera ifaçısı Mariya Lansa da konsert repertuarını janr müxtəlifliyi üzərində qururdu, M.Maqomayev də bu metodu M.Lansadan götürmüşdür.

Hər bir estrada ifaçısının müvəffəqiyyəti həm də onun mahnı seçimi ilə bağlıdır. M.Maqomayev mahnı repertuarı haqqında belə demişdir: "Mən düşünürəm ki, ifaçı hər bir əsərdə "özünü" axtarmalı, mütləq əsəri fortepiano arxasında nəzərdən keçirməli, "özününkü etməli", ürəyini verməli və daha sonra dinləyiciyə təqdim etməlidir. Hərdən olur ki, bəstəkar yaxşı bir mahnı təqdim edir, ancaq mən hiss edirəm ki, həmin mahnı mənə yaddır... Mahnı seçərkən sən bəstəkar və şairə layiqli həmmüəllif olacağından əmin olmalısan" [8, səh.4]. Sənətkarın mahnılarının uğur qazanmasında orkestr partiyasının ro-lunu da mütləq qeyd etmək lazımdır. Müğənni əsərlərini əsasən estrada simfonik orkestri ilə ifa etmişdir. Estrada simfonik orkestri ifaçının fərdi keyfiyyətlərinin daha parlaq şəkildə açılmasında bir vasitə rolunda çıxış etmişdir. Əsərlərin müşayiət partiyası rəngarəng və zəngin olması ilə seçilərək sənətkarın ifaçılıq üslubuna uyğun tərtib olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq ifaçının estrada fəaliyyətinin aşağıdakı xüsusiyyətlərini müəyyənləşdirmək olar.

M.Maqomayev yaradıcılığında mahnı janrı mühüm əhəmiyyətə malikdir. Sənətkarı Sovet estradasının Orfeyi, mahnılar kralı adlandırırdılar. Bu ifadələr müğənninin yaradıcılığında mahnı janrının yeri və əhəmiyyətini tam dolğunluğu ilə əks etdirir. M.Maqomayevin yaradıcılığında mahnı janrı yeni bir mərhələyə qədəm qoymuşdur. Belə ki, ifaçı mahnı janrının imkanlarını genişləndirmiş, onu yeni bədii ifadə vasitələri ilə zənginləşdirmişdir. Nümunə olaraq ilk növbədə ifaçının mahnıların diapazon həcmini genişləndirməsini vurğulamaq istərdik. M.Maqomayevin səsləndirdiyi mahnıların həcmi iki oktavaya yaxındır. Eyni zamanda ifaçı mahnıların obraz, məzmun dairəsini də genişləndirmiş və onları vokal-simfonik musiqi səviyyəsinə qaldırmışdır. Sənətkar mahnı janrında özünü böyük təfəkkürə malik musiqiçi kimi göstərmişdir.

**Ədəbiyyat:**


1. Kərimov, İ.S. Müslümün mahnı dünyası // Ədəbiyyat və incəsənət. – 1976, 26 fevral. – s. 7.
2. Nəzərov, İ. Müslüm Maqomayev yaradıcılığında mahnı janrının əhəmiyyəti // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları: 2 cilddə, II c., – Bakı: – 22-23 noyabr, – 2018, – s. 507-509.
3. Nəzərov, İ. Müslüm Maqomayevin vokal ifaçılıq üslubunun səciyyəvi elementləri // - Bakı: Konservatoriya, – 2020. № 1-2 (47), – s. 107-115.
4. Müslüm Maqomayevlə yeni görüş // Ədəbiyyat və incəsənət. – 1974, 16 mart. – s. 4.
5. Rəhmanzadə, F.Ş. Yüksək sənətkarlıq // Bakı. – 1973, 29 may. – s. 1.
6. Tağızadə, A.Z. Sevimli müğənnimiz // XX əsr Azərbaycan musiqisi. – Bakı: Elm və təhsil, – 2011. – s. 268-272.
7. Абдуллаев, К, Гольдштейн, Л. Муслим Магомаев: Вчера, сегодня, завтра // Бакинский рабочий. – 1981, 31 октябрь. – с. 4.
8. Мартынова, Т. Рождение песни // Советская культура. – 1974, 22 январь. – с. 4.
9. Пахмутова, А. Солнце любви твоей: песни [Ноты]: Москва: Советский композитор, – 1990. – 104 с.
10. Эстрада в России XX век. Энциклопедия / Под ред. Е.Д.Уварова – Москва: Олма-Пресс, – 2004. – 864 с.
11. Фельцман, Оскар Борисович (1921-2013): [Электронный ресурс] / URL: http://www.notarhiv.ru/ruskomp/fel'zman/spisok.html
12. Вдоль до Питерской: [Электронный ресурс] / URL: http://www.notarhiv.ru/ruspesni/noti/1%20(62).pdf
13. Муслим Магомаев - Чёрное море моё: [Электронный ресурс] / Landrin100. – 11 ноябрь, 2014. URL: https://www.youtube.com/watch?v=AIPgOSIG2kc
14. Муслим Магомаев - Солнце любви твоей: [Электронный ресурс] / Temir Sayan. – 27 апрель, 2014. URL: https://www.youtube.com/watch?v=y4KDy-Jrfcc
15. Magomaev - Vdol po Piterskoy: [Electronic resource] / Edward Zhitnitsky. – 4 August, 2017. URL: https://www.youtube.com/watch?v=IvthraBbxsQ

**UOT 7**

# SƏNƏTŞÜNAS ZİYADXAN ƏLİYEV TƏDQİQATLARINDA SƏTTAR BƏHLULZADƏ FENOMENİ

**Emil Raul oğlu AĞAYEV**

*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
*emilaghayev93@mail.ru*

## XÜLASƏ

Azərbaycan təsviri incəsənətinin inkişaf tarixi sənətşünaslar tərəfindən daima izlənilmişdir. Yeni elmi əsərlərin yaranması incəsənət tariximizi zənginləşdirir. Sənətşünas Ziyadxan Əliyev yaradıcılığında Səttar Bəhlulzadə fenomeni mühüm yer tutur. Səttar Bəhlulzadə lirik məzmunlu əsərlərin müəllifi kimi şöhrət qazanmışdır. Onun bir-birindən maraqlı əsərləri təsviri incəsənət tariximizi zənginləşdirir. Rəssamın yaradıcılığına xas olan xüsusiyyətləri sənətşünas Ziyadxan Əliyev əsərlərində dəqiq şəkildə təhlil və tədqiq etmişdir. Bu məqalədə rəssamın yaradıcılığına aid sənətşünasın məqalələri əsas götürülərək əsas obyekt kimi göstərilmişdir. Səttar Bəhlulzadə yaradıcılığı Azərbaycan təsviri incəsənəti üçün fenomendir. Sənətşünasın bir-birindən maraqlı elmi əsərlərində dahi rəssamın fərdi manerası, yaradıcılığı açıqlanmışdır. Professor Ziyadxan Əliyevin rəssamla yaxın münasibətləri onun yaradıcılığına daha dərindən bələd olmasını sübut edir. Məqalədə həmçinin Səttar Bəhlulzadəyə həsr edilən Ömər Eldarov və Fuad Əbdürrəhmanov tərəfindən maraqlı heykəltaraşlıq əsərlərinin maraqlı tarixi və düzgün özünəməxsus təhlili verilmişdir. Ziyadxan Əliyevin yaradıcılığında mühüm yer tutan Səttar Bəhlulzadə fenomeni bir-birindən maraqlı elmi əsərlərində tamaşaçılara düzgün, dəqiq məlumatlar verilmişdir.

**Açar sözlər:** Azərbaycan, Ziyadxan Əliyev, Səttar Bəhlulzadə, sənətşünaslıq, rəng, obraz, mənzərə

## ABSTRACT

## THE PHENOMENON OF SATTAR BAHLULZADE IN ART CRİTİC ZIYADKHAN ALIYEV'S RESEARCH

The history of the development of fine arts in Azerbaijan has always been followed by art critics. The emergence of new scientific works enriches our art history. The phenomenon of Sattar Bahlulzade occupies an important place in

the work of art critic Ziyadkhan Aliyev. Sattar Bahlulzade became famous as the author of lyrical works. His interesting works enrich our history of fine arts. Art critic Ziyadkhan Aliyev carefully analyzed and studied the peculiarities of the artist's work in his works. This article is based on the articles of the art critic on the artist's work and is presented as the main object. Sattar Bahlulzade's work is a phenomenon for Azerbaijani fine arts. The personal style and creativity of the genius artist are revealed in the interesting scientific works of the art critic. Professor Ziyadkhan Aliyev's close relations with the artist prove that he is more deeply acquainted with his work. The article also provides an interesting history and accurate analysis of interesting sculptural works by Omar Eldarov and Fuad Abdurrahmanov, dedicated to Sattar Bahlulzade. The phenomenon of Sattar Bahlulzadeh, which occupies an important place in the work of Ziyadkhan Aliyev, was given accurate and precise information to the audience in his interesting scientific works.

**Keywords:** Azerbaijan, Ziyadkhan Aliyev, Sattar Bahlulzade, art criticism, color, image, landscape

## РЕЗЮМЕ

## ФЕНОМЕН САТТАРА БАХЛУЛЗАДЕ В ИССЛЕДОВАНИЯХ ИСКУССТВОВЕДА ЗИЯДХАНА АЛИЕВА

История развития изобразительного искусства в Азербайджане всегда сопровождалась искусствоведами. Появление новых научных работ обогащает историю нашего искусства. Феномен Саттара Бахлулзаде занимает важное место в творчестве искусствоведа Зиядхана Алиева. Саттар Бахлулзаде прославился как автор лирических произведений. Его интересные работы обогащают нашу историю изобразительного искусства. Искусствовед Зиядхан Алиев тщательно проанализировал и изучил особенности творчества художника в своих работах. Эта статья основана на статьях искусствоведа о творчестве художника и представлена в качестве основного объекта. Работа Саттара Бахлулзаде - явление для азербайджанского изобразительного искусства. Личный стиль и творчество великого художника раскрыты в интересных научных работах искусствоведа. Тесные отношения профессора Зиядхана Алиева с художником доказывают, что он более глубоко знаком со своей работой. В статье также представлена интересная история и точный анализ интересных скульптур Омара Эльдарова и Фуада Абдуррахманова, посвященных Саттару Бахлулзаде. Феномен Саттара Бахлулзаде, занимающего важное место в творчес-

тве Зиядхана Алиева, давал точную и точную информацию зрителю в его интересных научных работах.

**Ключевые слова:** Азербайджан, Зиядхан Алиев, Саттар Бахлулзаде, искусствоведение, цвет, образ, пейзаж

**Giriş.** Azərbaycan təsviri incəsənət tarixi zaman-zaman inkişaf edərək, yeni mərhələyə qədəm qoymuşdur. Bütün bu tarixi inkişafı isə incəsənət tarixçiləri daha dərindən araşdırırlar. Rəssamlar haqqında buklet, məqalə, monoqrafiya və digər elmi əhəmiyyət kəsb edən əsərlərin hazırlanmasında sənətşünasların mühüm rolu vardır. Tədqiqat xarakterli yazılar dəqiq, düzgün şəkildə işlənilərək gələcək nəsillərə ötürülür. Müasir Azərbaycan sənətşünaslığında bir-birindən maraqlı əsərləri ilə mühüm yer tutan alimlərdəm biri də əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyevdir.

**Sənətşünas Ziyadxan Əliyev tədqiqatlarında Səttar Bəhlulzadə fenomeni.** Professor Ziyadxan Əliyev tədqiqatlarında Səttar Bəhlulzadə yaradıcılığı mühüm yer tutur. Dahi rəssamla tanışlığı və ondan sənət barəsində eşitdikləri, onun sənətşünas olmaq fikrini gücləndirir. Hətta Z.Əliyevin diplom müdafiəsində iştirak edərək “Bahar” əsəri barəsində xoş sözləri, onun rəngkarlıq sahəsində ali təhsil almağını istəyirdi. Lakin gənc rəssamın sənətşünas olmaq istəyi S.Bəhlulzadə üçün gözlənilməz oldu. Lakin dahi sənətkar bu təhsilində ona xeyir duasını verir. Çox-çox sonralar “Sənətin məcnunu” kitabı üzərində çalışan Ziyadxan Əliyev onun gündəlikləri ilə tanış olanda öz mövqeyi olmayan sənətşünasların ünvanına kifayət qədər tənqidi fikirlərə rast gəlir və gələcəkdə də onun adının belələrinin arasında çəkilməsini istəmirmiş. Səttar Bəhlulzadə “Gərək bizim tənqidçilər rəsm texnikasını yaxşı bilsinlər, onu tək quru sözlərlə yox, əsərlərlə göstərməlidirlər” fikri də buna sübutdur.

